Xalqın qəzeti!

# Xalq qəzeti

№ 14 (30418) 24 yanvar 2024-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

xalqqazeti.az

## Erməni keşiş məğlub ölkəni savaşa çağırır



Səhifə ⇨ 4

# Şimal – Cənub Nəqliyyat Dəhlizinin regional önəmi artır

## Prezident İlham Əliyev Rusiya Hökuməti sədrinin müavini Aleksey Overçuku qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 23-də Rusiya Federasiyası Hökuməti sədrinin müavini, Hökumətlərarası Komissiyanın həmsədri Aleksey Overçuku qəbul edib.**

Görüşdə ölkələrimiz arasında iqtisadi əməkdaşlıqla bağlı nəticələr baxımından 2023-cü ilin uğurlu olduğu bildirildi. Ötən ilin dekabrında Sankt-Peterburqda MDB Dövlət Başçılarının qeyri-rəsmi görüşü çərçivəsində Azərbaycan və Rusiya prezidentlərinin təmasları məmnunluqla xatırlandı.

Söhbət zamanı iqtisadi əməkdaşlığın geniş gündəliyə malik olduğu vurğulanaraq, qarşıda bu sahədə yeni istiqamətlər üzrə planların nəzərdə tutulduğu bildirildi. Ticarət dövriyyəsinin 17,5 faiz, həmçinin yük və tranzit daşımalarının davamlı artımı əməkdaşlığımızın yaxşı göstəricisi kimi dəyərləndirildi. Azərbaycan–Rusiya əməkdaşlığının inkişafının əsas istiqamətləri üzrə 2024–2026-cı illər üçün Yol Xəritəsinin imzalanmasının əhəmiyyəti vurğulandı. Aleksey Overçukun səfərinin əlaqələrimizin genişləndirilməsi işinə xidmət edəcəyinə əminlik bildirildi.

Görüşdə nəqliyyat-logistika, Şimal–Cənub Nəqliyyat Dəhlizinin təşviqi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

# AŞPA-nın Azərbaycan “problemi”: ədalətsizliyin anatomiyası






### “Siyasi aşbazlıq”: qəribə Qərb

Avropa Şurası Parlament Assambleyası (AŞPA) bütövlükdə Avropa İttifaqı və ATƏT kimi “siyasi aşbazlıq”la məşğuldur. Yəni onlar məsələləri hüquq və ədalət prinsipləri ilə həll etmək əvəzinə, əsas olmadan “ocağı körükləyir və problemi dərinləşdirirlər”. Bununla da “yalanlar bişirilir” və həqiqət formasında “siyasət süfrəsi”nə gətirilir.

AŞPA-nın Avropadan olan bir sıra deputatları açıqca kənar sifarişləri yerinə yetirirlər və ikili standarta görə davranırlar. Elə situasiyalar olur ki, AŞPA çox sadə şəkildə yalan və qərəz nümayiş etdirir. Bunun Azərbaycana münasibətlə bağlı kifayət qədər nümunələri var.

Bundan başqa, diqqəti çəkən məqamlardan biri, Aİ-də liderlik uğrunda rəqib olan Fransa və Almaniyanın AŞPA-da ədalətsiz davranış müstəvisində birləşməlridir. Əslində, pərdəarxası mənzərəyə nəzər salanda burada qeyri-adi və gözlənilməz heç nə yoxdur. Öncə, AŞPA-nın Azərbaycanla bağlı son müzakirəsinə mediadakı ənənəvi yanaşmalardan bir qədər fərqli bucaq altında baxaq.

*(ardı 5-ci səhifədə)*

# Şvabe və Fransanın qırıq alman “şvabrası”

## *Yaxud AŞPA-nın anti-Azərbaycan mövqeyinə sözardı*

**Görünür, Avropa Şurası anti-Azərbaycan, həm də ermənipərəst ritorikasının dozasını artıq edib. Ölkəmizin qurumun Parlament Assambleyasındakı səsini dondurmaq təşəbbüsünü yalnız bu cür qiymətləndirmək mümkündür. Məlum olduğu kimi, təşəbbüsün müəllifi almaniyalı deputat Frank Şvabedir. Bu, həmin Frank Şvabedir ki, 2020-ci il fevralın 9-da Azərbaycanda keçirilmiş parlament seçkilərində AŞPA-nın müşahidə missiyasının rəhbəri olmuş və prosesdən sonra da qərəzli bəyanatı ilə yadda qalmışdı.**



Bəli, indi həmin F.Şvabe, niyəsə, bu fikrə gəlir ki, Azərbaycanda vəziyyət gün-gündən pisləşir. Əslində, almaniyalı deputatın bu fikri qərəzin bariz göstəricisidir. Məsələ heç də təkcə onda deyil ki, o, gözünün içinə qədər yalan deyir. Başlıca məqam Strasburqda AŞPA-nın qış sessiyasının ilk günündə müzakirəyə çıxarılmış məsələnin mahiyyətidir. Yəni, avroparlamentarilər Şvabenin dilə gətirdiyi xüsusa deyil, “təşkilatın prinsiplərinin pozulması” məntiqinə səs verərək Azərbaycanın təmsilçiliyinin dondurulmasını dəstəkləyiblər.

*(ardı 3-cü səhifədə)*

## 37 ölkədə 49 seçki məntəqəsi təşkil edilib



Səhifə ⇨ 6

## Borrelin yalanları sərhəd tanımır



Səhifə ⇨ 4

## Qarabağda və Şərqi Zəngəzurda məşğulluq layihələri



Səhifə ⇨ 9

## “Bayden odla oynayır...”



Səhifə ⇨ 11

# İqtisadi siyasətin strateji hədəfləri



Səhifə ⇨ 7

# Azərbaycan ilə Küveyt arasında əməkdaşlıq çoxtərəfli və perspektivlidir



**Yanvarın 23-də xarici işlər naziri Ceyhun Bayramov Küveyt–Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Məhəmməd Haif Əl-Muteyrinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Görüşdə Azərbaycan ilə Küveyt arasında ikitərəfli, çoxtərəfli əməkdaşlıq məsələləri, habelə bölgədə mövcud vəziyyət müzakirə olunub.

Nazir Ceyhun Bayramov iki ölkə arasında müxtəlif, o cümlədən iqtisadi, alternativ enerji, ticarət, kənd təsərrüfatı, balıqçılıq, turizm, mədəniyyət, təhsil və digər sahələr üzrə qarşılıqlı faydalı əməkdaşlıq gündəliyinin və perspektivlərin mövcud olduğunu məmnunluqla qeyd edib. Xüsusilə regional və beynəlxalq təşkilatlar, o cümlədən Birləşmiş Millətlər Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı çərçivəsində iki ölkənin bir-birinə göstərdiyi qarşılıqlı dəstəyin əhəmiyyəti vurğulanıb.

2024-cü ilin, eyni zamanda, Azərbaycan ilə Küveyt arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinin qeyd edilməsi ilə əlamətdar olduğu diqqətə çatdırılıb. Ölkələrimiz arasında münasibətlərin inkişafında parlament diplomatiyasının, o cümlədən iki ölkənin parlamentarilərinin qarşılıqlı səfərlərinin müsbət rol oynadığı bildirilib.

Əlaqələrin inkişaf perspektivlərinin zəngin olduğu, bu istiqamətdə mövcud potensialdan səmərəli istifadə edilməsi məqsədilə siyasi məsləhətləşmələr mexanizminin, Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında Əməkdaşlıq üçün Birgə Komissiyanın böyük əhəmiyyətə malik olduğu diqqətə çatdırılıb.

*XQ*

# Ülvi Baxşəliyev etimadnaməsini Moldova Prezidentinə təqdim edib



**Azərbaycanın Moldovaya yeni təyin olunmuş səfiri Ülvi Baxşəliyev etimadnaməsini Prezident Maya Sanduya təqdim edib.**

Görüş zamanı Azərbaycan–Moldova münasibətlərinin mövcud durumu, ikitərəfli və çoxtərəfli formatlarda inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

*XQ*

# XİN Cozep Borrelin əsassız iddialarını qətiyyətlə rədd edir

**Yanvarın 22-də Xarici Əlaqələr Şurasının illik yekunlarına dair mətbuat konfransı zamanı Avropa İttifaqının Xarici Əlaqələr və Təhlükəsizlik Siyasəti üzrə ali nümayəndəsi, Aİ Komissiyasının vitse-prezidenti Cozep Borrelin Azərbaycana qarşı səsləndirdiyi əsassız iddiaları qətiyyətlə rədd edirik.**



Bu barədə Azərbaycanın Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Ayxan Hacızadə C.Borrelin iddialarına dair şərhində bildirib.

"Ali nümayəndə Azərbaycan Prezidentinin Azərbaycan və Ermənistan ərazilərinə dair tarixi faktlarla bağlı fikirlərini tamamilə təhrif etməklə yanaşı, Azərbaycana qarşı hərbiləşmə və təcavüzkar siyasəti qızışdırır. Beynəlxalq ictimaiyyətin Ermənistanı beynəlxalq hüququn norma və prinsiplərinə uyğun hərəkət etməyə inandırmaq üçün heç bir səy göstərməməsinə baxmayaraq, Azərbaycan hər zaman Ermənistanla danışıqlara, sülhə və sabitliyə sadiq olub. Azərbaycanın təcavüzə və separatizmə son qoyduğu tədbirlər Ermənistanla sülh sazişinin bağlanmasına zəmin yaradır.

Bundan əlavə, Aİ nümayəndəsinin diplomatların ölkədən çıxarılması ilə bağlı Fransa ilə həmrəyliyini ifadə etməsi davam edən hüquqi araşdırma prosesinə açıq müdaxilə olmaqla yanaşı, Azərbaycandan qovulmuş fransız diplomatların qanunsuz hərəkətlərinə haqq qazandırmağa bərabərdir", - deyə XİN rəsmisinin şərhində vurğulanıb.

Ayxan Hacızadə əlavə edib ki, Azərbaycan beynəlxalq öhdəliklərinə və beynəlxalq hüquqa sadiq olmaqla yanaşı, milli maraqlarına zidd olan hər hansı iddiaların və təhdidedici dilin legitimləşdirilməsi cəhdlərinin qarşısını qətiyyətlə alacaq.

*XQ*

# Komitə sədri vətəndaşların müraciətlərini dinləyib



**Yanvarın 23-də Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev əvvəlcədən növbəlilik əsasında görüşə yazılmış vətəndaşları qəbul edib.**

Görüşdə əksəriyyəti məcburi köçkün olan vətəndaşların müraciətləri dinlənilib və qeydə alınıb. Onlara bildirilib ki, qaldırılan məsələlər araşdırılacaq və qanunvericiliyə uyğun şəkildə həll ediləcək.

*XQ*

# Mübariz Qurbanlı Şirvanda qəbul keçirib

**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı yanvarın 23-də Şirvan şəhəri, Hacıqabul, Salyan, Neftçala və Biləsuvar rayonlarından olan vətəndaşlarla görüşüb, müraciətlərini dinləyib.**



Görüşdə vətəndaşlar dini icmaların qeydiyyatı, dini maarifləndirmə işinin genişləndirilməsi, İslam dininə aid ibadət yerlərinə din xadiminin təyinatı, habelə digər məsələlərlə bağlı müraciətlər ediblər.

Dövlət Komitəsinin aidiyyəti struktur bölmə rəhbərinin iştirakı ilə keçirilmiş görüşdə ərizələr qəbul edilərək, müvafiq tədbirlərin görülməsi ilə bağlı tapşırıqlar verilib.

*XQ*

# Vüsal Hüseynov Cahit Bağçı ilə görüşüb

**Dövlət Miqrasiya Xidmətinin rəisi Vüsal Hüseynov Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağçı ilə görüşüb, iki ölkə arasında əməkdaşlıq imkanları müzakirə edilib. Bu barədə səfirliyin rəsmi "X" hesabında məlumat verilib.**



Bildirilib ki, görüş zamanı hər iki ölkə vətəndaşlarının, şirkətlərinin, eyni zamanda iş adamlarının maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Konsulluq sahəsində əlaqələrin qarşılıqlı inkişafı və əməkdaşlıq imkanları müzakirə olunub.

*XQ*

# Türk Dövlətləri Rəqabət Şurası yaradılıb

## *Qurumun növbəti iclası Şuşada keçiriləcək*

**Türk Dövlətləri Təşkilatına üzv ölkələrin rəqabət orqanlarının təşəbbüsü ilə Türk Dövlətləri Rəqabət Şurası yaradılıb.**

Bu barədə üzv dövlətlərin nümayəndələrinin İstanbulda keçirilən toplantısında qərar qəbul edilib.

Toplantıda vurğulanıb ki, Rəqabət Şurası bir tərəfdən üzv dövlətlər arasında tarixi, mədəni əlaqələri gücləndirəcək, digər tərəfdən rəqabət hüququ ilə bağlı problemlərin həllinə xidmət edəcək, müxtəlif vasitələrlə regionda rəqabət mədəniyyətini formalaşdıracaq.

Şuranın növbəti iclasının Azərbaycanın işğaldan azad edilən Şuşa şəhərində keçiriləcəyi planlaşdırılır.

*XQ*



# Ordumuz Türkiyə modelinə uyğunlaşdırılır

**Azərbaycanda səfərdə olan Türkiyə Respublikasının Milli Müdafiə Universitetinin rektoru, professor Erhan Afyoncunun rəhbərlik etdiyi nümayəndə heyəti yanvarın 23-də Müdafiə Nazirliyinin Milli Müdafiə Universitetini və onun nəzdində fəaliyyət göstərən hərbi təhsil müəssisələrini ziyarət edib.**

Bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

Qonaqlara Müdafiə Nazirliyinin strukturuna daxil olan təhsil müəssisələrinin yaranma tarixi, təhsil sistemi və tədris prosesi, eləcə də elmi fəaliyyəti haqqında brifinq təqdim olunub.



Azərbaycan və Türkiyə milli müdafiə universitetlərinin rəhbər heyəti arasında keçirilən görüşdə dövlətimizin başçısının hərbi təhsil sisteminin inkişafına göstərdiyi qayğısından, Azərbaycan Ordusunda bu sahədə aparılan islahatlar, eləcə də Ordumuzun Türkiyə modelinə uyğunlaşdırılması istiqamətində görülən işlərdən danışılıb.

Azərbaycan Prezidentinin müvafiq fərmanı və sərəncamı ilə Bakı, Gəncə şəhərlərində və Naxçıvan Muxtar Respublikasında yaradılan xüsusi təyinatlı hərbi kollecləri əhəmiyyəti, eləcə də hərbi kadrlar hazırlayan təhsil müəssisələri kursantlarının sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlərin gənclərin hərbi xidmətə marağının əhəmiyyətli dərəcədə artmasına imkan verəcəyi qeyd olunub.

Görüşdə iki qardaş ölkənin hərbi təhsil sahəsində əməkdaşlığının daha da genişləndirilməsindən söhbət açılıb, bu istiqamətdə görüləcək işlər, eləcə də qarşılıqlı maraq doğuran bir sıra məsələlər barədə ətraflı fikir mübadiləsi aparılıb.

*XQ*

# Şvabe və Fransanın qırıq alman “şvabrası”



*(əvvəli 1-ci səhifədə)*

Sual olunur: təşkilatın prinsiplərinin pozulması hara, “Azərbaycanda vəziyyətin günü-gündən pisləşməsi” hara? Sözümüz ondadır ki, AŞPA-dakıların Azərbaycana qarşı aşkar qərəzi onların öz prinsiplərinə də hörmətsiz yanaşmaları ilə bağlı durum formalaşdırıb. Bu isə bir daha onu göstərir ki, onlar konkret sifariş yerinə yetiriblər. Sifariş kimdən gəlir, onu yazının sonunda bildirəcəyik.

Bəli, F.Şvabe açıqlamasında vurğulayır ki, guya, Azərbaycanda demokratik seçkilər yoxdur, bunun üçün zəruri şərtlər yerinə yetirilmir. Adama deyərlər, nə yatdın ki, nə də yuxu görəsən? Ümumən, bu şəxs hələ keçirilməmiş prosesi nə üçün gözdən salmağa girişir? Əslində, sual ritorikdir. Çünki Ermənistanın işğalçı siyasətini dəstəkləyənlərdən, indi də erməni avantürizminin davamı üçün canfəşanlıq edənlərdən başqa gözlənti ola bilməz. Hər fürsətdəcə özlərinin yaramaz xislətlərini ortaya qoyacaqlar. Fürsət isə düşüb - 7 fevral Prezident seçkiləri. Şvabe və onun dostları prosesin Azərbaycan xalqının iradə meydanı olduğunu gözəl anlayırlar. Bilirlər ki, ölkəmizdə xalq-iqtidar birliyi möhkəm və sarsılmazdır. Bu birliyə çamur atmaq istəyirlər. Bir neçə gün əvvəl Azərbaycandakı qulbeçələri də meydana atılmışdılar. Namizədləri var imiş – Tural Sadıqlı. Bütün günü sosial şəbəkələrdə ağzına gələni danışan bu şəxs, guya, lider imiş. Budur, avropalıların, elə AŞPA-nın və oradakı ermənipərəstlərin ortaya çıxardıqları “siyasi güc”! Həqiqətən də ortada gülüş doğuracaq mənzərə var...

Əslində, “Azərbaycanda demokratik seçkilər yoxdur” deyimi ilə “Azərbaycanda siyasi məhbuslar var” klişesi ilk baxışdan bir-biri ilə əlaqəsiz məqamlardır. Yəni, fikirlər sırf seçki ritorikası baxımından üst-üstə düşmür. Ancaq bu deyimlərdə ehkamlaşmış anti-Azərbaycan təbliğatının izləri var. Məlum olduğu kimi, ölkəmizə qarşı çıxanlar həmişə yuxarıda qeyd etdiyimiz məsələlərlə, bir növ, silahlanıblar. F.Şvabe də eyni “kursu” davam etdirməkdədir. Belə nəticə hasil olur ki, əvvəl Azərbaycanın AŞPA-dakı təmsilçiliyini məhdudlaşdırmaq qərarı qəbul edilib, sonra isə həmin qərarı əsaslandırmaq üçün bəhanələr axtarılıb. Hansı səmtdən yanaşılsa, bəhanələr “təşkilatın prinsiplərinin pozulması” məntiqi ilə uzlaşmır. Axı Şvabe deyir ki, Azərbaycanın nümayəndə heyətinin başlıca öhdəliyi AŞPA təmsilçilərinin ölkəyə sərbəst girişini təmin etmək və seçkilərin müşahidəsi üçün dəvət göndərməkdir. Bu, tam texniki məsələdir. Niyə anlaşılmazlıq yaransın ki? Deməli, anlaşılmazlıq bir yana, ziddiyyətli durumu qəsdən formalaşdırmaq niyyəti güdənlər var. Onlar üçün seçkini izləmək önəmli deyil. Önəmli olan seçkiyə ləkə gətirməkdir. Buna görə cəfəng məsələləri əldə bayraq ediblər.

AŞPA doğrudan da Azərbaycandakı seçki prosesini izləməkdə maraqlıdırsa, o zaman nə üçün bu marağı Şvabe, özü də tam bir fikir deformasiyası şəklində ifadə etməlidir? O kimdir ki, səlahiyyət sahibi olsun? Adi bir deputat. Ancaq görünür, burada səlahiyyətlilik heç də başlıca məqam deyil. Şübhəsiz, almaniyalı parlamentari özü belə bir təşəbbüslə çıxış etməyib. Onu ortaya atan dairələr var və bu dairələr, tez-bazar, anti-Azərbaycan qərar çıxarıblar. Axı AŞPA-nın seçkiləri izləmək üçün ölkəmizə gəlməməsi bizə nə verəcək? Heç nə. Necə deyərlər, xoruz olmasa, səhər açılmırdı ki? Qurumun təmsilçiləri prosesdə müşahidə aparsalar, nə olacaq? Nə isə dəyişəcəkmi? Əlbəttə, yox! Onsuz da seçki tam demokratik şəraitdə keçiriləcək. Göründüyü ki, bütün bunlar yalnız bəhanədir.

Daha bir məqama diqqət yetirək. F.Şvabe AŞPA-nın məruzəçilərinin “Laçın dəhlizini ziyarət edə bilmədiklərini” də bəhanə gətirir. Görəsən, budamı “təşkilatın prinsiplərinin pozulması”dır? Yəni, Laçın yolu ilə bağlı məsələnin ümumi kontekstdə götürülməsini də anlamaq tam mümkünsüzdür. Yaxşı, tutalım, Laçın yolu prioritetdir və Azərbaycan həmin yolu bağlayıb. Sual olunur: yolun bağlanması nəticəsində əziyyət çəkdiyi bildirilən şəxslər kimlərdir? Ermənilər. Bəs həmin ermənilər hansı dövlətin ərazisində idilər? Azərbaycanın. Yəni, Avropa Şurası tərəfindən ərazi bütövlüyü və suverenliyi tanınmış Azərbaycanın. O zaman AŞPA nə üçün Azərbaycanın Qarabağın erməni sakinlərinə yardım göstərmək niyyətini nəzərə almayıb? Hansı səbəbdən indiyədək Ağdam-Əsgəran yolunun açılmasından söz açmayıb? Qarabağ ermənilərinə ancaq Laçın yolu vasitəsi ilə Ermənistandan göndərilən yardım çatmalı idi ki, durum insan hüquqlarının pozulması kimi qiymətləndirilməsin? Bəlkə, həmin yoldan bölgədəki keçmiş separatçı rejim üçün silah-sursat və minalar daşınmalı idi ki, təməl prinsiplər qorunmuş sayılsın?!

F.Şvabenin sözlərindən belə çıxır ki, bütün yuxarıda qeyd olunanlar Azərbaycanın AŞPA ilə əməkdaşlıq etmək istəməməsi ilə əlaqədardır. Guya, qurumun ölkəmizin səsini dondurmaq qərarına gəlməsi həm də bundan qaynaqlanır. Əlbəttə, almaniyalı deputatın söylədikləri digər məqamların üzərində də dayanmaq mümkündür. Amma buna ehtiyac duymuruq. Tam aydındır ki, ölkəmizə qarşı qərəzli münasibət xüsusi planlaşdırılmış saxta mahiyyətə söykənir. Yəni, F.Şvabe böyük oyunun kiçik “peşka”sıdır.

Bəli, AŞPA-nın qərarının Azərbaycanda insan hüquqlarının vəziyyəti ilə heç bir əlaqəsi yoxdur. Bu, öz suverenliyini və ərazi bütövlüyünü bərpa etmiş ölkəmizdən qisas almaq cəhdidir. Əlbəttə, son dərəcə cılız cəhddir. AŞPA vaxtilə ona qoşularaq ədalət axtarışında olan Azərbaycanın ümidlərini doğrultmadı. Haqqı deyil, nahaqqı dəstəklədi. Bunu xristian təəssübkeşliyinə əsaslanaraq etdi. Özünün təməl prinsiplərinə etinasız yanaşdı, insan hüquq və azadlıqlarının qayğısına qalmadı. Əksinə, ədalətsizliyin davamı, Azərbaycan torpaqlarının işğalda qalması üçün susqunluq nümayiş etdirdi. Ara-sıra mahiyyətcə neytral mövqe tutan növbətçi bəyanatlar verməklə, işğalın şüurlarda və düşüncələrdə möhkəmlənməsinə xidmət göstərdi.

AŞPA üçün Azərbaycanın bir milyon vətəndaşının öz doğma yurd-yuvasından, el-obasından didərgin düşüb məcburi köçkün həyatı yaşaması heç bir anlam daşımadı. Bu gün Qarabağdan öz xoşuna köçüb siyasi ambisiyaların girovuna çevrilməyi seçmiş Qarabağ ermənilərinin durumundan qat-qat ağır vəziyyətə düşmüş insanlarımızın çadır şəhərciklərində, vaqonlarda illərlə yaşamaları AŞPA üçün heç bir mənəvi məna kəsb etmədi. Təşkilatın bəyanatları lakmus kağızından o yana keçmədi.

Bəli, AŞPA bu gün də erməni avantürizminə xidmət edir. Qurumun Azərbaycana qarşı qərəzini başqa cür qiymətləndirmək mümkün deyil. Onun mövqeyi siyasi oyunbazlıqdır. Məlumdur ki, bu oyunbazlığa rəhbərlik edən Fransadır. Yəni, əvvəldə haqqında söz açdığımız sifarişçi rəsmi Parisdir. Alman F.Şvabe də əslində Fransanın Almaniyanı özünün anti-Azərbaycan ritorikasına alət etməsinin növbəti bariz obrazıdır.

**Ə.CAHANGİROĞLU**
**XQ**

# Daxili İşlər Nazirliyində kollegiya iclası



**Yanvarın 23-də Daxili İşlər Nazirliyində 2023-cü ildə cinayətkarlığa qarşı mübarizə, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi üzrə fəaliyyətin yekunlarına və cari ildə qarşıda duran vəzifələrə həsr olunan geniş kollegiya iclası keçirilib.**

İclası giriş sözü ilə açan nazir, general-polkovnik Vilayət Eyvazov xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 100 illiyinin böyük təntənə ilə qeyd edildiyi 2023-cü ildə ölkəmizin həyatında bir çox mühüm hadisələrin baş verdiyini, bunların arasında Azərbaycanın bütün ölkə ərazisində dövlət suverenliyinin bərpasının mühüm yer tutduğunu diqqətə çatdırıb.

Nazir vurğulayıb ki, Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə 2020-ci il sentyabrın 27-də Ermənistanın davamlı hərbi təxribatlarına cavab olaraq başlanan Vətən müharibəsində qazanılan Zəfərdən və ötən il sentyabrın 19-20-də həyata keçirilmiş lokal xarakterli antiterror tədbirləri ilə Xankəndi, Xocalı, Ağdərə və digər ərazilər düşməndən azad edildikdən sonra Qarabağ və Şərqi Zəngəzurda xidmət aparan polis və Daxili Qoşunlar Böyük Qayıdış proqramının həyata keçirilməsi üçün əzmlə çalışaraq üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirir, ictimai asayişin keşiyində ayıq-sayıq dayanırlar.

Antiterror tədbirlərində 12 hərbi qulluqçunun və 8 polis əməkdaşının şəhid olduğunu vurğulayan nazirin təklifi ilə şəhidlərin xatirəsi ehtiramla yad edilib.

Hesabat məruzəsi ilə çıxış edən nazir V.Eyvazov bildirib ki, ötən il əməliyyat-axtarış və istintaq fəaliyyətinin subyekti olan bütün dövlət qurumları üzrə 36 min 811 cinayət qeydə alınıb, onlardan 87,8 faizi açılıb, əhalinin hər 100 min nəfərinə düşən cinayətlərin sayı 360 fakt təşkil edib. Cinayətlərin 94,5 faizi və ya 34 min 783-ü daxili işlər və prokurorluq orqanlarının prosessual qaydada araşdırdığı hüquqazidd əməllər olmaqla 89,6 faizinin açılması təmin edilib.

Cinayətlərin ağır və xüsusilə ağır növlərinin 89,6, qeyri-aşkar şəraitdə baş verənlərin 84,6, şəxsiyyət əleyhinə olanların 98,4, onlardan qəsdən adam öldürmələrin 96,1, adam öldürməyə cəhdlərin 97,4, qəsdən sağlamlığa ağır zərər vurma hallarının 98,9, xuliqanlıq hallarının 96,3, mülkiyyət əleyhinə olanların 79,6, o cümlədən soyğunçuluq hallarının 98,1, quldurluq hallarının və hədə-qorxu ilə tələb etmə hallarının 97,5, avtonəqliyyat vasitəsini qaçırma hallarının 97,2, dələduzluq hallarının 92,1 faizi açılıb.

Eyni zamanda, keçmiş illərdən bağlı qalmış cinayətlərin açılmasında prokurorluq orqanlarının əməkdaşları ilə birgə nəzərəçarpan irəliləyiş əldə edildiyi, 426 fakt üzrə təqsirli şəxslərin məsuliyyətə cəlb olunduğu, o cümlədən cinayətlərin ağır, xüsusilə ağır və transmilli mütəşəkkil növlərinin qarşısının alınması və istintaqı kimi mühüm vəzifələrin icrasında böyük iş həcminin yerinə yetirildiyi, habelə Dövlət Təhlükəsizliyi Xidməti ilə sıx qarşılıqlı əlaqədə dini radikalizmə qarşı mübarizədə həyata keçirilmiş tədbirlərlə önəmli nəticələrə nail olunduğu xüsusi vurğulanıb və həmin dövlət orqanlarının əməkdaşlarına və rəhbərliyinə təşəkkür ifadə edilib.

Təqsirləndirilən şəxslərin axtarışının nəticələri də 2,3 faiz yaxşılaşaraq 87,8 faiz təşkil edib, İnterpolun Milli Mərkəzi Bürosu vasitəsilə beynəlxalq axtarışa verilmiş 108 şəxsin və bu təşkilata üzv ölkələr tərəfindən axtarılan 53 nəfərin yeri müəyyən olunub.

Qanunsuz odlu silah saxlama və daşıma ilə bağlı 494 fakt müəyyən edilib, həmin cinayətlərə görə 262 nəfər tutulub. Ümumilikdə 12 min 648 odlu silah və 2,5 milyona yaxın sursat aşkarlanıb.

Qeyri-leqal dövriyyədən müxtəlif nominallı 3 min 487 saxta əsginas, istifadə müddəti ötmüş 6 min 310 ton yeyinti məhsulu və tikinti materialı çıxarılıb.

Narkotiklərlə mübarizənin vəziyyətinə toxunan nazir V.Eyvazov son illər müvafiq sahədə görülən işləri müsbət qiymətləndirərək bildirib ki, qanunsuz dövriyyədən 4 ton 464 kiloqram, yəni 2022-ci illə müqayisədə 1 ton 46 kiloqram çox narkotik vasitə götürülüb, 620 kiloqram narkotikin qaçaqmalçılıq yolu ilə ölkəyə gətirilməsinin qarşısı alınıb, onlayn satışla bağlı 366 fakt aşkarlanıb və müvafiq cinayətlərlə əlaqədar 160 cinayətkar qrup zərərsizləşdirilib.

Məruzə ətrafında çıxış edənlər görülən işlər, əldə olunan uğurlar, nöqsan və çatışmazlıqlar, onların aradan qaldırılması üçün həyata keçirilən tədbirlərdən danışıblar.

Kollegiya iclasına yekun vuran nazir, general-polkovnik V.Eyvazov cinayətkarlığa qarşı mübarizədə, qanunçuluğun və hüquq qaydasının qorunması sahəsində müsbət nəticələrin inkişaf etdirildiyini xüsusi vurğulayaraq xidməti fəaliyyətin səmərəliliyinin daha da artırılması ilə bağlı tapşırıq və tövsiyələrini verib.

**XQ**

# Baronessa Koks və dostlarının təxribatının qarşısı alınıb

**Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığında fəaliyyət göstərən Azərbaycan icması erməni diasporunun və havadarlarının növbəti təxribatının qarşısı alıb.**




Britaniya Azərbaycanlıları Cəmiyyətinin sədri Fəridə Pənahova bildirib ki, Londonun mərkəzində yerləşən məşhur Karlton Klubu fevralın 5-də “Ermənistan: Dağlıq Qarabağın etnik təmizlənməsi” mövzusunda keçirilməsi nəzərdə tutulan tədbirə ev sahibliyi etməyi planlaşdırırdı. Bu tədbir qatı ermənipərəst, türkülüyə və İslam dininə düşmən münasibət bəsləyən Baronessa Karolina Koks, ona dəstək verən Lord de Moli TD və Ermənistanın Birləşmiş Krallıqdakı səfiri Varujan Nersesyan tərəfindən təşkil olunmalı idi.

Bundan xəbər tutan Britaniya Azərbaycanlıları Cəmiyyəti ölkədəki Azərbaycan İcmasının adından Karlton Klubunun rəhbərliyinə açıq etiraz məktubu göndərib və klubun rəhbərliyini bu qərəzli tədbiri ləğv etməyə çağırıb.

Karlton Klubunun katibi Simon Robinsonun adından Britaniya Azərbaycanlıları Cəmiyyətinə ünvanlanan məktubda bu görüşün klubda baş tutmayacağı təsdiqlənib. “Bu, bizim Britaniya diasporunun erməni diasporu və erməniperəstlər üzərində növbəti qələbəsidir”, – deyə Fəridə Pənahova vurğulayıb.

**XQ**

# Gənclər ədliyyə orqanlarında





**Ədliyyə orqanlarında hazırlıqlı gənc hüquqşünasların qulluğa qəbulu məqsədilə davamlı müsabiqələr keçirilir. Bugünlərdə növbəti müsabiqəyə yekun vurularaq uğur qazanmış, əksəriyyətini gənclər təşkil edən hüquqşünaslar ədliyyə orqanlarına qulluğa qəbul edilib və müvafiq təyinatlar aparılıb. Yanvarın 23-də yeni əməkdaşlarla ədliyyə naziri Fikrət Məmmədovun görüşü keçirilib.**

Nazir ulu öndər Heydər Əliyevin əsasını qoyduğu dövlət gənclər siyasətinə uyğun olaraq həyata keçirilən bu tədbirlərin ötən 20 ildə daha geniş vüsət aldığını diqqətə çatdırıb.

Bildirilib ki, ədliyyə orqanlarında da gənclər geniş təmsil olunur, onlara xüsusi qayğı ilə yanaşılır. Gənclərin işlə təminatı daim diqqətdə saxlanılaraq şəffaf müsabiqə yolu ilə bu günədək 3 min 400-dən çox şəxs qulluğa qəbul olunub. Müsabiqədə uğur qazanan namizədlərin 70 faizindən çoxu məhz gənclərdir.

Sonda qulluğa yeni qəbul olunmuş əməkdaşlar Dövlət Bayrağı önündə təntənəli qaydada and içiblər, onlara xidməti vəsiqələr təqdim edilib.

**XQ**

# Borrelin yalanları sərhəd tanımır

**Avropa İttifaqının (Aİ) xarici əlaqələr və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Cozep Borrel yenə öz ampluasındadır. Anti-Azərbaycan açıqlamalar verməyi vərdiş halına gətirmiş Borrel yanvarın 22-də növbəti böhtanlarını səsləndirib. Qeyd edək ki, həmin gün Aİ-nin Xarici Əlaqələr Şurasının iclasında digər məsələlərlə yanaşı, Ermənistan və Azərbaycan arasında münasibətlər də müzakirə olunub.**



İclasın yekunlarına dair keçirilən mətbuat konfransı zamanı C.Borrel deyib: "Avropa İttifaqı Azərbaycanın Ermənistana qarşı ərazi iddialarından (?) narahatdır. Biz razılaşdıq ki, Azərbaycan Ermənistanla sülh və nizamlanma üzrə məzmunlu danışıqlara qayıtmalıdır. Azərbaycanın son vaxtlar ərazi iddiaları (?) ciddi narahatlıq doğurur. Ermənistanın ərazi bütövlüyünün istənilən pozulması yolverilməz olacaq və Azərbaycanla münasibətlərimizdə ciddi nəticələrə gətirib çıxaracaq".

Qeyd etdiyimiz kimi, J.Borrel hər zaman anti-Azərbaycan məzmunlu, ermənipərəst açıqlamaları ilə seçilib. Onun səsləndirdiyi fikirlər heç bir ölçüyə sığmayıb. Bu dəfə də istisna deyil. Halbuki, o, öz fikirlərini diplomatik etiket qaydalarına uyğun olaraq da ifadə edə bilərdi. Ancaq Borrelin erməni sevgisinin, necə deyərlər, dərəcəsinin yüksəkliyi onun bütün çərçivələri aşmasına gətirib çıxarıb. Diplomatiya isə yüksək vəzifəli şəxsdən fikirlərini ölçülüb-biçilmiş formada ifadə etməyi tələb edir.

Borrelin birinci yalanı Azərbaycanın Ermənistana qarşı, guya, ərazi iddiasının olması ilə bağlıdır. Azərbaycanın rəsmi şəxslərinin başqa ölkələrin torpağında gözümüzün olmadığını dəfələrlə vurğulamalarına baxmayaraq, Borrel və onun kimilər eyni fikri dönə-dönə təkrarlayırlar. Onların hansı səbəbdən bu qənaətə gəldiklərini müəyyənləşdirmək olmur. Bununla qeyri-ciddi göründüklərinin fərqinə də varmırlar. Azərbaycanın niyyəti isə özünün əzəli torpaqlarını işğaldan azad etmək idi. Bu məqsədlə uzun müddət aparılan danışıqlar səmərə vermədi. 2020-ci ildə 44 günlük Vətən müharibəsi nəticəsində işğal altındakı torpaqlarımız azadlığına qovuşdu. Ötən ilin sentyabrında aparılan lokal xarakterli antiterror tədbirləri isə ərazi bütövlüyümüzün tam təmin olunması, dövlət suverenliyimizin bərpası ilə nəticələndi. Qərbdəki bəzi dairələr 2020-ci il 10 noyabr tarixində üçtərəfli bəyanatın imzalanmasından sonra Azərbaycanı Zəngəzur dəhlizinin açılması üçün Ermənistanın Meğri rayonunu tutacağını bildirirdilər. Halbuki, ölkəmiz ərazi iddiası yoxdur, bəyanatda əksini tapan müddəanın – kommunikasiyaların açılmasının həyata keçirilməsinə çalışır. Dəfələrlə bildirilmişdi ki, kommunikasiyalar keçdikləri ölkələrin suverenliyi və yurisdiksiyasında qalacaq. Dəhliz sözü İrəvanda xüsusilə qıcıq doğururdu. Nəhayət, Ermənistanın öz öhdəliklərindən imtinası Azərbaycanın İran ərazisindən keçməklə Naxçıvanla nəqliyyat əlaqəsinin yaradılmasına dair Tehranla razılığa gəlməsinə gətirib çıxardı. İndi isə Ermənistanın baş naziri Nikol Paşinyan regionda kommunikasiyaların açılmasından dəm vurur, "Sülhün kəsişməsi" kimi təşəbbüslər irəli sürür və bildirir ki, Azərbaycan–İran sazişinin oxşarını o da Bakı ilə imzalaya bilər. Cənab Borrelin bütün bunlardan xəbərdar olmaması onun öz işinin öhdəsindən lazımınca gələ bilməməsinin göstəricisidir.

Ali nümayəndənin ikinci yalanı Azərbaycanın, guya, danışıqlardan imtina etməsi ilə bağlıdır. Borrel bu məsələdə də haqsızdır. Azərbaycanla Ermənistan arasında danışıqlar gedir. Tərəflər arasında sülh sazişinin mətni razılaşdırılır. Bakı və İrəvan sazişə dair təkliflərini bir-birlərinə təqdim edirlər. Ermənistan sazişin mətni ilə bağlı sonuncu təkliflərini 70 gündən çox yubatdı. Göründüyü kimi, bu məsələdə də təqsirkar tərəf İrəvandır. Hazırda top Ermənistanın tərəfindədir. Onların həqiqətən, səmimi şəkildə istədikləri təqdirdə regionda sülh bərqərar olunacaq, istəməsələr indiki vəziyyət hələ uzun müddət davam edəcək. Bundan da əziyyət çəkən, ilk növbədə, Hayastan olacaq. Əgər Borrelin ermənilərə canı yanırsa, bu barədə İrəvandakı dostları ilə müzakirələr aparmasında fayda var. Bunu etmədən Azərbaycanı birtərəfli qaydada ittiham etmək mənasızdır.

Mövzu ilə bağlı fikirlərini "XQ" ilə bölüşən siyasi analitik Tofiq Abbasov bildirdi ki, C.Borrelin son açıqlaması çox cəfəng, lazımsız və zərərli açıqlamadır. Onun sözlərinə görə, ümumiyyətlə Qərbin ölkəmizə münasibəti köklü surətdə mənfidir. Bu isə dünənin və ya bu günün işi deyil: "Məsələ ondadır ki, Azərbaycana münasibət türk-müsəlman ölkəsi olduğu üçün neqativdir. Bunu açıq demək lazımdır. Erməni işğalçılığının davam etdiyi dövrdə Borrel kimi şəxslərin heç birinin səs-səmiri çıxmırdı. Onlar bunu normal qəbul edirdilər. Azərbaycanın fəryadını heç kim eşitmirdi. Bir milyona yaxın soydaşımız qaçqın və məcburi köçkün vəziyyətində idi, müvəqqəti sülh şəraitində az qala hər gün itki verirdik, cəbhə bölgəsində yaşayan insanlar kənd təsərrüfatı işləri ilə məşğul ola bilmirdilər. Onlar ermənilərin bütün bu cinayətlərinə göz yumurdular. İndi bütün bu proseslər hamısı geridə qalıb. Biz öz gücümüzlə Ermənistanın dərsini verdikdən sonra bunların, necə deyərlər, keflərinə soğan doğranıb. Özlərini elə aparırlar ki, guya, Azərbaycan bölgədə Ermənistana təhdid törədir. Ermənilər azərbaycanlılara divan tutanda, onları kütləvi şəkildə etnik təmizləməyə məruz qoyanda, Ermənistandan deportasiya edəndə heç kəsin səsi çıxmırdı. Odur ki, Borrel kimilərin bəyanatları siyasi alverin bariz nümunəsidir. Onlar düz yolda olan, heç bir qayda-qanunu pozmayan Azərbaycanı gözümçıxdıya salmağa çalışırlar. Məqsəd odur ki, ictimai fikri bizə qarşı yönəltsinlər. Digər tərəfdən, bizi borclu çıxarsınlar ki, guya, ermənilərə təhdid törədirik".

Tofiq Abbasov qeyd etdi ki, hazırda Fransa canfəşanlıq edir, Belçika kimi ölkələr ona dəstəvüz verir, ABŞ bütün bu proseslərə əl çalır: "Amma onlar elə bilirlər ki, Azərbaycan 30 il bundan əvvəlki ölkədir. Xeyr, onlar səhv edirlər. Bu günün Azərbaycanı özünə güvənən, güclü orduya, güclü iqtisadi potensiala və ən əsası etibarlı strateji resurs bazasına malik dövlətdir. Bu bizə imkan verəcək ki, bütün təhdidlər qarşısında həm duruş gətirək, həm də öz işimizi məntiqi sonluğa çatdıraq".

Siyasi analitik bildirdi ki, bəzi qüvvələr, ekspertlər, hətta, neytral mövqedən yanaşanlar da Azərbaycanın çox böyük, möhtəşəm qələbə qazandığını, Qərbin isə bunu ölkəmizə bağışlamaq niyyətinin olmadığını qeyd edirlər: "Bəs Azərbaycan nə edib? Bəyəm Ermənistanın torpaqlarını tutub? Xeyr, tutmayıb. Öz torpaqlarını azad edib. Bu məsələnin birinci tərəfidir. İkincisi də bizim Ermənistanın torpaqlarında gözümüz yoxdur. Borrel burada ağ yalan danışır, riyakarlıq edir. O, fitnə-fəsadla məşğuldur. Özü də bu, təkcə onun özünün sözü deyil. Bu, kollektiv Qərbin Azərbaycana olan münasibətinin göstəricisidir. Onlar mərdi qova-qova namərd etmək istəyirlər. Amma bizdən namərd çıxmaz. Bir namərd varsa, o da Ermənistandır ki, çoxdan Qərbin qulluğunda dayanıb".

Qeyd edək ki, Aİ rəsmisinin açıqlaması ilə bağlı Xarici İşlər Nazirliyi də öz mövqeyini açıqlayıb. Nazirlik Borrelin Azərbaycana qarşı səsləndirdiyi iddiaları qətiyyətlə rədd edib. Qeyd edib ki, Aİ-nin ali nümayəndəsi tərəfindən faktların açıq-aşkar təhrif edilməsi Azərbaycanın legitim maraqlarına etinasızlıqdır və bu cür hədələyici ritorika Azərbaycan-Aİ münasibətlərini daha da gərginləşdirən ikili standartın bariz nümunəsidir.

*Səxavət HƏMİD*
*XQ*

## Ekspert rəyləri



**Tofiq ZÜLFÜQAROV, politoloq**

– Ermənistan və Azərbaycan arasındakı məsələlər danışıqlar yolu ilə öz həllini tapacaq. Ancaq proses yekunlaşmamış Cozep Borrel tərəfindən belə bir bəyanatın səsləndirilməsi, doğrusu, başadüşülən deyil. Buradan belə çıxır ki, onlar Bakı və İrəvandan əvvəl özləri üçün "sərhədləri" müəyyənləşdiriblər, yaxud da Paşinyanın təklif etdiyi variantları tanıyıblar. Borrelin açıqlaması məntiqsizdir, heç bir hüquqi əsası yoxdur və təbliğat xarakteri daşıyır. Əslində isə Ermənistana onun mövqeyini dəstəkləməyə hazır olduqlarını göstərmək istəyirlər.

Azərbaycana qarşı hansısa sanksiyaların tətbiqi üçün ciddi əsaslar və sübutlar olmalıdır. Bunlar isə yoxdur. Borrel hansı ərazi bütövlüyündən danışır? Ermənistanın konstitusiyasında və müstəqillik aktında açıq şəkildə həm Azərbaycana, həm də Türkiyəyə qarşı ərazi iddiaları var. Bəs bunu necə izah edəcəklər? Ermənistanın özü hələ 1975-1991-ci il xəritələrindən danışır. Yəni, ortada nəticə yoxdur. Nəticə əldə olunandan sonra artıq tərəf olmaq mümkündür. Həm müzakirələrə çağırıb, həm də Ermənistanın "ərazi bütövlüyünün pozulması ehtimalı"ndan danışmaq ikiüzlülükdür.



**Fikrət SADIXOV, politoloq**

– Cozep Borrelin siyasi fəaliyyəti İspaniyadan başlayıb. Çünki o İspaniyanın nümayəndəsidir. Mənə elə gəlir ki, Borrell ilk növbədə ölkəsində baş verən hadisələrə münasibət bildirməlidir. O, vaxtilə İspaniyadakı separatçı rejimlə mübarizəni daha güclü şəkildə aparmalı idi. Düzdür, Borrel həmin vaxt Kataloniya separatçıları ilə bağlı tənqidi fikirlər söyləmişdi. Bəs indi nə olub? Niyə Borrel tərəfindən Qarabağ separatçılarına belə sevgi-məhəbbət nümayiş etdirilir? Aydın məsələdir ki, torpaqlarımızı azad etmişik, heç kəsdən asılı olan dövlət deyilik. Eyni zamanda, biz indi aydın şəkildə görürük ki, Qarabağ və orada yaşayan erməni əhali Azərbaycana qarşı, sadəcə olaraq, təzyiq vasitəsi kimi istifadə olunurdu. Yəni, biz, necə deyərlər, bu boyunduruqdan çıxmışıq, torpaqlarımızı azad etmişik. Təbii ki, bu, Avropa İttifaqı çərçivəsində normal, sivil şəkildə qəbul oluna bilmir.

Ümumiyyətlə, Avropa institutlarının Azərbaycana qarşı hücumlarında bir sinxronluq mövcuddur. Bizim Avropa Şurası ilə də münasibətlərimiz həmişə normal olub. 2001-ci ildə şuraya daxil olanda inamımız çox böyük idi. Ümid edirdik ki, Avropa Şurası ədalətli addımlar atacaq, obyektiv mövqe nümayiş etdirəcək. Biz indi Avropa Şurası tərəfindən ölkəmizə necə münasibət göstərildiyini görürük. Torpaqlarımızı azad etdikdən sonra bəlkə bizə heç Avropa Şurası da lazım deyil. Yəni, onlar atdıqları addımlarla bizi qorxuda bilməzlər. Çünki biz qarşıya qoyduğumuz bütün məqsədlərimizə nail olmuşuq.

**Replika**



# Erməni keşiş məğlub ölkəni savaşa çağırır

## *Beynəlxalq dini mərkəzlər isə bu ağılsız avantüranı yenə sükutla qarşılayır*

**Ermənistanla Azərbaycan arasında kövrək sülhün hənirtisinin duyulduğu, ikitərəfli danışıqlarda müsbət dinamikanın üstünlük təşkil etdiyi indiki mərhələdə regionda əmin-amanlığın bərpasını arzulamayan bəzi qüvvələrin fəallaşdığını görməmək mümkün deyil. Burada erməni Qriqorian kilsəsinin xüsusi "canfəşanlığını" ayrıca qeyd etmək lazımdır.**

Son iki əsrdə Ermənistan və Azərbaycan arasında yaşanmış qarşıdurmalarda separatçı, ekstremist, bir çox hallarda terrorçu təmayüllərə yön verən erməni kilsəsi yenə də özünün məkrli niyyətindən əl çəkmir. Libasları kimi əməlləri də qara olan hay keşişləri Cənubi Qafqazda sülhün bərqərar olmasına, sabitliyin formalaşmasına qarşı çıxır, sülh prosesinə mane olmaqdan ötrü cəmiyyətdə revanşizmi körükləyir, xalqı qisasçılığa çağırırlar. Dinin xoşməramlı, sülhyaradıcı missiyasını arxa plana atan erməni kilsəsinin revanşist mövqeyi, müharibə çağırışları nəinki etiqad azadlığı ilə, ümumən, bəşəri dəyərlərlə də bir araya sığmır.

### Baqratın revanşist çağırışı

"Dirçəliş üçün bizə yalnız qələbə lazımdır. Biz bu cür yaşaya və dünyadan yarımçıq, vətəndən məhrum, şərəfsiz və bədbəxt vəziyyətdə köçə bilmərik". Bu sitat Ermənistanın Tavuş yeparxiyasının yepiskopu Baqrat Qalstyanın ibadət moizəsindən götürülüb. Dindaşlarına xəstə təxəyyülündən irəli gələn "tarixi ideyaları" təlqin etməyə girişən Qalstyanın moizəsindən növbəti sitat: "Biz bu dünyadan özümüzə ölümsüzlük qazanmaqla, vətənimizlə, şərəflə və sevinclə köçməliyik. Qoy, bu, təfəkkürümüzün, qəlblərimizin devizinə, həyatımızın son saniyəsinə kimi amalımıza çevrilsin".

Arxiyepiskop Baqrat Qalstanyan bir ay bundan əvvəl də özünün revanşist çıxışı ilə gündəmə gəlmişdi. "Bəli, mən özümü revanşist sayıram və ömrümün sonuna qədər belə yaşayacağam", – deyən dinsiz keşiş qisasçılığı ona görə əldə silaha çevirməyi irəli sürürmüş ki, "minlərlə insan həyatımız üçün canını verib".

Qətliamların, terror aktlarının, işğalçılığın ilhamvericisi və təşkilatçısı rolunda çıxış etməkdə "zəngin təcrübə"si olan erməni kilsə ideoloqlarının məhz indiki məqamda öz xalqını yenidən qan çanağına sürükləmələri göz önündədir. Elə Qalstyanın açıqlaması da bunun bariz nümunəsidir. Ağlı yerində olan heç bir din xadimi Allahın evində bu cür sərsəm fikirləri, qan-qada çağırışlarını dilinə gətirməz. Sanki, reallıqla barışmayan, bu dünyadan əllərini üzən erməni qriqorian kilsəsinin rəhbərləri anti-Azərbaycan təbliğatlarının son üsulu kimi utopik tələblərə, avantürist çağırışlara keçid alıblar.

Bir müddət əvvəl qriqorian hayların Livanda yerləşən "Böyük Kilikiya Evi"nin katolikosu I Aramın da Azərbaycan əleyhinə qisasçılığa, müharibəyə çağırış xarakterli açıqlamaları məhz bu kontekstdə qiymətləndirilməlidir. I Aram "Dağlıq Qarabağı" Ermənistana birləşdirməyə, bununla da "vahid erməni dövləti" yaratmağa çağırışlar edirdi: "Qarabağ işğal edilmiş ərazi yox, bizim qəhrəmanlarımızın qanları ilə qaytarılmış doğma torpaqdır. Birləşmiş Ermənistan görüntüsünün reallaşdırılması Qarabağın Ermənistana birləşdirilməsindən başlayır".

Bu, hələ də yuxularında "Dənizdən–dənizə Böyük Ermənistan" görən, tarixin gerçəklərindən uzaq haylarda artıq vərdiş halını alıb. Bəli, revanşist və avantürist müharibə çağırışları, bir qayda olaraq, "din xadimlərinin" dilindən səsləndirilir. Əslində, bu çağırışlar beynəlxalq hüququ saya salmamağın aşkar "nümunəsi" olmaqla yanaşı, Ermənistanı indiki məğlubiyyətə uğradanların 33 il əvvəl Qarabağın işğalına göz yummasını və bu ərazidə yaşayanların "öz müqəddəratını təyinetmə" hüququna mailk olmadığını hələ də dərk etməməsini aydın şəkildə açıb göstərir.

### Aqoniya və ya sağalmaz xəstəliyin simptomları

Daşnakların ASALA terror təşkilatı ilə yaxından əməkdaşlıq edən, onlarla eyni zehniyyətli keşişlərin, din pərdəsi altında hər cür haqsızlığa gedən hay katolikoslarının həm də erməni diasporu və lobbiçilərin gizli "qara kassası" missiyasını yerinə yetirmələri barədə informasiyalar yetərincədir. Arxaya boylanıb tarixə nəzər salsaq, görərik ki, "milli ideologiyanın mərkəzi" kimi tanınan erməni kilsəsi ötən əsrin ortalarında xalqımıza qarşı dözümsüzlük və nifrət təbliğatını fəallaşdırıb.

1955-ci ildən 1994-cü ilə qədər bütün ermənilərin patriarxı olmuş I Vazgen hələ 1950–1960-cı illərdə dünyanın müxtəlif ölkələrindəki erməni koloniyalarına baş çəkmişdi. Məhz I Vazgenin səyi ilə erməni qriqorian kilsəsinin yeparxiyalarının beynəlxalq şəbəkəsi yaradılıb. Sonradan həmin şəbəkə Ermənistanın Azərbaycana qarşı torpaq iddialarının, işğalçılıq siyasətinin və zorakılığının dəstəklənməsində, beynəlxlaq ictimaiyyətə feyk-xəbərlərin təqdim olunmasında, Qarabağ separatçılarına maddi dəstəyin göstərilməsində, Azərbaycana hərbi təcavüzün silah-sursat təminatında xüsusi rol oynayıb. 1995–1999-cu illərdə erməni qriqorian kilsəsinin dini rəhbəri I Qareginin də "xidməti" böyük olub. O, ABŞ-dakı erməni lobbisinin maddi dəstəyinin Ermənistana yönəldilməsində fəallıq göstərib. Hətta I Qaregin bir neçə dövlətlə danışıqlar aparıb, Ermənistanın silahlandırılmasına yardımçı olub. Onun Azərbaycana təcavüzün davam etməsində, sülh danışıqlarının uzadılmasında mövqeyi birmənalı olub.

Ermənistanın bəzi mənbələri indi də vaxtilə Ermənistan parlamentində olan qətliamın (Karen Dəmirçiyanın ölümü ilə nəticələnən) sifarişçisi qismində məhz I Qareginin adını çəkir. Düzdür, I Qaregin bu qətliamdan 3 ay qabaq ölmüşdü. Ancaq Qarabağdakı erməni separatçılarının Ermənistanda hakimiyyəti zəbt etməsi üçün onun yüksək səviyyədə işlər gördüyü bildirilir. O ki qaldı, hazırkı patriarxa, II Qaregin də öz sələflərindən geri qalmır. O da daim revanşist çıxışlar edir, ölkəsində hərbi-siyasi "dəyişikliklərin" zəruriliyini xüsusilə qabardır.

İndi aqoniya vəziyyətində çapalayan, qızdırmalı xəstəni xatırladan erməni "din xadimləri"nin Birinci Qarabağ müharibəsi dövründəki "fəaliyyətini" də unutmaq olmaz. SSRİ-nin dağılmasından yararlanan, Qərbdəki yeni ağalarına arxalanan və Rusiyadakı ermənipərəst qüvvələrə söykənən Ermənistanın Azərbaycana qarşı işğalçı müharibəyə başlamasına məhz qriqorian kilsəsi "xeyir-dua" vermişdi. Üstündən 30 il keçəndən sonra Cənubi Qafqazda Azərbaycanın dəyişdiyi reallığı görmək istəməyən erməni kilsəsi yenə də İrəvana revanşizm, işğalçılıq siyasi ideologiyasını, sülhdənqaçma meyillərini diktə etməyə çalışır. Kilsənin bu anti-dini fəaliyyəti, bir növ, sağalmaz mərəzə mübtəla olmuş xəstənin başqalarını da xəstə görmək durumunu xatırladır.

Tanrıya ibadət, mədəniyyətlər və dinlərarası dialoq kimi gerçək missiyasını unudan, bölgədə separatizmi alovlandırmağa çalışan kilsə və onun xaricdəki zütutanları 30 illik müharibə vəziyyətindən bezmiş erməni cəmiyyətinə sülh çağırışı səsləndirmək yerinə, müharibə ritorikasını işə salıblar. Bundan da artıq təəssüf və təəccüb doğuran isə haylara heç bir nikbin sonluq vəd etməyən belə təxribatçı-revanşist çıxışları, anti-bəşəri çağırışları Ümumdünya Kilsələr Şurasının, digər beynəlxalq dini təsisatların lal-kar bir susqunluqla qarşılamasıdır.

*İmran BƏDİRXANLI*
*XQ*

# AŞPA-nın Azərbaycan “problemi”: ədalətsizliyin anatomiyası




(əvvəli 1-ci səhifədə)

**I HİSSƏ**

**Demokratiya sözdə deyil, hüquq və əməldə olur.**

**Müəllif**

## AŞPA: nə etməli?

Bu təşkilat 1949-cu ilin 10 avqustunda yaradılıb. Onun fuksiyası Avropa Şurasının parlament qolunu yerinə yetirməkdir. Həmin funksiya Avropa İttifaqı, Avropa Şurası və AŞPA-nın özünün rəsmi sənədləri ilə müəyyən olunub. Sənədlərə görə, AŞPA insan hüquqlarını, demokratiyanı və qanunun aliliyini müdafiə etməlidir.

AŞ-yə 46 dövlət üzvdür. Say dəyişə bilir. Üzv dövlətlərin milli parlamentlərini təmsil edən 306 deputat Assambleyanı təşkil edirlər. Nazirlər Komitəsi ilə birlikdə AŞ-nin iki qanuni orqanından biri AŞPA-dır. Bunlarla yanaşı, Assambleya ədalət, hüquq və qəbul edilmiş qaydalar əsasında AŞPA hökumətlərini bir sıra məsələlərdə dialoq vasitəsi ilə monitorinq edə bilər. AŞPA AŞ ilə birlikdə Aİ-nin büdcəsini təsbit edər. Eyni zamanda, Aİ adına xarici müqavilələr imzalayır.

AŞPA bütün bu işləri beynəlxalq hüquq çərçivəsində, ədalətli və qərəzsiz görməlidir. Deməli, onun başlıca funksiyası, yəni “nə etməli?” sualına cavabı vurğulanan prinsiplər əsasında fəaliyyət göstərmək olmalıdır. Bəs reallıq necədir? Xüsusilə, Azərbaycana münasibət məsələsində AŞPA hüquqa, ədalətə, tərəfsizliyə, qanuna və obyektivliyə əməl edirmi? Faktlara baxaq.

## 1416-cı qətnamə: söz və əməldə ayrılıq

2005-ci il yanvarın 25-də AŞPA Azərbaycanın işğal olunmuş ərazisindəki situasiya ilə əlaqəli sənəd qəbul etmişdir. Sənəd belə adlanır: “Həlli ilə ATƏT-in Minsk Qrupunun məşğul olduğu Dağlıq Qarabağ regionundakı (?- F.Q.) münaqişə haqqında”. Sənədi AŞPA-nın siyasi məsələlər üzrə komissiyası hazırlamışdır. Orada qeyd olunurdu ki, müstəqillik əldə etdikdən sonra Azərbaycan Respublikasının ərazi bütövlüyü Dağlıq Qarabağ daxil olmaqla tanınmışdır. Qətnamədə göstərilir ki, erməni silahlı qüvvələri Dağlıq Qarabağı işğal etmişlər və separatçılar oraya nəzarət edirlər. Bölgədə etnik təmizlənmə aparılmış və monoetnik mühit yaranmışdır (yəni ancaq ermənilərdən ibarət icma qalmışdır-F.Q.). Zor tətbiq etməklə heç bir dövlətin ərazisi ondan alına bilməz. Etnik təmizləmə qəbul edilməzdir. Nəhayət, sənəddə vurğulanırdı ki, vəziyyətdən çıxış yolu BMT-nin məlum 4 Qətnaməsinə əməl etməkdədir. Və işğal olunmuş bütün ərazilərdən silahlı qüvvələr çıxarılmalıdır.

Azərbaycan Respublikasının Parlamenti bu sənədə reaksiya vermişdir. 2005-ci il iyunun 17-də Milli Məclis AŞPA-ya Müraciət qəbul etmişdir. Həmin Müraciətdə deyilir: “Azərbaycan Respublikasının Milli Məclisi tələb edir ki, qondarma “Dağlıq Qarabağ respublikasının parlamenti”nə “seçkilər” keçirilməsi qətiyyətlə pislənilsin, Avropa Şurasına daxil olan ölkələrin rəsmi nümayəndələrinin bu “seçkilər”də müşahidəçi qismində iştirakı Avropa Şurasının prinsiplərinə zidd olduğundan, yolverilməz hesab edilsin. Azərbaycan Respublikasının parlamenti Avropa Şurasının Parlament Assambleyasını Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizama salınması prosesinə kömək etmək üçün səylərini artırmağa çağırır”.

Azərbaycan tərəfinin qəbul etdiyi sənəddə hüquqi və siyasi baxımdan prinsipial əhəmiyyət kəsb edən məqamlar vardır. Birincisi, Milli Məclis AŞPA-nın “Dağlıq Qrabağ regionu” kimi süni ifadəsinə bilərəkdən reaksiya vermir. Çünki öncə bütövlükdə münaqişəni Azərbaycanın ərazi bütövlüyünün bərpası kontekstində həll etmək lazım idi ki, sonra həmin o qondarma region məsələsinə avtomatik baxılacaqdı. Yəni, rəsmi Bakı AŞPA-nın özünün qəbul etdiyi beynəlxalq hüquq normalarını pozmasını sülh naminə arxa plana atmışdır.

İkincisi, diqqət edək, Azərbaycan tərəfi AŞPA da daxil olmaqla, bütün beynəlxalq təşkilatları xəbərdar edir: qanunsuz və qondarma bir terrorçu, separatçı “rejimin” “seçki şousu”nu dolayısı ilə real seçki kimi təqdim etməyə çalışmayın! Bu, AŞPA da daxil olmaqla bütövlükdə AŞ-nin prinsiplərinə ziddir. Və həmin ziddiyyət bumeranq kimi Avropanın özünə qayıda bilər. Lakin faktdır ki, AŞ-yə üzv olan bir sıra dövlətlərin nümayəndələri erməni terrorçu, işğalçı və separatçıların “seçki şousunu” müşahidə etmişlər! Bu, uydurma deyil, faktdır!

Sual olunur, AŞ və AŞPA qəbul etdikləri sənədlərin məzmun və mahiyyətinə bu qədər əks olan hərəkətlərə hansı hüquqi qiyməti vermişdir? Onlara deyilmişdimi ki, separatizmə dəstək verdiyinizə görə, sizləri parlamentdən xaric edirik, təmsil etdiyiniz ölkələrə sanksiyalar tətbiq edəcəyik, azərbaycanlıların pozulan hüquqlarının bərpası üçün AŞPA olaraq daha fəal və obyektiv mövqe tutacağıq? Biz, AŞPA, AŞ və Aİ-nin belə bir reaksiyasını eşitməmişik, görməmişik və bilmirik.

Nəhayət, Müraciətdə Azərbaycan tərəfi münaqişənin sülh və danışıqlar yolu ilə həllinə sadiqliyini bir daha təsbit və təsdiq edir! Yəni, bu qədər haqsızlıq, hüquqsuzluq, ədalətsizlik olduğunu çox gözəl bildiyinə baxmayaraq, Azərbaycan Respublikası dövləti yenə də məsələni danışıqlarla həll etməyə üstünlük verir. Azərbaycan Respublikasının bu humanistliyinə, beynəlxalq hüquqa və ədalətə sadiqliyinə AŞPA necə reaksiya vermişdir? Həmin hərəkəti necə qiymətləndirmişdir? Prosesin gedişinə baxsaq, görərik ki, tam laqeydlik, etinasızlıq və saymazlıq.

Avropalı siyasətçilərə elə gəlirdi ki, Ermənistanın təcavüzkar olması təbii haqqıdır və Azərbaycanın öhdəliyi isə bu təcavüzə boyun əymək, azadlığından, ərazisindən, qürurundan, ləyaqətindən, cəmiyyət kimi bütövlüyündən və dövlət kimi müstəqilliyindən imtinadır! Azərbaycan belə olarsa, AŞPA, AŞ və Aİ onu demokratik ölkə kimi qəbul edəcək, bir az maliyyə verəcək və sözəbaxan “uşağı” kimi tərifləyəcək!

2020-ci ilin payızına qədər AŞPA da daxil olmaqla, beynəlxalq təşkilatların münaqişə ilə bağlı davranışları bu qənaətə gəlməyə tam əsas verir. Azərbaycan isə səbrlə öz saatını gözləyirdi. Bu siyasi nonsesi aradan qaldırmaq üçün imkanlarını səfərbər edirdi. 2020-ci il sentyabrın 27-də AŞPA ilə yanaşı, Qərb təşkiatlarının başına “qaynar su töküldü”. Azərbaycan Ordusu ölkənin ərazi bütövlüyünün bərpası əməliyyatına başladı.

Həmin dövrə qədər AŞPA azərbaycanlıların öz yurdlarına qayıtmaları üçün hansı konkret əməli addımı atmışdı? Heç bir addım atmamışdı! Neçə dəfə Ermənistanı xəbərdar edib, onu təşkilatdan qovacağını bəyan etmişdir? Heç bir dəfə! Harada və hansı məzmunda Ermənistan rəhbərliyindən qətiyyətlə və açıq surətdə işğalçı qüvvələrini Azərbaycan ərazisindən çıxarmaq tələbini qoymuşdur? Xatırlamırıq!

AŞPA Xocalıda qətlə yetirilənlərin məsələsini ciddi və konkret nəticəli olaraq hansı iclasında müzakirə etmişdir? Və yaxud Qarabağdan qovulmuş yüz minlərlə azərbaycanlının hüquqlarının pozulmasının aradan qaldırılması ilə bağlı bir konkret proqramı mövcud olmuşdurmu? Bunları da xatırlamırıq! Azərbaycan isə həmin məqamları görmək üçün düz 30 il gözlədi! Səbr etdi! Və nəhayət, özü məsələni həll etdi.

## Ah, demokratiya...

Demokratiya sözdə deyil, hüquqda və əməldə olur! İnsanın sözündə demokratiklik, əməlində isə aqressivlik, dözümsüzlük, hüquqsuzluq ola bilir. AŞPA-nın 2024-cü ildə bir müzakirəsi üzərində düşünərkən, ağla bu fikirlər gəlir. Qurumun qəbul etdiyi 1416-cı Qətnaməni tam “çeynəyərək”, xəbis, ədalətsiz, tərəfkeşli bir qərar qəbul etmişdir. Almaniya sosial-demokratı Frank Şvabenin təklifi və tələbi əsasında Azərbaycan nümayəndə heyətinin etimadnaməsi təsdiq edilməmişdir. Və məsələ Monitorinq Komissiyasına baxılmasına göndərilmişdir. F.Şvabe isə məhz həmin komissiyanın üzvüdür.

Bəs, F.Şvabe hansı səbəbləri göstərir? Onlar aşağıdakılardır: “1. Azərbaycanda “siyasi məhbuslar var”; 2. Qarabağdan “erməni sakinlər zorakılıqla çıxarılıb”; 3. 2023-cü ildə AŞPA həmməruzəçilərinin Azərbaycana səfəri azı 3 dəfə baş tutmayıb”; 4. Azərbaycan fevralın 7-də keçiriləcək prezident seçkisini müşahidə etmək üçün Avropa Şurası Parlament Assambleyası nümayəndə heyətini dəvət etməyib”.

Onun bu təklifini AŞPA-nın 30 üzvü dəstəkləyib. F.Şvabe çıxışında deyib ki, bu təklifi verməkdə “tutarlı arqumentlərə” əsaslanır. Həmin “arqumentlər” bizi maraqlandırdı və doğrudan da onlardan F.Şvabe və onun kimi düşünənlərin əsl niyyətləri aydın olur.

F.Şvabe deyir: “Təəssüf ki, mən açıq və aydın mesajdan başqa çıxış yolu görmürəm. Məsələ təkcə siyasi məhbusların sayının dramatik şəkildə artması deyil, təkcə 100 mindən çox insanın (erməniləri nəzərdə tutur – müəllif) Dağlıq Qarabağdan zorla çıxarılması da deyil. Bizim məruzəçilərin 2023-cü ildə azı üç dəfə Laçın dəhlizinə səyahət edə bilməməsinə və ya siyasi məhbuslara baş çəkə bilməməsinə görə Azərbaycan nümayəndə heyəti birbaşa məsuliyyət daşıyır”.

Və sonra davam edir ki, “7 fevral prezident seçkilərinin müşahidə edilməsinə AŞPA-nın çağrılmaması Avropa Şurasını “zəiflətmək cəhdi”dir”. Nəhayət, onun son “həqiqəti”: Azərbaycan tərəfi “ATƏT kimi digər beynəlxalq təşkilatlara da qarşıdır”!

## Məntiqsizlik, böhtan və şər siyasi spekuliyasiyanın “arqumentləri” kimi

Biz burada yazını bitirə bilərdik, lakin Frank (yenə də bu “frənglər”?) Şvabe öz çıxışında bilmədən elə məqamlara işarə vermişdir ki, onları aydınlaşdırmadan AŞPA-nın Azərbaycanla bağlı son qərarının əsl məğzini hörmətli oxucu anlamaqda çətinlik çəkər. Məsələ isə bir qədər dərinliklərə gedir və dövlətləri əhatə edir. Aydın olur ki, burada hüquqdan, ədalətdən və demokratik davranışdan əsər-əlamət yoxdur. F.Şvabenin sözləri çoxlu kontekstə və sifarişə bağlıdır. Hansılara?

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 37** **Bakı şəhəri, 23 yanvar 2024-cü il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 20 aprel tarixli 73 nömrəli Qərarı ilə təsdiq edilmiş “Xüsusi əhəmiyyətli əsas vəsaitlərin (fondların) meyar göstəriciləri”ndə dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 20 aprel tarixli 73 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 4, maddə 387 (Cild I) ilə təsdiq edilmiş “Xüsusi əhəmiyyətli əsas vəsaitlərin (fondların) meyar göstəriciləri” yeni redaksiyada verilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

**Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 38** **Bakı şəhəri, 23 yanvar 2024-cü il**

**“Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 988-VIQ nömrəli Qanununun qəbul edilməsi ilə əlaqədar normativ hüquqi aktların kolliziyasının aradan qaldırılması məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 988-VIQ nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “Güzəştlərin tətbiqi Qaydasının və bölünən hissələrin məbləğinin müəyyən edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 28 oktyabr tarixli 165 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 10, maddə 648 (Cild I) ləğv edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 22 mart tarixli 50 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu 2005, № 3, maddə 257 (Cild I) ilə təsdiq edilmiş “Azərsu” Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsi”nin 3.3.26-cı yarımbəndində “qanunvericiliyə uyğun olaraq müsabiqələrin (tenderlərin)” sözləri “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq satınalmaların” sözləri ilə əvəz edilsin.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 16 avqust tarixli 154 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 8, maddə 783 (Cild I) ilə təsdiq edilmiş “Yeyinti məhsullarının minimum keyfiyyətinin və təhlükəsizliyinin təmin edilməsi ilə bağlı qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə əməl olunmasına dövlət nəzarətinin həyata keçirilməsi Qaydaları”nın 17-ci hissəsində “üzrə keçirilən tenderin” sözləri “ilə bağlı” sözləri ilə əvəz edilsin.

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 16 aprel tarixli 66 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 4, maddə 392 (Cild I) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında baytarlıq preparatlarının aprobasiyası, ekspertizası, sınaqdan keçirilməsi, dövlət qeydiyyatına alınması və dövlət reyestrinin aparılması, istehsalı, idxalı, saxlanması, daşınması, satışı və istifadəsi Qaydaları”nın 8.15-ci bəndinin üçüncü abzasında “tender keçirilməklə dövlət satınalmaları qaydalarına müvafiq olaraq” sözləri “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq satınalmalar keçirilməklə” sözləri ilə əvəz edilsin.

**5.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 6 may tarixli 77 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 5, maddə 385 (Cild I) ilə təsdiq edilmiş “Azərbaycan yaşıllaşdırma və landşaft quruluşu” Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsi”nin 3.2.13-cü yarımbəndində “qanunvericilikdə nəzərdə tutulmuş qaydada müsabiqələrin (tenderlərin)” sözləri “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq satınalmaların” sözləri ilə, 7.1.15-ci yarımbəndində “müsabiqələrin keçirilməsi üzrə komissiyalar yaradır” sözləri “satınalma komissiyasını formalaşdırır” sözləri ilə əvəz edilsin.

**6.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 7 iyul tarixli 105 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 7, maddə 602 (Cild I) ilə təsdiq edilmiş “Dövlət Taxıl Fondunun saxlanması və istifadəsi Qaydaları”nda aşağıdakı dəyişikliklər edilsin:

6.1. 2.4-cü bənddə “istehsalçılarla (o cümlədən daxili və xarici malgöndərənlərlə)” sözləri “təchizatçılarla” sözü ilə əvəz edilsin;

6.2. 3.5-ci bənddə və 3.5.1-ci yarımbənddə ismin müvafiq hallarında “malgöndərənlər” sözü ismin müvafiq hallarında “təchizatçılar” sözü ilə əvəz edilsin;

6.3. 3.7-ci bəndin birinci cümləsində “malgöndərənlərdən” sözü “təchizatçılardan” sözü ilə, “malgöndərən” sözü “təchizatçı” sözü ilə, ikinci cümləsində “malgöndərəndə” sözü “təchizatçıda” sözü ilə əvəz edilsin.

**7.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 12 oktyabr tarixli 165 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 10, maddə 854 (Cild I) ilə təsdiq edilmiş “Avropa Qonşuluq Siyasəti çərçivəsində həyata keçirilən proqramlar üzrə Avropa Komissiyası tərəfindən Azərbaycan Respublikasının dövlət büdcəsinə köçürüləcək vəsaitlərin istifadə mexanizmi”ndə aşağıdakı dəyişikliklər edilsin:

7.1. 2.3-cü bənddə “satınalma işlərinin planını” sözləri “satınalma planını” sözləri ilə əvəz edilsin;

7.2. həmin mexanizmə əlavənin 2-ci hissəsinin onuncu abzasında “satınalma işlərinin planını” sözləri “satınalma planını” sözləri ilə, 4.3-cü bəndinin ikinci cümləsində isə “tender” sözü “satınalma” sözü ilə əvəz edilsin.

**8.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 8 iyul tarixli 258 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 7, maddə 889 (Cild I) ilə təsdiq edilmiş “Nəzarət markalarının alınmasına görə ödənilən vəsaitlərin dövlət büdcəsinə daxil olmasına nəzarət edilməsi və uçotunun aparılması Qaydası”nın 2.2-ci bəndinin birinci cümləsində “16-cı maddəsinə” sözləri “44-cü maddəsinə” sözləri ilə əvəz edilsin.

**9.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 18 dekabr tarixli 564 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (II kitab), maddə 2512 (Cild I) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - “İnzibati xəta haqqında iş üzrə icraat zamanı götürülmüş tez xarab olan mallar barəsində sərəncam verilməsi Qaydası”nın 2.9-cu bəndində “müsabiqə” sözü “satınalmalar” sözü ilə, “podratçı təşkilat” sözləri isə “təchizatçı” sözü ilə əvəz edilsin.

**10.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 10 mart tarixli 86 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 3, maddə 347 (Cild I) ilə təsdiq edilmiş “Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti Aparatının işçilərinin sosial müdafiəsinin gücləndirilməsi, maddi stimullaşdırılması məqsədilə Aparatın hesabına köçürülən büdcədənkənar vəsaitlərdən istifadə Qaydası”nın 2.1.2-ci yarımbəndi ləğv edilsin.

**11.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 17 avqust tarixli 310 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 8, maddə 997 (Cild I) ilə təsdiq edilmiş “Enerji menecment sisteminə dair Tələblər”in 3.7.7-ci yarımbəndində “malgöndərənlərə (podratçılara)” sözləri “təchizatçılara” sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Jurnalist tərəfsiz olmalıdır

## *Azərbaycan Mətbuat Şurası nələri tövsiyə edir?*

**Azərbaycan Mətbuat Şurası bəzi jurnalistlərin bir neçə gün əvvəl metronun Nəriman Nərimanov stansiyası yaxınlığında keçirilmiş icazəsiz aksiyanı işıqlandırmalarındakı yolverilməz məqamlarla bağlı açıqlama yayıb.**

Açıqlamada bildirilib ki, jurnalistlərin mitinqlər, piketlər, nümayişlər, ümumən, kütləvi aksiyalar zamanı informasiya toplamaq və yaymaq hüququ var. Amma bu hüquq media təmsilçilərini tərəfə çevirməməli, elə təəssürat yaranmamalıdır ki, onlar hansısa qütbün maraq və mənafelərindən irəli gələn fəaliyyət göstərirlər.

“Jurnalistlər küçə aksiyalarında obyektiv davranmalı, soyuq yanaşmaları ilə seçilməli, durumun həssaslığını ciddi şəkildə düşünərək yalnız cəmiyyətin informasiya almaq hüququnun təminatçısı rolunda çıxış etməlidirlər. Onların özləri deyil, hadisə yerindən hazırladıqları materialların ictimai yükü ön planda dayanmalıdır”, - deyə açıqlama vurğulanıb.

Mətbuat Şurası, eyni zamanda, bildirib ki, Azərbaycan mediası ötən müddətdə kütləvi aksiyaların işıqlandırılması istiqamətində təcrübə toplayıb, peşəkar vərdişlərə yiyələnib. Amma təəssüf ki, bəzən bu müsbət dinamikaya zidd meyillər qalmaqdadır: “Paytaxtın Nəriman Nərimanov metrosu yaxınlığında keçirilmiş icazəsiz aksiyada bəzi jurnalistlərin, xüsusilə jurnalist Gülnaz Qəmbərlinin davranışları bunu söyləməyə əsas verir. Həmin aksiya zamanı belə qənaət formalaşdı ki, media təmsilçiləri prosesə informasiya yayıcısı deyil, konkret tərəf olaraq qatılmış, öz vəzifə borcunu yerinə yetirən polis əməkdaşlarını hədəfə gətirməyə və ümumilikdə vəziyyətin gərginləşməsinə çalışmışlar”.

MŞ-nin açıqlamasında jurnalistlərin kütləvi aksiyalar zamanı münasib yerlərdə peşə vəzifələrini yerinə yetirmələri məsələsinin dünya təcrübəsində də əksini tapdığı vurğulanıb. Qeyd olunub ki, bu təcrübəyə əsasən media nümayəndələrinin hüquq-mühafizə orqanları əməkdaşları ilə aksiya iştirakçıları arasında hadisələrin gərginləşdiyi məqamlarda tərəflərin heç biri ilə mübahisəyə girməməli, qıcıq doğuracaq fikir və ifadələr işlətməməlidir.

“Jurnalistlər prinsip etibarilə onu da mütləq nəzərə almalıdırlar ki, hansısa kütləvi aksiya vacibdirsə, onu cəmiyyətə təqdim etmək qərarına gəlirlərsə, bu zərurətin ödənməsinin qarşısını alacaq hərəkətlərdən uzaq durulmalıdır. Xidməti vəzifələrini yerinə yetirən hüquq-mühafizə orqanlarının əməkdaşları ilə mübahisə, onları gözdən salmaq cəhdi, yersiz ifadələrin işlədilməsi, aqressiv ton, istər-istəməz, ictimai maraq amilini riskə atır, ümumən, peşəkar jurnalistika dəyərləri ilə bir araya sığmayan durum formalaşdırır” kimi fikirlərin əksini tapdığı açıqlamada, həmçinin kütləvi aksiyaları işıqlandıran jurnalistlərə, özünü cəmiyyətə informasiya verməyə məsul sayan ayrı-ayrı şəxslərə Şuranın tövsiyələrinə əməl etmək məsləhət bilinib.

***R.AMİN***

# Zəfər seçkisinin azad və ədalətli keçirilməsi üçün əlverişli şərait yaradılıb

## 37 ölkədə 49 seçki məntəqəsi təşkil edilib



**Xarici İşlər Nazirliyi Mərkəzi Seçki Komissiyası ilə birgə fevralın 7-nə təyin olunmuş növbədənkənar prezident seçkilərində ölkə hüdudlarından kənarda yaşayan və ya uzunmüddətli xarici ezamiyyətlərdə olan Azərbaycan vətəndaşlarının səsvermə hüquqlarının təmin olunması məqsədilə ölkəmizin diplomatik missiyalarının əməkdaşları üçün videokonfrans formatında seminar təşkil edib.**

Xarici işlər nazirinin müavini Yalçın Rəfiyev tədbiri açaraq növbədənkənar prezident seçkilərinin keçirilməsi üçün ümumilikdə, 37 ölkədə 49 seçki məntəqəsinin yaradıldığını qeyd edib. O, xarici ölkələrdə seçkilərin təşkili ilə əlaqədar həyata keçirilmiş tədbirlər, o cümlədən beynəlxalq müşahidəçilərin seçkilərdə iştirakı ilə bağlı görülmüş işlər barədə məlumat verib.

Mərkəzi Seçki Komissiyası sədrinin müavini Rövzət Qasımov ölkə hüdudlarından kənarda seçkilərin təşkilinə dair Xarici İşlər Nazirliyi ilə birgə görülməkdə olan işlər, seçkilərin xarici ölkələrdə keçirilməsi ilə əlaqədar ölkə qanunvericiliyinin normaları barədə geniş məlumat verib. O, xarici ölkələrdə yaşayan Azərbaycan vətəndaşları üçün səsvermənin təşkili məqsədilə XİN-lə MSK arasında gündəlik əsasda intensiv əməkdaşlığın davam etdiyini, yaranan məsələlərin əlaqələndirilmiş qaydada həll olunduğunu vurğulayıb.

Seminar zamanı əvvəlki seçkilərdən fərqli olaraq, bu seçkilərin keçiriləcəyi ölkələrin və xaricdə yaradılmış məntəqələrin sayında əhəmiyyətli artımın qeydə alındığını və bunun indiyədək keçirilmiş seçkilər üzrə ən yüksək göstərici olduğu bildirilib.

Xarici İşlər Nazirliyi Konsulluq İdarəsinin rəisi Emil Səfərov çıxışında seçkilərin keçirilməsi ilə bağlı görüləcək işlər, həmçinin seçkilərin təşkili ilə əlaqədar Xarici İşlər Nazirliyinin Fəaliyyət Planı və nazirliyin nəzdində yaradılmış qərargah barədə məlumat verib.

Görüşün sonunda seçkilərin keçirilməsi ilə əlaqədar Azərbaycanın diplomatik missiyalarının çoxsaylı sualları cavablandırılıb.

Seminarda Xarici İşlər Nazirliyinin və Mərkəzi Seçki Komissiyasının aidiyyəti sahələr üzrə əməkdaşları, ölkəmizin xarici ölkələrdəki diplomatik missiyalarının səlahiyyətli nümayəndələri (videokonfrans formatında), o cümlədən diplomatik missiyalarda yaradılmış seçki məntəqələrinin aid olduğu dairə seçki komissiyalarının sədrləri iştirak ediblər.

## Beynəlxalq müşahidəçilər fəaliyyətdədir

**"17 saylı III Yasamal Seçki Dairəsində növbədənkənar prezident seçkilərinə hazırlıq işləri beynəlxalq müşahidəçilər tərəfindən də razılıqla qarşılanıb. Dairə üzrə seçkiyə hazırlıqla maraqlanan ATƏT-in DTİHB-nin beynəlxalq müşahidəçilərindən Olzhas Akanov və Arcldlacono Noeml görülən işlərdən məmnunluqlarını bildiriblər".**




Bunu DSK sədri Qədir Kərimov bildirdi. Dedi ki, prezidentliyə namizədlər təbliğat-təşviqat kampaniyasını davam etdirirlər. Seçkilərin demokratik və şəffaf keçirilməsi üçün aşağı seçki komissiyası üzvlərinin maarifləndirilməsi prosesi bütün respublikanı əhatə edir. Hazırda regionlarda gündə iki dəfə olmaqla treninqlər keçirilir. Treninqlər Prezidentin 2011-ci il 27 dekabr tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı" əsasında təşkil olunur. Treninqdə seçki günü məntəqə sədrlərinin və üzvlərinin vəzifə borcları barədə bir daha məlumat verilir, sual doğura bilən məqamlar aydınlaşdırılır. Dairənin əhatəsində olan aşağı seçki komissiyasının üzvləri həm MSK, həm də DSK ekspertləri tərəfindən aparılan təlimlərdə iştirak edirlər.

Ümumilikdə, builki seçkilərdə 42 min 727 seçici 55 seçki məntəqəsində səs verəcək. Bu məntəqələrdən 40-ı daimi, biri xəstəxanada müvəqqəti təşkil olunmuş, on dördü isə xarici ölkələrdə yaradılıb. Seçkilərdə şəffaflığın təmin olunması üçün 14 seçki məntəqəsinə veb-kamera quraşdırılıb. Bununla yanaşı, müşahidəçilərin qeydiyyatdan keçməsi prosesi də təkmilləşdirilib. Müşahidəçilərin sayının çox olması seçkinin demokratik şəraitdə keçməsinə köməkdir. İndiyədək 200-dən çox müşahidəçi qeydiyyatdan keçib.

Q.Kərimov məntəqə seçki komissiyasının üzvlərinin treninqlərdə iştirakının davam etdiyini bildirdi və təlimlərin seçki prosesinin insidentsiz, mübahisəsiz keçməsində rolunun böyük olduğunu vurğuladı. Belə təlimlərdə MSK tərəfindən hazırlanmış əyani vəsaitlərdən, yaddaş kitabçalarından da istifadə edilir. Bu da komissiya üzvlərinin bilik və bacarıqlarının daha da artırılmasına dəstək olur.

**Seçkilərin mütəşəkkil və insidentsiz keçirilməsində maarifləndirmə proqramlarının rolu böyükdür. Məhz bu məqsədlə növbədənkənar seçkilərə hazırlıq işləri başlanan vaxtdan indiyədək maarifləndirmə çərçivəsində tədbirlər davam etdirilir. MSK tərəfindən təşkil edilmiş, gündə iki dəfə olmaqla keçirilən treninqləri qurumun kurslarında təcrübə toplamış trenerlər həyata keçirir. Respublikamızın, demək olar ki, bütün ərazilərində aşağı seçki komissiyalarının üzvləri treninqlərə cəlb olunublar. Balakənli komissiya üzvləri də təlimlərdə iştirak edirlər.**

## Balakəndə seçki maarifləndirməsi



Rayonda növbədənkənar prezident seçkilərinə ciddi hazırlıq işləri davam edir. Aşağı seçki komissiyalarının 264 üzvü maarifləndirmə proqramı çərçivəsində keçirilən təlimlərdə iştirak edir. Artıq bəzi komissiya üzvləri üçün maarifləndirici seminar-treninqlər başa çatıb.

Dairə seçki komissiyasından qəzetimizə verilən məlumata görə, yanvarın 17-də başlanan və 4 gün davam edən treninqlərdə 44 seçki məntəqəsinin üzvləri iştirak ediblər. Onlar müxtəlif metodiki və əyani vəsaitlərdən istifadə edilməklə seçki məntəqələrinin səsverməyə hazırlanması, səsvermə prosesi, səsvermə günü müstəsna hallar, protokolların doldurulması da daxil olmaqla, bütün prosedurlar barədə ətraflı məlumat alıblar. Treninqlərdə, həmçinin məntəqə seçki komissiyaları üzvlərinin rolu və vəzifələri, seçki bülletenlərinin təsnifatı və digər zəruri məsələlər barəsində məlumat verilir.

Treninqlərdə iştirak edən məntəqə seçki komissiyaları üzvləri onların peşəkarlıq səviyyəsinin artırılmasından, seçkilər sahəsində bilik, bacarıq və vərdişlərinin daha da təkmilləşdirilməsindən razılıq edirlər.

## Komissiya üzvlərinin peşəkarlığı yüksəldilir



**Növbədənkənar prezident seçkiləri səviyyəsində bir sıra bölgələrdə aşağı seçki komissiyalarının sədr, katib və üzvləri üçün maarifləndirici seminar-treninqlər başa çatıb. Zaqatala- Balakən seçki dairəsinin əhatəsində olan seçki məntəqələrinin üzvləri də həmin təlimlərdə iştirak edərək bilik və vərdişlərini daha da təkmilləşdiriblər. Ümumilikdə, 11 və 112 seçki dairələri üzrə təlimlərə 558 komissiya üzvü cəlb olunub.**

Məşğələlər Mərkəzi Seçki Komissiyasının təlim kursunda iştirak etmiş Mübariz Laçınov və Səyavuş Hüseynov tərəfindən aparılıb.

Təlimlərdə əsas məqsəd məntəqə seçki komissiyaları üzvlərinin peşəkarlıq səviyyəsinin artırılması, seçkilər sahəsində onların bilik, bacarıq və vərdişlərinin daha da təkmilləşdirilməsi olub. İştirakçılara, həmçinin seçki komissiyalarının strukturu, seçki komissiyaları üzvlərinin rol və vəzifələri barədə ətraflı məlumat verilib. Bunlarla yanaşı, treniqlərdə komissiya üzvlərinə seçki günü prosesləri, səsvermə günü müşahidəçilərin hüquqları, seçki məntəqəsinin açılması, səsvermə prosesi, səslərin hesablanmasına hazırlıq, seçki bülletenlərinin təsnifatı və yekun protokolun doldurulması barədə tövsiyələr verilib.



## Məntəqələr seçkiyə hazırdır

**66 saylı Saatlı Seçki Dairəsinin 5 saylı seçki məntəqəsində növbədənkənar prezident seçkilərinin azad, demokratik və şəffaf keçirilməsi üçün bütün imkanlardan istifadə edilib. Məntəqə seçki komissiyasının sədri Çingiz Fətullayev uzun müddətdir ki, seçki komissiyasına rəhbərlik edir. Onun bu sahədə böyük təcrübəsi var. Komissiyanın sədri söhbət zamanı dedi ki, bu seçkilərdə 957 seçici səs verəcək. Artıq onların siyahısı dəqiqləşdirilərək müvafiq yerdən asılıb. Bu il 14 nəfər ilk dəfə səs verəcək. Onlarla mütəmadi olaraq maarifləndirmə xarakterli söhbətlər aparılır. Ərazidə bir nəfər əlil seçici olduğunu deyən Ç.Fətullayev onun da seçkidə şəxsən iştirak edəcəyini bildirib. Bu, əlil seçicinin öz arzusudur. Onun əlil arabasında səsvermədə iştirakı üçün seçki məntəqəsinə pandus quraşdırılıb.**

Ç.Fətullayev bildirdi ki, seçki məntəqəsinin yaxınlığında quraşdırılmış dəmir lövhədə prezidentliyə namizədlərin təşviqatı üçün bərabər səviyyədə yer ayrılıb. Bundan əlavə səsvermənin gedişini izləyən müşahidəçilər üçün də əlverişli şərait yaradılıb. Seçki məntəqəsində aşkarlığın və şəffaflığın təmin olunması üçün veb-kamera quraşdırılıb. Məntəqə seçki komissiyası MSK tərəfindən bütün lazımi avadanlıqlarla təmin olunub. Həmin gün elektrik enerjisinin verilməsi sahəsində yarana biləcək hər hansı qəzanın seçki prosesinə heç bir təsiri olmayacaq. Çünki məntəqəyə verilmiş generator bir neçə dəfə yoxlanılaraq saz vəziyyətdə saxlanılıb. Hazrda seçici siyahılarına uyğun olaraq seçicilərə bildirişlər paylanılır. Eyni zamanda, MSK tərəfindən hazırlanmış seçkiyə çağrış plakatları qanunvericiliyə uyğun olaraq lazımi yerlərdən asılıb.

Məntəqə seçki komissiyasının sədri komissiya üzvlərinin MSK-nın təşkil etdiyi treninqlərdə iştirak edərək bilik və bacarıqlarını daha da təkmilləşdirdikləri barədə də məlumat verdi. Dedi ki, bu da seçki zamanı hər hansı mübahisənin yaranmasının qarşısının alınmasında öz müsbət təsirini göstərəcək. Məntəqə seçkiyə tam hazırdır.

## Treninqlər davam edir

**"Növbədənkənar prezident seçkilərinin demokratik, azad və şəffaf keçirilməsi üçün hər cür şərait yaradılıb. İlk növbədə, bu sahədə zəngin qanunvericilik bazası mövcuddur. Xüsusilə, Seçki Məcəlləsini qeyd etmək istərdim. Bu məcəllə bir sıra beynəlxalq təşkilatlar tərəfindən demokratik sənəd kimi dəyərləndirilib. Məhz bunun nəticəsidir ki, ölkəmizdə keçirilən bütün seçkilər şəffaflığına və demokratikliyinə görə beynəlxalq müşahidəçilər tərəfindən müsbət qiymətləndirilib".**

**Bu fikirləri bizimlə söhbət zamanı 25 saylı Nizami II Dairə Seçki Komissiyasının sədri Heydər Vəliyev səsləndirdi.**

DSK sədri dedi ki, ölkəmiz seçkilərdə şəffaflığın təmin edilməsində həmişə nümunəvi olub. İnkişaf etmiş ölkələr arasında seçki məntəqələrinə veb-kameraların quraşdırılması və ya barmaqların gözlə görünməyən mürəkkəblə işarələnməsi ilk dəfə məhz ölkəmizdə tətbiq edilib. Artıq 10 ildir ki, seçki məntəqələrinə veb-kameralar quraşdırılır. Seçki Məcəlləsinin 40.1-ci maddəsində də qeyd olunur ki, seçki prosesi aşkar olmalıdır. Səsvermə günü ictimaiyyət tərəfindən prosesin gedişinin izlənməsi yolu ilə aşkarlığın təmin edilməsi və seçkilərə ictimai inamın daha da artırılması məqsədilə seçki prosesində yeni texniki vasitə - veb-kamera tətbiq edilməsi demokratik seçki prosesinin təzahürüdür. Məntəqə seçki komissiyaları üzvlərinin öz vəzifələrini lazımınca icra etmələri, onlar tərəfindən seçki sənədləri ilə işin aparılması, seçicilərə öz iradələrini heç bir qanunsuz təsir olmadan azad ifadə etmək üçün zəruri şəraitin yaradılması, seçicilər tərəfindən seçki bülletenlərinin seçki qutusuna salınması, səslərin sayılması, səsvermənin nəticələrinin müəyyən edilməsi və digər proseslər bu qurğu vasitəsilə müşahidə olunur. Bu da seçki məntəqələrində seçkilərin qanunun tələbinə uyğun keçirilməsinin təsdiqidir. Ona görə də növbədənkənar prezident seçkilərinə start verildiyi gündən seçki məntəqələrində veb-kameraların quraşdırılması diqqət mərkəzində saxlanılıb.



H.Vəliyev buliki seçkilərdə dairə üzrə 48 min 84 seçicinin səs verəcəyini dedi:

– Seçki dairəsinin əhatəsində 34 seçki məntəqəsi yaradılıb. Onlardan 20-sinə veb-kameralar quraşdırılıb. Seçki məntəqələri bütün ləvazimatlarla təmin edilib. Bu seçkilərdə də barmaqların gözlə görünməyən mürəkkəblə işarələnməsi tətbiq olunacaq. Artıq bənövşəyi lampalar da paylanılıb. Bu üsul da seçki sistemində demokratikliyinə görə fərqlənir. Yadımdadır, ilk dəfə barmaqların gözlə görünməyən mürəkkəblə işarələndiyini və bənövşəyi lampa ilə yoxlanıldığını görən beynəlxalq müşahidəçilər bunu maraqla qarşıladılar. Hətta bəzi beynəlxalq müşahidəçilər bu üsulun öz ölkələrində də tətbiq edilməsi barədə təklif verəcəklərini bildirmişdilər. Barmaqların gözlə görünməyən mürəkkəblə işarələnməsi bir nəfərin təkrar səs verməsinin qarşısını alır. Məntəqələrdə seçkinin hazırlığı ilə tanış olan ATƏT-dən və Tacikistandan gəlmiş beynəlxalq müşahidəçilər razılıqlarını bildiriblər.

Söhbət əsnasında məlum oldu ki, seçkiləri izləmək üçün müxtəlif partiyaların təmsilçiləri, eləcə də 690 müstəqil müşahidəçi qeydiyyatdan keçib. Seçki günü dairə və məntəqə seçki komissiyalarında seçki prosesini izləmək üçün müşahidəçilər üçün müvafiq yer ayrılıb. Hazırda aşağı seçki komissiyasının üzvləri MSK tərəfindən təşkil olunmuş treninqlərdə iştirak edirlər. Təlimlərin bilik və bacarığımızın daha da təkmilləşdirilməsində rolu böyükdür. Treninqlərdə MSK tərəfindən hazırlanmış əyani vəsaitlərdən, yaddaş kitabçalarından, təlimatlardan və digər qanunvericilik sənədlərindən istifadə olunur. İştirakçılar onları maraqlandıran suallara ətraflı cavab ala bilirlər. Bu da seçki prosesi zamanı qarşıya çıxan problemlərin həllində böyük dəstək olur.

*Səhifəni hazırladı:*
***Əliqismət BƏDƏLOV***
***XQ***

# İqtisadi siyasətin strateji hədəfləri

## Azərbaycanın xarici dövlət borcu 212 milyon dollardan çox azalıb

**“Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”də uzunmüddətli dövrdə iqtisadiyyatın daxili və xarici təsirlərə dayanıqlığının gücləndirilməsi, makroiqtisadi sabitliyin daha da möhkəmləndirilməsi üçün qarşıya bir sıra mühüm vəzifələr qoyulub. Həmin məqsədlər sırasında yeni reallıqlara uyğun büdcə qaydasına əsaslanan fiskal çərçivə formalaşdırılmasına xüsusi yer verilib. Bundan başqa sənəddə şaxələnmiş iqtisadiyyatın dayanıqlılığı üçün qeyri-neft sektorunun payının, eləcə də dövlətin valyuta ehtiyatlarının artırılması, intizamlı borclanmanın təşkil edilməsi kimi mühüm əhəmiyyətli istiqamətlər vurğulanıb. Milli Prioritetlərdə bütün bunların reallaşdırılması üçün xarici valyuta ehtiyatlarının dayanıqlı səviyyədə saxlanılması məqsədilə Dövlət Neft Fondundan transfertin dövlət büdcəsində payının tədricən azaldılması, məcmu borcun makroiqtisadi sabitliyə, o cümlədən dövlət büdcəsinin sabitliyinin gerçəkləşdirilməsi zəruriliyi bildirilib.**



Milli Prioritetlərdə olduğu kimi, digər sənədlərdə də bildirilir ki, daxili borcun idarə edilməsi ölkədə maliyyə bazarlarının inkişafını dəstəkləməli, xarici dövlət borcunun dayanıqlı səviyyəsi qorunmalı, dövlət şirkətlərinin borclanmalarına nəzarət gücləndirilməli və bu əsaslarda dövlət və kvazi–dövlət borcunun idarəedilməsi təşkil olunmalıdır.

Bütün bunlar nəzərə alınaraq ölkədə son illərdə istər daxili, istərsə də xarici borcun qarşılanması üçün makroiqtisadi sabitliyin qorunması, qiymətlərin aşağı və sabit olması məqsədilə bir sıra tədbirlər həyata keçirilib. Bu sahədə idarəetmənin institusional çərçivəsi təkmilləşdirilib və maliyyə bazarlarının səmərəli fəaliyyəti təmin edilib. Belə bir şəraitdə isə iqtisadi proqnozlar özünü doğruldub, ən başlıcası isə əhalinin yığımları dəyərsizləşmədən xilas olunub və investisiya arımı reallaşıb.

Hazırda da daxili və xarici borcların qarşılanmasına prioritet istiqamət kimi yanaşılır. Məsələn, kapital və sığorta bazarının inkişafının sürətləndirilməsi, milli bank sektorunun dayanıqlığının təmin olunması, ona olan etimadın daha da yüksəlməsi, real iqtisadiyyatın maliyyələşdirilməsində bankların payının artırılması və sahibkarlıq fəaliyyətinin inkişafının diqqətdə saxlanılması kimi layihələrə xüsusi önəm verilir.

Qeyd edək ki, son illərdə bank kreditlərinin sahibkarlıq fəaliyyəti üçün əlçatanlığını təmin edəcək real işlək mexanizmlər hərəkətə gətirilib, bank kreditlərinin təminatı məsələlərində bürokratik əngəllər aradan qaldırılıb. Bütün bunlarla yanaşı, ölkə iqtisadiyyatına birbaşa xarici investisiyaların, o cümlədən infrastruktur sahələrinə strateji investorların cəlb olunması sahəsində bir sıra uğurlar əldə edilib. Eyni zamanda, dövlət investisiyalarının və dövlət şirkətlərinin fəaliyyətinin iqtisadi səmərəsi yüksəldilib, bu sahədə şəffaflıq səviyyəsi artırılıb.

Ölkədə daxili və xarici borcların qarşılanmasından bəhs edərkən, bir məsələni də xatırlatmaq istərdik. Belə ki, son illər respublikamızın daxili və xarici dövlət borcunun idarə edilməsi istiqamətində ölkə başçısının rəhbərliyi ilə davamlı tədbirlər həyata keçirilib. “Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası” və “Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiya”da qarşıya qoyulan vəzifələr uğurla reallaşdırılıb. Bu sənədlərdə dövlət borcalmaları üzrə müəyyənləşdirilən strateji hədəflərə çatmaq üçün bir sıra prioritet layihələrin gerçəkləşdirilməsi nəzərdə tutulub. Prezident İlham Əliyevin 4 avqust 2023-cü il tarixli sərəncamı ilə “Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nda bir sıra dəyişikliklər edilməsi də məhz bu məqsəddən irəli gəlib. Həmin strategiyanın “Dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat üzrə strateji çərçivə” bəndi üzrə 2026-cı ilin sonuna ümumi dövlət borcunun ÜDM-də payının 30 faiz, o cümlədən xarici dövlət borcunun 10 milyard ABŞ dollarını üstələməməsi qərara alınıb.

Yeni dəyişikliyə əsasən, 2025-ci ilin sonuna xarici dövlət borcunun 7,1 milyard ABŞ dolları məbləğində, yəni ÜDM-in 10,7 faizi həcmində olması gözlənir. Bununla belə, mövcud xarici dövlət borcunun qaytarılması, eləcə də ölkənin sosial-iqtisadi inkişaf templərinə əlavə təkan verilməsi məqsədilə prioritet sahələrdə investisiya layihələrinin maliyyələşdirilməsi səbəbindən bu göstəricilərin dəyişəcəyi də istisna edilmir. Maliyyə Nazirliyinin məlumatına əsasən, 2023-cü il dekabrın 31-nə xarici dövlət borcu 6 milyard 481 milyon ABŞ dolları və ya ÜDM-in 9 faizini təşkil edib.

Beləliklə, 2023-cü il yanvarın 1-nə olan göstəricisi ilə müqayisədə xarici dövlət borcunun məbləği mütləq ifadədə 212,5 milyon ABŞ dolları (361,2 milyon manat) və ya 3,2 faiz azalıb.

Yeri gəlmişkən, rəsmi proqnozlarda 2024-2027-ci illərdə xarici dövlət borcunun 8 milyard 899 milyon manat (5 milyard 235 milyon dollar) və ya ÜDM-in 7,5 faizi həcmində, daxili dövlət borcunun isə 2024-cü ilin sonuna 18 milyard 779,4 milyon manat və ya ÜDM-in 15,9 faizi həcmində olacağı gözlənilir.

Gələn ilin sonuna isə Azərbaycan Respublikasının dövlət borcunun (xarici və daxili) ümumi məbləği 27 milyard 678 milyon manat səviyyəsində olacağı proqnozlaşdırılır.

***Vaqif BAYRAMOV***
***XQ***



## AÇG yatağında seysmik tədqiqatlar aparılacaq

**“Azəri-Çıraq-Dərinsulu Günəşli” (AÇG) yataqlar blokunun işlənməsi layihəsinin operatoru olan BP şirkəti yanvarın 20-də AÇG yatağında yeni 4 ölçülü (4D) yüksək dəqiqlikli dənizdibi qovşaqlarla seysmik tədqiqat proqramına başlayıb. Bu layihə tədqiqatın əhatə edəcəyi ərazi, aparılacaq işlərin ümumi dəyəri və müddəti baxımından şirkətin dünyada indiyədək həyata keçirdiyi ən böyük seysmik məlumat toplama proqramı olacaq.**

AÇG yatağının hazırkı məhsuldar layları olan Balaxanı və Fasilə dəstlərinin tədqiqinə yönəlmiş bu proqram seysmik mənbənin altında 740 kvadratkilometr, qəbuledicilərin altında isə 507 kvadratkilometrlik bir ərazini əhatə edəcək. Proqramın ümumi dəyərinin təxminən 370 milyon ABŞ dolları, icra müddətinin isə 5 il (2024-2028) olacağı planlaşdırılır.

Qeyd edək ki, bu uzunmüddətli proqramın planlanmasına ötən il başlanılıb. Proqram çərçivəsində dənizdibi qovşaqlardan, həmçinin bir qoşa mənbəli gəmidən (“Murovdağ”) və bir qovşaq gəmisindən (“Quba”) istifadə etməklə 5 il ərzində beş monitorinqin aparılması nəzərdə tutulur.

BP şirkətinin Azərbaycan, Gürcüstan, Türkiyə regionunda geologiya və işlənmə üzrə vitse-prezidenti Roşni Musai bu mühüm hadisəni şərh edərkən deyib: “AÇG BP-nin əməliyyatçısı olduğu ən böyük neft yatağıdır. O həm bizim üçün, həm də Azərbaycan və tərəfdaşlarımız üçün çox əhəmiyyətlidir. Bu genişmiqyaslı seysmik tədqiqat proqramını həyata keçirməkdə məqsədimiz yatağın arxitekturası və maye kontaktının (fazalararası təmasın) dinamikası barədə ətraflı məlumat əldə etməkdir. Ümid edirik ki, bu proqram üçün istifadə ediləcək ən müasir 4D texnologiyası yataq haqqında yeni və daha dərin məlumatlar əldə etməyimizə imkan verəcək”. Onun sözlərinə görə, bu proqram gələcəkdə quyularda gözlənilməz halları minimuma endirmək və növbəti onilliklər ərzində yatağın neftvermə əmsalını maksimuma çatdırmaq üçün həll yolları müəyyənləşdirməyə kömək edəcək.

Xatırladaq ki, sözügedən proqram “Caspian Geo LLC”şirkəti tərəfindən yerinə yetiriləcək.

***XQ***

## Ötən il 22 ölkəyə 26 milyon ton neft ixrac olunub



**2023-cü ildə Azərbaycan İtaliyaya 7 milyard 77 milyon 115 min ABŞ dolları dəyərində 11 milyon 117 min 530 ton neft ixrac edib. Bununla da, İtaliya ölkəmizin ümumi neft ixracında birinci yerdə qərarlaşıb.**

Bu barədə Dövlət Gömrük Komitəsi məlumat yayıb. Qurumun illik hesabatına əsasən, Azərbaycanın ümumi neft ixracında ikinci yeri İsrail tutub. Hesabat dövründə bu ölkəyə 1 milyard 394 milyon 267,62 min dollar dəyərində 2 milyon 270 min 343 ton neft ixrac edilib. Azərbaycanın neft ixracı üzrə siyahıda ilk üçlüyü Hindistan tamamlayıb. Belə ki, ötən il bu ölkəyə 1 milyard 227 milyon 40,85 min dollarlıq 2 milyon 25 min 82 ton neft göndərilib.

Qeyd edək ki, hesabatda gömrük orqanları tərəfindən rəsmiləşdirilməsi başa çatdırılmış ixrac olunan neftin dəyərinə dair məlumatlar nəzərə alınıb. Siyahıdan göründüyü kimi, Azərbaycan ötən il 22 ölkəyə 16 milyard 240 milyon 830 min dollarlıq 26 milyon 47 min 289,5 ton neft ixrac edib.

***XQ***

## TAP genişləndiriləcək, qaz ixracı artacaq

**Azərbaycanla Avropa İttifaqı arasında enerji sahəsində əməkdaşlıq getdikcə genişlənir. Bu da təsadüfi deyil. Çünki son illər bəzi Avropa ölkələri təbii qaza olan tələbatının ödənilməsində ölkəmizə böyük ümid bəsləyirlər. Yanvarın 10-da Prezident İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində vaxtilə söylədiyi 100 il bundan sonra da Azərbaycanın tərəfdaşlar üçün önəmli ölkə olacağı fikrinə diqqət çəkərək deyib: “Avropa Komissiyası Azərbaycanı etibarlı tərəfdaş adlandırıb. Avropa İttifaqının Enerji Komissiyası isə Azərbaycanı Panavropa qaz təchizatçısı adlandırmışdır və onlar tam haqlıdır”.**

Hazırda Cənub Qaz Dəhlizinin tam gücü ilə işlədiyini vurğulayan dövlət başçısı bu dəhlizlə əlavə qaz həcminin göndərilməsinə zərurət yaranacağı təqdirdə onun genişləndirilməsinin vacibliyini bildirib. Bunun üçün əlavə vəsait lazım olacağnı diqqətə çatdıran Prezident İlham Əliyev Cənub Qaz Dəhlizinin nasos stansiyaları vasitəsilə genişləndirilə biləcəyini də istisna etməyib.

Bu arada, İtaliya mətbuatı Azərbaycan təbii qazını Avropaya nəql edən Trans-Adriatik Qaz Boru Kəmərinin (TAP) genişləndirilməsinə dair son qərarın cari ilin mart ayına qədər veriləcəyi ilə bağlı xəbər yayıb. Məlumatda bildirilir ki, mart ayına qədər TAP konsorsiumunun və onun beş üzvünün bununla bağlı qərarı məlum olacaq. Yeni konsorsiumun payçıları Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR), Böyük Britaniyanın BP, İtaliyanın “Snam”, Belçikanın “Fluxys” və İspaniyanın “Enagàs” şirkətləri son qərarı həmin vaxtda verəcəklər.

Xəbərdə o da deyilir ki, əgər boru kəmərinin ötürmə gücünün ikiqat artımı həyata keçiriləcəksə, daha doğrusu, hazırkı 10 milyard kubmetrdən 20 milyard kubmetrə çatdırılacaqsa, bu zaman kompressor stansiyalarında struktur müdaxilələri ilə yanaşı, üç iştirakçı ölkədə, yəni Yunanıstan, Albaniya və İtaliyada inzibati və tənzimləyici dəyişikliklərin həyata keçirilməsi, həmçinin icazələrin verilməsinə zərurət yaranacaq. TAP konsorsiumu ilə müqavilə bağlamış əsas daşıyıcı operatorların və istehlakçıların Azərbaycan qazına olan real marağına da aydınlıq gətirən italyan jurnalistlər bunu mart ayında kəmərin gücünün iki dəfə artırılıb-artırılmaması ilə bağlı qərarın qəbul olunması üçün mühüm məqam hesab edirlər.

İtaliya ərazisində 400 milyon ABŞ dollarına başa gələn qaz kəmərinin strateji əhəmiyyət daşıdığı və onun gücləndirilməsinə ehtiyac olduğunu təsdiq edən rəqəmlər mövcuddur. Əvvəldən tədarükün həcmini artırmaq üçün yaradılan borulara yeni sərmayələr tələb etməyən TAP-ın onu Trans-Anadolu Boru Kəmərindən qəbul etdiyi Yunanıstan–Türkiyə sərhədindəki mövcud qaz-kompressor stansiyalarının modernləşdirilməsi ilə bağlı əməliyyat həyata keçiriləcək.



Məlumatda o da vurğulanır ki, boru kəmərinin ötürücülüyünün genişləndirilməsi İtaliyanın “mavi yanacağ”a olan tələbatının ödənilməsində Azərbaycan qazının payını 15 faizə qaldıracaq, Rusiya qazının payı isə 3 faizə enəcək. Həmçinin, kəmərin ötürücülük gücünün iki dəfə artırılması Balkanlardan Avropa İttifaqına uzanan Cənub Qaz Dəhlizi üçün də faydalıdır.

Qeyd edək ki, ötən ilin dekabrında Niş şəhərində Bolqarıstan və Serbiyanın qaz şəbəkələri arasında birləşdirici boru kəmərinin istifadəyə verilməsi ilə Azərbaycan ümumi qaz alıcılarının sayı 8-ə çatdırıldı ki, bunun da 6-sı Avropa ölkələridir. Bu da Avropanın enerji xəritəsini zənginləşdirən Cənub Qaz Dəhlizinin əhəmiyyətinin bir daha təsdiqləyir.

Bu məqamda daha bir maraqlı məsələyə toxunmaq lazım gəlir. Ötən ilin noyabr ayında Almaniya kansleri Olaf Şolts Berlində İtaliyanın Baş naziri Giorgia Meloni ilə birgə mətbuat konfransı zamanı deyib ki, Cənub Qaz Dəhlizinin genişləndirilməsi Alp dağlarından keçəcək yeni boru kəmərinin imkanları nəzərə alınmaqla genişləndirilə bilər. Cənub Qaz Dəhlizinin genişləndirilməsinin vacibliyini vurğulayan Almaniya kanslerinin fikrincə, Alp dağlarından keçən yeni boru kəməri ilə hər iki ölkə üçün enerji təchizatının təhlükəsizliyini yaxşılaşdırmaq mümkün olacaq.

Bugünlərdə isə Avropa Komissiyası Mərkəzi və Cənub-Şərqi Avropa Qaz Ötürmə Sistemləri Təşəbbüsünə (CESEC) üzv ölkələrin energetika nazirlərinin Yunanıstanın paytaxtı Afinada keçirilən görüşü ilə bağlı məlumat yayıb. Məlumatdan aydın olur ki, görüş zamanı bir sıra sənədlərlə yanaşı, qazla bağlı yenilənmiş tədbirlər planı da qəbul edilib. Tədbirlər planında nəzərdə tutulmuş təbii qaz üzrə prioritet infrastruktur layihələrinin siyahısında Azərbaycan qazını Avropaya nəql edən Trans-Adriatik Boru Kəmərinin (TAP) genişləndirilməsi də yer alıb. Göründüyü kimi, sözügedən tədbirlər planında TAP-ın genişləndirilməsi ilə bağlı məsələnin Mərkəzi və Cənub-Şərqi Avropa üçün prioritet sayılan layihələrin sırasına daxil edilməsi heç də təsadüfi deyil.

Qeyd edək ki, CESEC Mərkəzi və Cənub-Şərqi Avropanın qaz və elektrik enerjisi bazarlarının inteqrasiyasının sürətləndirilməsini nəzərdə tutur. Yüksək səviyyəli CESEC işçi qrupu 2015-ci ilin fevral ayında yaradılıb.

Xatırladaq ki, Trans-Adriatik Qaz Boru Kəmərinin istismara verildiyi 2020-ci il dekabrın 31-dən indiyədək Avropaya 30 milyard kubmetr Azərbaycan qazı ixrac olunub. Bu həcmlərin 24 milyard kubmetri İtaliyaya, qalan 6 milyard kubmetri isə Yunanıstana nəql edilib. Eyni zamanda, son illər interkonnektorların (birləşdirici kəmərlər) yaradılması məsələsi də getdikcə aktuallığını artırır. Bu da Avropada Azərbaycan qazının ixrac coğrafiyasının genişlənməsinə, enerji sahəsində tərəfdaş ölkələrin sayının artmasına səbəb olur.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

## Kredit qoyuluşu 24 milyard manata çatıb

**2024-ci il yanvar ayının 1-nə Azərbaycan iqtisadiyyatına kredit qoyuluşları 23 milyard 979,1 milyon manat təşkil edib. Bu da 2023-cü ilin dekabr ayının 1-nə olan göstərici ilə müqayisədə 1,53 faiz çoxdur.**




Bu barədə XQ-yə Azərbaycan Mərkəzi Bankından məlumat verilib. Bildirilib ki, 2023 ilin yanvar ayının 1-i ilə müqayisədə ölkə iqtisadiyyatına kredit qoyuluşları 3 milyard 795,1 milyon manat və ya 18,8 artıb. Xatırladaq ki, ötən ilin yanvar ayının 1-nə kredit qoyuluşlarının həcmi 20 milyard 184 milyon manat təşkil edib.

# Yalançı teleqramın gerçək üzü

**Niyə üstümüzə qoşun gəldi? Niyə dinc əhalini gülləyə tuş edib şəhəri al-qana boyadılar? Bu suallar Vətənin azadlığı yolunda canından keçən doğması, əzizi olanları daha çox düşündürür. Onlardan biri də Maral Zamanovadır – 20 Yanvar şəhidi Əliyusif Qocamanovun qızı.**




Maral Zamanova "20 Yanvar Şəhid Ailələrinin Hüquqlarının Təmin Olunması" İctimai Birliyinin sədridir. Çöhrəsində kədərin cizgiləri olan qadınla harada bitəcəyini bilmədiyimiz bir söhbətə başladıq...

Onun atası, 1933-cü il təvəllüdlü Əliyusif Qocamanov zəhmətkeş insan olub. Xəzər Dəniz Neft Donanmasında matros işləyib. Gəmidəki matros işi növbəlilik qaydasında olduğundan o, 2 gün evdə, 2 gün işdə olurmuş. Evdə olan günlərində də boş dayanmır, yaşadıqları yerə yaxın olan "Naxçıvan" mehmanxanasının yanındakı qəzet köşkündə işləyirmiş. Onun nəsil-nəcabəti Göyçə mahalından olsa da, Bakıya Ağsudan gəliblər. Əliyusif kişi mərhəmətli, səxavətli insan kimi tanınıb. Ailəsini, qızları Maralı, Şəhlanı, oğlu Hüseyni çox sevib. Gəmiyə növbəyə gedəndə də ilk və son tapşırığı uşaqlar olub.

**Həmsöhbətim atalı günlərini, xoşbəxt uşaqlığını xatırlayır. Atasını onlardan ayıran 20 Yanvar faciəsindən ürək ağrısı ilə danışır:**

– Atam yanvarın 19-da növbədən gəlmişdi, şəhərdə gəzən söz-söhbətdən də xəbərdar idi. Amma hamı kimi, o da belə faciə gözləmirdi. Otağa girən kimi küçələrin insanlarla dolu, əksəriyyətinin isə gənclər olduğunu dedi. Əlavə etdi ki, yaşlıların orada olması nəinki lazım deyil, hətta onlar cavanları da evlərinə göndərsələr, yaxşıdır. Sovetə etibar yoxdur, bir də gördün, atəş açdılar. Elə bu vaxt televizor söndü. Atam düşündü ki, yəqin qoruyucusu yandı. Anamı qonşuya göndərdi ki, görsün onlarda vəziyyət necədir? Anam gəldi ki, hamının televizoru sönüb. Atam "eybi yox, "Vremya"ya (o vaxt Moskvadan verilən xəbərlər proqramı) qədər açılar" – dedi. Televiziya işləsəydi, bəlkə də atam evdə oturacaq, küçədəki hay-küydən, atəş səslərindən xəbərsiz qalacaqdı.

...Qəfil güllə səslərinə hamımız diksindik. Atam durub qapıya sarı gedəndə anam "ay Əliyusif, hara?" – deyə onu yolundan saxlamaq istədi. O isə "çöldən xəbərin var? Hamısı cavan uşaqlardır. Gedim, görüm neyləyə bilirəm? Yazığım gəlir onlara", – dedi və qapıdan çıxdı... O, bir daha geri qayıtmadı. Həmin gecə anamın zəng vurmadığı xəstəxana qalmadı...

...Ertəsi gün meyitxanaya girən şəhidin qızı Şəhla "Ola bilməz!"– harayı ilə çıxır. Həyat yoldaşı Elmiranın "Ay Əliyusif, neylədin?"– iniltisi ilə uşaqlar atalarını itirdiklərini, bir daha görməyəcəklərini anlayırlar. Qoluna cibindən çıxan, qana bulaşmış 500 manatlığı və 301 nömrəsi yazılmış bir parça bağlanmışdı. Parçanın üstündəki "Qocamanov Əliyusif" ad-soyadı hər şeyi deyirdi...

**Maral xanım hadisəni görənlərdən eşitdiklərini belə xatırlayır:**

– Küçədə olanlar danışırdılar ki, Əliyusif kişi atəş açılandan sonra çıxıb. Görüb ki, uşaqlar yaralanıb. Onların yaxınlıqdakı xəstəxanaya çatdırılmasına xeyli kömək edib. Arada atəş açanlara qışqırıb, "Bu uşaqlar sizə neyləyib, niyə atəş açırsınız?" – deyə etirazını bildirib. Atamın saqqallılara rusca "görüm, anan-bacın sənin tabutuna girsin, tezliklə gəbərəsən," – deməyi ilə snayperdən ürəyinə atəş açılır.

Həmin vaxt qardaşım Hüseyn Moskvada həqiqi hərbi xidmətdə idi. Atam dəfələrlə



deyirdi ki, gedib onu qaçıracağam, vəziyyət yaxşı deyil. Hüseynə məktub yazmışdıq ki, səni gətizdirmək üçün valideynlərdən birinin ölümü ilə bağlı yalançı teleqram vuracağıq, qorxmayasan. O da razılaşmışdı.

Təsəvvür edin ki, 2 gün sonra hərbi komissarlıqdan atamın ölümü ilə bağlı qardaşıma teleqram getdi. Hüseyn də bunun razılaşdırılmış yalan olduğunu düşünərək sevinib. Gələndə isə acı həqiqətlə üz-üzə dayandı...

Maral xanımla söhbətimiz uzanır, xatirələr bir-birini əvəz edir. Bugünkü məşğuliyyəti ulə bağlı bildirir ki, ictimai birliyimiz daim 20 Yanvar şəhidlərinin ailələri ilə təmasda olur, onların qayğılı günlərində dəstəyini əsirgəmir. Hər il anım günlərində ölkənin bütün regionlarında idarə, müəssisə və təşkilatlarda keçirilən tədbirlər, şəhidlərin xatirələrinin anılması, ailələrə təskinlikdir.

O, sonda bildirdi ki, atası şəhid olandan sonra vaxtilə işlədiyi, indiki "Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin kollektivi ailə ilə əlaqəni kəsmədi. Ə.Ələkbərov küçəsində, atasının snayperlə vurulduğu yerdə onların dəstəyi ilə barelyefi qoyuldu. Hər il 20 Yanvar günündə kollektiv gül-çiçəklə onu yad edir.

***Zərifə HÜSEYNOVA***
***XQ***

**Şəhidlərin ata ocaqları müqəddəs ziyarət ünvanına çevrilib. Ziyarətçilər onların ruhunu ehtiramla yad edir, valideynlərinə səbir diləyir, Vətən uğrunda canlarından keçən igidlərin heç zaman unudulmayacağını bildirirlər.**



Bu yaxınlarda Biləsuvar şəhərində 24 yaşı tamam olan Azər Məmmədovun ailəsinə baş çəkənlər də onların qapısını eyni missiya ilə açıblar. Rayon icra hakimiyyətinin rəsmiləri, ictimai təşkilat rəhbərləri, YAP fəalları şəhid valideynləri, qazilər və ictimaiyyət nümayəndələri onun ölməz xatirəsini yad edib, şərəfli həyat və döyüş yoluna nəzər salıblar. Hər kəs şəhidin adı ilə fəxr etdiyini söyləyib.

Azər Məmmədov 9 yanvar 1990-cı ildə Biləsuvar şəhərində anadan olub. 1997–2008-ci illərdə Ə.Eynullayev adına şəhər 4 nömrəli tam orta məktəbində təhsil alıb. Azərbaycan Respublikası Daxili İşlər Nazirlyinin Daxili Qoşunlarının MAHHXHQ sıralarında qulluq edib. Ötən ilin sentyabr ayında ölkəmizin suverenliyinin tam təmin olunması məqsədilə keçirilən antiterror tədbirləri zamanı şəhadətə

# Azərin də ruhu şaddır

ucalıb. Sentyabrın 21-də ata yurdundakı qəbiristanlıqda dəfn olunub. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına əsasən şəhid Məmmədov Azər Sulduz oğlu ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edilib.

Atası Sulduz kişi ziyarətçilərə minnətdarlığını bildirərək oğlu haqqında xatirələrini danışıb. Şəhidin dəfn və 40 mərasimlərinin rayonda urvatlı bir şəkildə keçirilməsindən razılığını bildirib. O, vurğulayıb ki, Azər həmişə əziz eloğlusu, xalqımızın fəxri olan Milli Qəhrəman Mübariz İbrahimovu xatırlayır və deyirdi ki, belə oğulları olan Vətən basılmaz. Çox keçməz ki, torpaqlarımız erməni işğalından azad olunar. Özü də dəfələrlə Mübariz İbrahimovun ev-muzeyinə gedərək onun xatirəsini yad etmişdi…

Taleyin gərdişinə baxın ki, mübarizlərin yüksək vətənpərvərlik ənənəsini davam etdirən Azərin ata ocağı da bu gün ziyarət yerinə çevrilib. YAP Biləsuvar Rayon Təşkilatının sədri Kamil Qurbanlı qeyd edib ki, Vətənə olan sevgi anaya məhəbbəti ilə bir tutulur. Elə "Ana Vətən" anlayışı da bu sevgidən yaranıb. İnsan bir ailədə doğulsa da, Vətən torpağında böyüyüb boya-başa çatır. Bunun üçün də onu müdafiə etməyə və qorumağa hər zaman borcludur. Tarixi qəhrəmanlıq ənənələrini qoruyan oğullarımız döyüş meydanında düşməni 44 günə darmadağın edərək tarix yazdılar. Ali Baş Komandanın rəhbərliyi altında, xalqın dəstəyindən güc alan mərd oğullarımız qısa müddət ərzində tarixi torpaqlarımızı işğaldan azad etdilər. Artıq bu gün müqəddəs amal uğrunda şəhadətə yüksələn oğullarımızın ruhu şaddır. Çünki ötən il sentyabrın 19–20-də 23 saat ərzində keçirilən lokal xarakterli antiterror tədbirləri ilə tarixi torpaqlarımız düşməndən tam təmizlənib, separatçı tör-töküntülər layiqincə cəzalandırılıblar. Bu fərəhi bizə yaşadan Azər Məmmədov kimi oğullarla hamımız fəxr edirik.

Şəhid Azər Məmmədov ailəli olub, onun 1 oğul və 1 qız övladı dövlətimizə və xalqımıza əmanətdir.

***Ə.DOSTƏLİ***
***XQ***

# Taleyinə Xocavənd yazılmış şəhid həkim



**Atası Faiq Abdullayev Qəbələ İncəsənət məktəbində rəssamlıqdan dərs deyirdi. Aqşin isə həm 4 nömrəli tam orta məktəbdə oxuyur, həm də atasından rəssamlıq öyrənirdi. Amma o, Tibb Universitetinə qəbul olundu.**

5 nəfər əlaçı tələbə ilə o Naxçıvana – piyada qoşunlarında xidmətə göndərildi. Bir qədər sonra Xüsusi Təyinatlı Qüvvələrin Tibb Xidmətinin rəisi vəzifəsinə təyin edildi. 44 günlük Qarabağ müharibəsinin ilk günlərində tələbəlik dostları Turqut Xəlilbəylinin və Adil Əfəndiyevin şəhid olması xəbəri Aqşini çox təsirləndirdi. İçindəki qisas hissi daha da gücləndi və özü də gedib döyüşlərə qatıldı.

Anası Dilruba xanım deyir: "Nədənsə, qardaş və bacılarından fərqli olaraq, Aqşinin dünyaya gələndən şəhid olana qədər nəyi vardısa, hamısını yığıb, qoruyub saxlamışam. Bir gün onun həsrəti o qədər içimə doldu ki, məktəb dəftərinə baxdım. Gördüm, gündəlikdə işğal olunmuş rayonların siyahısında Xocavənd rayonun altından qırmızı xətt çəkib. İşə baxın ki, elə orada da əbədiyyətə qovuşub. 26 yaşında baş leytenant olan balamın nəşini Xocavənd torpağını qucaqlamış vəziyyətdə tapıblar"

Aqşin Ənvərli 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində Cəbrayılın, Füzulinin, Qubadlının, Şuşanın və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə yaralanan hərbçilərə yerindəcə yardım edir, onları atəş altından öz çiyinlərində çıxarırdı.

Xocavənd ərazisində gedən gərgin döyüşlərin birində Aqşin Ənvərli 2 əsgərlə yaralı vəziyyətdə mühasirəyə düşür. Kəsilmiş əl barmaqlarının ağrısını sakitləşdirmək üçün özünə iynə vururmuş. Elə bu an snayper gülləsinə tuş gəlir. Yeriyə bilmədiyi üçün digər yaralı yoldaşlarına "Siz gedin, kömək çağırıb məni də götürərsiniz" – deyir. Aqşinin arxasınca gəlsələr də, onu tapa bilmirlər. Xeyli sonra sülhməramlıların nəzarətində olan ərazidən şəhid hərbi həkimin nəşini götürmək mümkün olur.

Onu Qəbələdə, ata-baba yurdu Xırxatala məzarlığında ata babasının yanında torpağa tapşırıblar. Baş daşında doyunca geymədiyi həkim xalatında bədənnüma şəkli vurulub. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirən Aqşin Ənvərli ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunub. Qəbələdə adına küçə var. Təhsil aldığı Azərbaycan Tibb Universitetində akt zalı onun adını daşıyır.

Anası Dilruba xanımın dediyinə görə, Aqşinin istədiyi qız olub. Müharibəyə getməzdən əvvəl bacısına deyibmiş ki, anangil Lənkərana elçi gedərmi? Mən də dedim niyə getmirəm, gedərəm. Yaxşı ki, elə demişəm. Qız evi də elçi gələcək deyə hazırlaşırmış, amma… Aqşinin ölüm xəbəri gəlib".

Noyabrın 5-də anasına son mesajını yazıb: "Ana, narahat olma, yaxşıyıq". Sən demə, mühasirədə ağır yaralı vəziyyətdə yazıbmış.

Qəbələnin mərkəzindən çıxıb, üz tuturuq Xırxatala məzarlığına. Burda hər tərəf gül-çiçəyə bürünüb. Məzar daşının üstündən üzümüzə gülümsəyir Aqşin. Atası gözlərini qırpmamağa çalışır, alınmır, sel kimi axır göz yaşları. Nəhayət, özünü toparlayıb deyir ki, fəxr edirəm oğlumla. Təsəllim budur ki, o oğulların uğrunda qurban getdikləri torpaqlar artıq tam azaddır, abadlaşdırılır. İndi onların ruhları Qarabağ göylərində dolaşıb, sevinir.

***Ramilə QURBANLI***
***XQ***

# "Mübariz" postunun şəhidi



**Elçin Zamin oğlu Hüseynov Sumqayıt Dövlət Texniki Kollecinin gömrük işi fakultəsini bitirmişdi. Şeir-sənət aşiqi idi, özü də aradabir könül duyğularını misralara çevirirdi. 28 yaşlı soydaşımız 2020-ci ilin sentyabrında başlanan 44 günlük Vətən müharibəsi zamanı Suqovuşan uğrunda gedən döyüşlərində iştirak edərək yaralanıb. Buna baxmayaraq, döyüşə davam edib, "Mübariz" postundan digər posta adlayarkən gülləyə tuş gələrək qəhrəmancasına həlak olub. Onun cibindən kiçik bir şeir tapılıb. "Rəşadət ordeni"nə və medallara layiq görülən Elçinin həmin şeirini təqdim edirik:**

Vətən sevgisi
Qəlbimdə bir ağrı vardı,
üzdə baxıb gülsəm də,
Bir əqidəm bölünməzdir,
Hər nəyimi bölsəm də.
Aşiqiyəm bu vətənin,
Ölsəm də,
keşikçi kimi duran başdaşım
Xatırladar mənim
Vətən sevgimi...

***XQ***

# Cığırları Zəfər yoluna çevirənlər



**Vətən müharibəsində Azərbaycan əsgəri döyüşə-döyüşə Qələbəyə doğru gedirdi. O, səngərdən başlayıb ürəklərdən keçən Qələbə yolunu müqəddəs yol bilirdi...**

1992-ci ildən 2020-ci ilin payızına kimi ermənilər işğal etdikləri kəndlərə, qəsəbələrə, şəhərlərə aparan yolları-izləri, çölləri-düzləri, qaraltısından çəkindiyi meşələri, əzəmətindən eymənd iyi dağların yan-yörəsini minalayırdı. Azərbycan əsgəri dağlarda, meşələrdə cığırları yola döndərirdi, minaları təmizləyə-təmizləyə irəliləyirdi. Yan-yörəsində gizlədilmiş minalar aşkarlanırdı, zərərsizləşdirilirdi.

İstehkamçılar minaaxtaran cihazın siqnal səsini haray bilirdi: Dayan! Dayanırdılar, nəfəslərini dərib peşə vərdişi ilə ehtiyatla irəliləyirdillər. "Müharibədə neçə mina zərərsizləşdirdin?" – maraqdan yaranan suala aldığım cavabı bütün istehkamçıların mənəvi dünyasının işığı bilirdim: Tarixi Zəfərimizə lazım olan qədər!

İstehkamçılar Füzuli rayonunun Yuxarı Əbdürrəhmanlı kəndi yaxınlığındaydılar. Postumuz düşmənin postundan o qədər də aralı olmayan ərazidə idi. Diqqətlə baxanda postların arasındakı sahədə basdırılmış iki mina aydın görünürdü. Bir azdan döyüşçülərimiz buradan hücuma keçəcəkdilər. Həmin ərazi düşmənin də nəzarətində idi, bizim də. Baş leytenant Kənan Rzayev minanı əmr gözləmədən atəş altında zərəsizləşdirdi. Döyüşçülərimiz həmin ərazidən hücuma keçdilər. Kənd işğaldan azad edildi.

Yolun ortasında iri daş vardı. Nə sağda, nə də solda yüksəklik yox idi ki, daşın ordan düşdüyünü güman edələr. "Daşı yola ermənilər atıb!" – düşündülər. Ayaq saxladılar. Qrupun komandiri baxışıyla daşı göstərdi. Daşın sağına-soluna göz gəzdirdilər. Minaaxtarandan istifadə etməyə ehtiyac olmadı–sağ tərəfdə bir-birinə çataqlı iki mina vardı. Tələsik basdırılmışdı. Riskli olsa da, hər iki minanı yerindəcə zərərsizləşdirdilər. Sonra minaaxtaranı yerə qoyub avtomatı götürdülər və döyüşənlərin sıralarına qoşuldular.

Onlar komandanlığın müvafiq əmrini gözləyirdilər. Müşahidə postu düşmən mövqeyinə yaxın idi. Bir qədər diqqətlə baxanda arada qalan ərazidə iki təzə torpaq qalağı görünürdü. Gümanlar gerçəkliyə meyilli gümanlarıydı: mina basdırılıb! Təcrübə gümanlara aydınlıq gətirdi. Bir də diqqət yetirdilər. Basdırılımış iki mina uzaqdan gözə çarpırdı. Düşmən minaların diqqəti çəkdiyini güman etmədiyinə görə, əsas qüvvələrini ərazinin qarşı tərəfindən başlayacaq döyüş xəttinə cəmləmişdi. Kəşfiyyatçıların bu məlumatı minanı atəş altında zərəsizləşdirməyə, ardında hücuma keçməyə imkan yaratdı. Döyüşçülərimiz kəndi işğaldan azad etdi.

Daşaltıdan Şuşaya aparan yolu addım-addım yoxlaya-yoxlaya irəliləyirdilər. Yol minalardan təmizlənəndən sonra döyüşçülərimiz Şuşanın dağlarını nərdivana döndərib şəhərə qalxacaq, yüngül silahlarla nər kimi döyüşəcək, Qala-şəhəri işğaldan azad edəcəkdilər. 10-15 addım getmişdilər. Qəflətən çayın içindən sahilə uzanan məftilləri görəndə dayandılar. Minalara bağlanmış məftillər sahildə ağaclara bərkidilmişdi. Münasib olmayan yerdə, gərginlik içində, vaxt darlığında (el arasında belə məqama "izlə biz arasında" deyirlər) çataqlı minaların ikisini də yüksək peşəkarlıqla zərərsizləşdirdilər. Xüsusi təyinatlı qüvvələrimizin bir hissəsi Şuşanın dağlarına bu istiqamətdən yaxınlaşdı. Həmin istiqamət Zəfərə aparan döyüş yolu oldu.

Yol dünəndən gəlib sabahlara gedir. Əhmədbəyli kəndindən başlayan, Füzuli şəhərindən, Topxana meşəsindən, Daşaltı kəndindən keçən təzə yol müharibə ərəfəsində iz oldu, iz cığıra döndü. İkinci Qarabağ müharibəsində cığır hərbi əməliyyatlara görə genişləndi, yol oldu – Zəfər Yolu!

Zəfər yolu olacaq cığırda mina aşkarlayan, mina zərərsizləşdirən, cığırın yöndəmsizliyini yöndəmə gətirən mühəndis-istahkamçılara xitabən deyirik: Cığırları minasızlaşdırdığınıza görə sağ olun. Zəfərə görə sağ olun. Cığırı yola döndərdiyinizə görə sağ olun!

***Rəşid FAXRALI,***
***hərbi jurnalist***

# Qarabağda və Şərqi Zəngəzurda məşğulluq layihələri

*Doğma yurda qayıtmış 4 mindən çox soydaşımız üçün iş yerləri yaradılır*

**Məcburi köçkünlərin doğma yurda rahat və təhlükəsiz qayıdışının təmin edilməsi üçün bütün zəruri tədbirlər görülür. İşğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış – dayanıqlı məskunlaşma və iqtisadi fəaliyyətə reinteqrasiya Azərbaycanın 2030-cu ilə kimi icra edilməli olan sosial-iqtisadi inkişafının 5 milli prioritetindən biridir.**



Hazırda Qarabağ və Şərqi Zəngəzurda bərpa-quruculuq işləri sürətlə aparılır, məcburi köçkünlərin doğma yurda rahat, təhlükəsiz və ləyaqətli qayıdışının təmin edilməsi üçün bütün zəruri tədbirlər görülür. Bunun nəticəsidir ki, indiyədək 4 mindən artıq məcburi köçkün daimi məskunlaşmaq üçün geri qayıdıb. Onların mənzil-məişət şəraitinin yaxşılaşdırılması ilə yanaşı, məşğulluq imkanları qiymətləndirilib və bu işəgötürənlərlə əməkdaşlıq şəraitində dəstək tədbirləri həyata keçirilib.

Yerli və xarici sərmayəçilər üçün əlverişli biznes mühiti formalaşdırılıb, sənaye və aqroparklar yaradılıb, məcburi köçkün icmalarının biznes və sahibkarlıq təşəbbüsləri dəstəklənib.

Hazırda Dövlət Məşğulluq Agentliyi və Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) birgə təşkilatçılığı ilə şəhid ailələri, müharibə iştirakçıları və onların ailə üzvlərinin sosial rifahının yaxşılaşdırılması, məşğulluğunun təmin olunmasına dəstək göstərilməsi məqsədilə "Qarabağ KOB-ları" proqramı icra olunur.

Layihə çərçivəsində indiyədək sözügedən kateqoriyadan olan müvafiq tələblərə uyğun gələn şəxslərə biznes biliklərinin və bacarıqlarının artırılması üçün KOBİA tərəfindən maliyyə və mühasibatlıq, kadr işi, idarəetmə, satış və marketinq və s. mövzularda zəruri təlimlər keçirilib. Özünüməşğulluq proqramı çərçivəsində heyvanlar verilib. Məşğulluğun təmin olunmasında əmək yarmarkaları da önəmli rol oynayıb. Məsələn, keçirilən əmək yarmarkalarında Füzulidə 20 işəgötürən tərəfindən 200 vakansiya, Laçında 16 işəgötürən tərəfindən 200 vakansiya sakinlər üçün təqdim edilib. Görülən kompleks tədbirlər nəticəsində 1000-dən çox şəxsin məşğulluğu təmin edilib.

İşğaldan azad olunmuş ərazilərə köçürülən sakinlərin məşğulluğunun təmin edilməsi istiqamətində görülən işlərin əsas istiqamətlərindən biri də peşə hazırlığı kurslarının təşkili olub. Artıq Laçın, Şuşa, Füzuli, Zəngilan, Cəbrayıl şəhərləri, Laçının Zabux və Sus, Füzulinin Dövlətyarlı, Cəbrayılın Horovlu və Şükürbəyli, Qubadlının Mahruzlu və Zilanlı, Ağdərənin Talış və Suqovuşan, Ağdamın Xıdırlı, Sarıcalı, Kəngərli, Salahlı Kəngərli, Baş Qərvənd kəndlərinin işsiz və işaxtaran sakinləri üçün peşə hazırlığı kurslarının təşkili işlərinə başlanıb. 2026-cı ilə kimi işğaldan azad olunmuş ərazilər üzrə ilkin mərhələdə 12 min şəxsin peşə hazırlığına cəlb edilməsi planlaşdırılıb. Ümumilikdə, 2023-cü ildə ölkə üzrə 1000-dən çox keçmiş məcburi köçkün peşə hazırlığına cəlb olunub.

Sonrakı illərdə işğaldan azad olunmuş ərazilərə köç daha intensiv hal alacaq. Bunun üçün bütün imkanlar səfərbər edilib. Qarabağ və Şərqi Zəngəzura 2026-cı ilədək 34 min 500 ailə köçürüləcək. Bu isə növbəti 4 ildə 160 minə yaxın vətəndaşımızın öz ata-baba yurdlarına qayıtması və geniş ərazinin minalardan təmizlənməsi deməkdir.

Uzun müddətin və böyük maliyyənin tələb olunmasına rəğmən, hazırda Azərbaycan dövləti tərəfindən heç bir donorun – digər dövlətlərin və beynəlxalq təşkilatların yardımı olmadan azad edilmiş ərazilərin minalardan təmizlənməsi prosesini davam etdirir. 2020-2022-ci illərdə 57,6 min hektar ərazi minalardan təmizlənib. Böyük Qayıdışa dair I Dövlət Proqramına əsasən 2023-2026-cı illərdə daha 215 min hektar ərazinin minalardan təmizlənməsi planlaşdırılıb. 2026-cı ilin sonunda, ümumilikdə, 280 min hektar ərazi minalardan təmizlənəcək. Minalardan təmizlənmiş geniş ərazilər isə xalq təsərrüfatına cəlb olunacaq. Bu da yeni iş yerləri deməkdir.

Qarabağ iqtisadi rayonunda 2030-cu ilədək təqribən 150 min iş yerinin açılacağı gözlənilir. Bu barədə Azərbaycan Respublikası Prezidentinin Qarabağ iqtisadi rayonunun tərkibinə daxil olan işğaldan azad edilmiş ərazilərindəki (Şuşa rayonu istisna olmaqla) xüsusi nümayəndəsi Emin Hüseynov "İşğaldan azad olunmuş ərazilərin investisiya cəlbediciliyi" mövzusunda keçirilən elmi-praktik konfransda deyib: "Qarabağ iqtisadi rayonunda 2030-cu ilədək təqribən 150 min iş yerinin açılacağı gözlənilir. Ağdam Sənaye Parkında iş yerlərinin gözlənilən sayı 5 min, kənd təsərrüfatı sektorunda 15-17 min, dağ-mədən sənayesində 1,5-2 min, turizm sahəsində 1,5-2 min, KOS sektorunda isə 10-11,5 mindir".

Beləliklə, hər bir sahə üzrə fasiləsiz iş gedir, yeni sənaye müəssisələri yaradılır, kənd təsərrüfatına geniş torpaq sahələri cəlb edilir, infrastruktur qurulur, sosial obyektlər tikilir. Eyni zamanda sahibkarlıq fəaliyyəti dəstəklənir. Bununla yanaşı məcburi köçkünlərin öz doğma torpaqlarına köçü təmin edilir. Görülən işlər Qarabağın tezliklə Azərbaycanın ən inkişaf etmiş regionlarından birinə çevriləcəyindən xəbər verir.

*P.ƏFƏNDİYEV*
*XQ*

**Epidemioloji durum**

**Əgər Avropa və Rusiyanı bürüyən xəstəlikləri, bu ölkələrdə yayılan informasiyaları nəzərə alsaq, Azərbaycanda da nə qədər "epidemioloji vəziyyət sabitdir" – deyilsə də, gərginlik olduğu məlumdur. Əgər Rusiya, Gürcüstan mətbuatı xəstəxanaların göyöskürək, yeni növ koronavirus, yeni tip pnevmoniyalı xəstələrlə dolub daşdığını yazırsa, deməli, ölkəmizdə də vəziyyət kəskinləşə bilər və buna hazır olmalıyıq.**

Hazırda təcili yardıma müraciət edənlərin sayı çoxalıb. Həmçinin vəziyyətinə uyğun xəstəxanaya aparılmalı olanlar da artıb. Temperatur, boğaz ağrısı, öskürək bütün yaşda olan insanları əhatə edib. Valideynlər arasında uşaqlarının yoluxmadan sonra ağırlaşacağından qorxanlar daha çoxdur. Elə ailə tapmaq çətindir ki, orada 1, ya 2 nəfər xəstələnməsin. Xəstələrin bir qrupu – uşaqlar, gənclər həm qızılcaya yoluxurlar, həmçinin göyöskürəkdən əziyyət çəkirlər. Daha təhlükəli hal odur ki, paytaxtda olduğu kimi, bir çox rayonlarda sarılıq ocaqları var.



# Qızılcanı qızışmağa qoymayaq...

Həkimlərin "naməlum mənşəli pnevmoniya" diaqnozu qoyduqları mikoplazma sətəlcəmi də unudulmamalıdır. Qeyd edək ki, bu pnevmoniya ötən ilin sonunda Çində alovlanıb, uşaqları daha çox yoluxdurub və xəstəxanalar xəstə ilə dolu olub.

Xəstəliyə hava-damcı yolu ilə sıx toplaşılan məkanlarda, kollektivlərdə, məktəblərdə, qapalı yerlərdə asanlıqla yoluxmaq mümkündür. Yeni tip pnevmoniyaya ən çox uşaqlar, gənclər, hamilələr yoluxurlar.

Rusiyada ikinci aktiv xəstəlik göyöskürəkdir. Ölkənin səhiyyə qurumları hazırda xəstəxanalarda bu xəstələrin sayının artdığını, çarpayıların dolduğunu bildirirlər.

Eləcə də Azərbaycanda artıq 3 aydır ki, uşaqlarda sadəcə öskürək və boğulma ilə müşahidə edilən virusun yayıldığı da məlumdur. Bakıda uşaq xəstəxanalarının infeksion şöbələrində belə xəstələr çoxdur. Maraqlı odur ki, aparılan müalicələrin təsiri arzuolunan səviyyədə deyil.

Artıq 3 aydan çoxdur ki, Azərbaycanın bölgələri və Bakıda qızılca sürətlə yayılmaqdadır. Bu müddətdə 15-ə yaxın uşaq və gənc vəfat edib. Hələ dekabr ayından pandemiya vaxtı açılan və sonradan bağlanan modul tipli xəstəxanaların qızılca səbəbindən açılması barədə məlumatlar yayılmışdı. Sosial şəbəkələrdə onlarca valideyn övladının Məhəmmədi modul tipli xəstəxanada müalicə aldığını yazır. Hətta bildirirlər ki, müəssisədə xəstələrin sayı çoxdur.

Bugünlərdə qızılca daha bir uşağın həyatına son qoyub. Qazaxda 13 yaşlı Nəzrin Şabanzadənin ölümünün təfərrüatları yenə də səhiyyə problemlərini gündəmə gətirib. Mediada yayılan xə-



bərlərdə və paylaşılan videoda uşağın xəstəxanaya aparılması prosesindən bəhs edilir. Valideynlərin danışdıqlarından belə görünür ki, ağır tənəffüs, ensefalopatiya əlamətli və qızılca diaqnozlu, amma hələ həyat əlamətləri olan uşağı xəstəxana qəbul etməyib və xəstə Bakıya göndərilib. Ambulansa danışa-danışa minən xəstə paytaxta artıq ölü vəziyyətdə çatdırılıb.

Qazaxdan Bakıya magistral yolun vəziyyətindən asılı olaraq, azı 5–5,5 saata çatırlar. Həmin müddətdə isə xəstə artıq tənəffüs aparatına qoşulmalı, reanimasiya tədbirləri görülməli idi. Atanın sözlərinə görə, Nəzrin kənddən Qazax Rayon Mərkəzi Xəstəxanasına aparılıb: "Evdə müalicə aldığı müddətdə səpkiləri çoxaldı. Həkimlə əlaqə saxladıq. Yoxlayıb Bakıya göndərdilər. Qızım söhbət edə-edə getdi, xəstəxanaya çatanda ambulansdan düşə bilmədi. Müayinə edən həkimlər bildirdilər ki, artıq iş-işdən keçib, gecikdirmisiniz".

Nəzrindən əvvəl 10 yaşlı qardaşı Əmrah da qızılcaya yoluxubmuş. Yeri gəlmişkən, burada valideyn səhlənkarlığını qeyd etməmək olmur. Nəzrin kimi onlarca uşağın valideyni həkimə vaxtında müraciət etmir, sonradan onları günahlandırırlar.

Bəs qızılca adam öldürürsə, o zaman xəstə uşaqlar evlərdə niyə yoxlanmır, ailə həkimlərinə, sahə peditrlarına niyə məlumat vermirlər? Bir uşağın vəziyyətinin ağırlaşdığını ailədəkilər, valideyn görməli deyilmi? Hər ölüm səbəbini həkimin üstünə atmaq olarmı?..

Bu gün Azərbaycanda uşaqdan böyüyə hər kəsi bir sual düşündürür: qızılca nə vaxt bitəcək, biz bu kabusdan nə vaxt qurtulacağıq? Vəziyyətin təhlili göstərir ki, hazırda yoluxma pikə doğru gedir və artıq xəstəxanalara yerləşdirilənlərin sayı artır. Hətta 60–70 yaşlılar da qızılcaya yoluxurlar. İnfeksionistlər gərginliyin təxminən nə vaxt düzələcəyini, sadəcə, ehtimalla söyləyirlər.

"Leyla" klinikasının şöbə müdiri, pediatr Sahib Cəfərovun bildirdiyinə görə, qızılcaya nə qədər yaşlı insanlar yoluxsa da, əksər xəstələr uşaqlardır. Yaşlılara nadir hallarda qızılca keçir. Xəstəliyə 100 uşaq yoluxursa, təxminən 3–4 nəfər yaşlı insan xəstələnir. Amma onu da demək yerinə düşər ki, qızılcaya hər kəs yoluxa bilər, konkret qayda yoxdur.

Həkim deyib: "Uşaqlar müəyyən yaşa qədər bu virusla üzləşir, yoluxur, immunitet əldə edirlər. Onlarda immunutet iki halda yaranır. Uşaqlar ya həmin xəstəliyə qarşı peyvənd olunmaqla, ya da ki, yoluxub sağalmaqla virusa qarşı immunitet əldə edirlər. Ona görə 25–30 yaşdan yuxarı insanlarda bu xəstəliyə qarşı immunitet olur. Amma nəzərə alsaq ki, 60 yaşlı insanlar sovet dövründə ya peyvənd olunub, ya da yoluxmaqla sağalıblar, o yaşda xəstə çox az olur".

S.Cəfərovun fikrincə, qızılcada vəziyyət koronavirusdakı kimi deyil. Qızılca çox güclü yoluxucudur, həssaslığı olan şəxs istər-istəməz yoluxacaq. İmmuniteti güclü olanlar isə yoluxmayacaq. Bu xəstəlikdən maska və sosial məsafə ilə qorunmaq mümkün deyil. Qızılca pik nöqtəyə qısa müddətdə çatdığı üçün koronavirus kimi illərlə yox, qısa sürəcək, yəqin ki, bir neçə aya bitəcək.

Pediatr müalicə məsələsində valideynləri diqqətli və ayıq olmağa çağırıb: "Qızılcalı uşaqda səpkilər çıxandan sonra maksimum 1 günə qızdırma düşməlidir. Ümumiyyətlə, xəstəliyin yüngül formasında qızdırma 2 gün olur. Əgər uşaqda səpkilər çıxandan sonra da qızdırma 2–3 gün davam edirsə, demək burda ağırlaşma ehtimalı çoxdur. Bəzən valideynlər diqqətsiz olur, elə bilir ki, uşaq xəstədir deyə zəifdir, ya sadəcə yatıb. Ona görə də xəstəliyin ağırlaşdığını bilmirlər. Qızdırmanın xüsusi müalicəsi yoxdur. Xəstəyə yalnız A, D vitaminləri, qızdırma salan dərman, bol maye, çay verilir. Halsızlıqdan su da içə bilməyən xəstələrə sistem şəklində bəzi vitaminlər yeridilə bilər".

*Zərifə BƏŞİRQIZI*
*XQ*

# DOST-un əl işləri Koreya sərgisində

**DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin benefisiarlarının rəsm əsərləri ilk dəfə Cənubi Koreyada keçirilən beynəlxalq sərgidə nümayiş etdirilir. Əlil gənclərin əl işlərindən ibarət sərginin açılışı Yeniyetmələrin 4-cü Qış Olimpiya Oyunları çərçivəsində Cənubi Koreyanın Qanqvon əyalətində keçirilib.**




Mərkəzdən XQ-yə bildiriblər ki, "Birlikdə böyü, əbədi parla!" devizi ilə keçirilən sərgidə mərkəzin benefisiarları Şamxal Xələfli, Şəbnəm Əhmədova və Qumru Əliyevanın müxtəlif mövzularda çəkdikləri tablolar, o cümlədən "Şuşa", "Neft buruqları", "Qış mənzərəsi" əsərləri qonaqların və media nümayəndələrinin marağına səbəb olub.

Mərasimdə iştirak edən Cənubi Koreyanın hökumət nümayəndələri, diplomatik korpus üzvləri və sənət xadimləri Azərbaycan rəssamlarının əsərlərindən ibarət ekspozisiyaya baxıblar. Sərgidə əsərləri yer alan müəlliflərin emosional və rəssamlıq baxımından yüksək səviyyədə iş nümayiş etdirdikləri diqqətə çatdırılıb. Bu cür əsərlərlə rəssamların dünyaya ümid və gözəllik bəxş etdiyi vurğulanıb.

Mərkəzin nümayəndəsi tədbir iştirakçılarına qurumun fəaliyyəti və xidmət istiqamətləri ilə bağlı məlumat verib. Sosial cəhətdən həssas əhali qruplarına aid, o cümlədən əlilliyi olan şəxslərin yaradıcılıq potensialının inkişaf etdirilməsi və cəmiyyətə adaptasiyası istiqamətində aparılan işlərdən danışıb.

Ekspozisiyada Asiya, Amerika, Afrika, Avropa və Okeaniya ölkələrindən 53 rəssamın 274 əsəri sərgilənir. Sərgi fevralın 1-dək Yeniyetmələrin 4-cü Qış Olimpiya Oyunları müddətində Qanqneunq İncəsənət Mərkəzində sənətsevərlərin ixtiyarında olacaq.

# Sanatoriya-kurort növbəliliyi

**Ötən ildən istifadəyə verilən Fərdi Reabilitasiya və Abilitasiya Proqramının (FRAP) tətbiqi üzrə altsistem vasitəsilə əlilliyi olan şəxslərin sanatoriya-kurort növbəliliyi proaktiv qaydada həyata keçirilir. Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən XQ-yə verilən məlumatda bildirilir.**

Qeyd olunur ki, sanatoriya-kurort müalicəsinə tibbi göstərişi olan şəxslər haqqında məlumat yollayış üçün növbəyə alınmaq məqsədilə FRAP vasitəsilə nazirliyin mərkəzləşdirilmiş elektron informasiya sisteminin "Sanatoriya-kurort altsistemi"nə ötürülür. Hər hansı quruma müraciət edilmədən sanatoriya-kurort növbəliliyi formalaşdırılır. Həmçinin vətəndaşın sanatoriya-kurort yollayışı ilə təmin olunması və şəxsin müalicəsi ilə əlaqədar qeydlər də müvafiq altsistemə daxil edilir.

Qeyd edək ki, FRAP-da əlilliyi olan şəxslərin tibbi, peşə-əmək, psixoloji-pedaqoji reabilitasiyası və sosial bacarıqlarının inkişafı ilə əlaqədar kompleks tədbirlər əhatə olunur. Altsistemdə əlillərlə bağlı məlumatlar, yaşayış yerləri, bacarıqları, onlarla bağlı nəzərdə tutulan reabilitasiya və abilitasiya tədbirləri də qeyd olunur.

*XQ*

# Ötən il 8 milyard manat sosial vəsait ödənilib




**2023-cü il ərzində pensiya, müavinət, təqaüd və ünvanlı dövlət sosial yardımları üzrə əhaliyə 2022-ci illə müqayisədə 1 milyard 311 milyon manat və ya 19,7 faiz çox olmaqla 7 milyard 957 milyon manat ödənilib.**

Ötən ilin əvvəlindən növbəti sosial islahat paketi reallaşdırılaraq pensiya, müavinət və təqaüdlərin, habelə ehtiyac meyarı həddinin növbəti dəfə artırılması təmin edilib. Əmək pensiyaçılarına maddi yardımlar pensiyanın sığorta hissəsinə əlavə edilib və pensiyanın sığorta hissəsi 2023-ci ilin yanvarın 1-dən 14,7 faiz indeksləşdirilərək artırılıb.

*Z.HÜSEYNOVA*
*XQ*

# Əlillik təyinatlarında yeni meyarlar

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində tibbi-sosial ekspertiza və reabilitasiya sahəsində görülmüş işlərə dair iclas keçirilib. Bu barədə qurumun ictimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən XQ-yə verilən xəbərdə bildirilir. Qeyd edilir ki, iclasda Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq sosial sahədə aparılan islahatlar çərçivəsində əlilliyin qiymətləndirilməsi və əlillərə tibbi-sosial reabilitasiya xidmətlərinin göstərilməsi sahələrində də işlərin uğurla icra edildiyi vurğulanıb.**

Bundan başqa, əlillərin hüquqlarının təminatı sahəsində atılan addımlar barədə məlumat verilib. Əlilliyin qiymətləndirilməsi zamanı əsas götürülən yeni meyarların sayı 2022-ci ilin 1 iyuluna qədərki cəmi 128 meyarla müqayisədə 5 dəfəyə yaxın artırılaraq 616-ya çatdırılıb. Yeni meyarlar əlilliyin qiymətləndirilməsi sisteminin mütərəqqi dünya təcrübəsinə uyğun təkmilləşdirilməsi ilə yanaşı, vətəndaş məmnunluğuna yönəlik bir sıra yeni yanaşmaların tətbiqinə imkan verib.

Bildirilib ki, nazirliyin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi tərəfindən orqanizmin funksiyalarının itirilməsi faizinin müəyyən edilməsi prinsipi əsasında, həm də xəstəliyin ağırlıq dərəcəsi nəzərə alınmaqla ötən il 50 min 700 nəfərə əlillik təyinatı aparılıb. Dövlət başçısının tapşırığına əsasən son beş ildə nazirliyin 12 reabilitasiya və sosial xidmət müəssisəsi əsaslı təmir və yenidənqurmadan sonra istifadəyə verilib. Ölkə üzrə fəaliyyət göstərən 15 reabilitasiya müəssisəsi vasitəsi ilə 87 min 700 şəxsə reabilitasiya xidməti göstərilib. Agentlik tərəfindən 10 min 500 şəxsə 91 min 400 reabilitasiya vasitəsi verilib.

Qeyd olunub ki, 2024-cü il iyul ayının 1-dən həqiqi hərbi xidmətə çağırılan vətəndaşların tibbi şəhadətləndirilməsi zamanı müvafiq qərarların yekun tibbi müayinə əsasında verilməsi istiqamətində görülən işlərin icrasına başlanılacaq. Əlillərə göstərilən elektron xidmətlərin sayının artırılması, mövcud xidmət keyfiyyətinin yüksəldilməsi istiqamətində səylərin gücləndiriləcəyi vurğulanıb. Sonda ötən dövrdə görülmüş işlər və qarşıya qoyulan hədəflər müzakirə olunub.

*Z.BAYRAM*
*XQ*

Dünya mədəni irsi

# Şəkinin "Yuxarı baş"ı muzeylər kompleksidir



**Şəki şəhərində yerləşən "Yuxarı baş" Dövlət Tarix Memarlıq Qoruğu 1967-ci ildə yaradılıb. Onun tərkibindəki Xan sarayı və Şəkinin tarixi mərkəzi düz 5 il əvvəl UNESCO-nun Bakıda keçirilən 43-cü sessiyasında "Dünya Mədəni İrsi" siyahısına daxil edilib.**



Ondan 1 il sonra – məhz bugünkü tarixdə isə Azərbaycan Prezidentinin "Şəki şəhərinin tarixi hissəsinin qorunması haqqında" müvafiq sərəncamı əsas götürülməklə, qoruğa milli status verilib. Dövlət başçısı İlham Əliyev, Birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva – 2022 ci il dekabrın 2-də Şəkidə olarkən "Yuxarı baş" qoruğu ərazisində Dövlət Turizm Agentliyi tərəfindən aparılan təmir-bərpa işləri ilə tanış olublar.

Ümumiyyətlə, əsrlərin şahidi olan qoruğun ərazisində dövlətin mühafizə etdiyi, dünya, ölkə və yerli əhəmiyyətli 83 tarix və memarlıq abidəsi mövcuddur. Bu sıraya Şəki xanlarının evi, karvansaralar, hamamlar, məscid və minarələr, tağlı körpülər, tacir malikanələri, su dəyirmanları və sair daxildir. Ətrafdakı əksər evlər də tarixi əhəmiyyətə malikdir. Bu evlərin bəzilərində memarlıq ornamentlərindən başqa, çox gözəl işlənmiş buxarılar var. Təəssüf ki, bəzən bu evlərin sakinləri kirəmitli dam örtüklərini dəmirlə əvəz edirlər, bu isə qoruğun tarixi koloritini pozur.

Qala divarları daxilində, Xan sarayının qarşısında əsrlərdən bəri əzəmətli duruşuyla könülləri fəth edən binalarla yanaşı, sənətkarlıq emalatxanaları qalmaqdadır. Şəbəkə sənəti, kəlağayı, xovlu tikmə, təkalduz, papaqçılıq və.s sənətkarlıq sahələrinin toplu halında mövcud olduğu şəhərdə tarixi-mədəni irs bu gün layiqincə yaşadılır.

Şəkiyə səyahət edən turistlər ənənəvi olaraq Xan sarayını, Karvansaray, mərkəzdə yerləşən digər tarixi abidələri ziyarət edir, yerli mətbəx nümunələri ilə tanış olur, maraqlı sənətkarlıq məhsullarını alırlar. Hazırda Dövlət Turizm Agentliyinin maliyyə dəstəyi ilə icra olunan "Şəkinin dünya əhəmiyyətli memarlıq abidələrinin təbliği və onların üzərindən turizm marşrutunun yaradılması" layihəsi çərçivəsində Şəkinin bəşəri irs dəyərlərini, dünya əhəmiyyətli abidələrini əhatə edən xüsusi turizm marşrutu hazırlanır.

Hüseyn xan Müştaqın inşa etdirdiyi "Xan məscidi" və "Xan məscidinin sərgi zalı" Heydər Əliyev Fondunun dəstəyi, Dövlət Turizm Agentliyi və Qoruğun nəzarəti ilə restavrasiya olunub. "Qeyr-maddi mədəni irsin təbliği" İctimai Birliyinin layihəsi çərçivəsində Şəkidə kəlağayı sənətini yaşadan sənətkar Əmiraslan Şamilovun emalatxanası abadlaşdırılıb. Bura təmir olunub, həyəti səliqəyə salınıb, yeni darvaza qoyulub, gülvurma və boyaq sexinə elektrik xətləri çəkilib, istilik sistemi quraşdırılıb, yeni avadanlıq və mebellər gətirilib.

"Yuxarı baş"ın yeni inzibati binası dövlət mühafizəsinə götürülmüş memarlıq abidəsidir və XIX əsrdə əsgər kazarması kimi inşa edilib. İnzibati bina yerli memarlıq üslubunda, dağ-qaya daşından və bişmiş kərpicdən inşa olunub. Binanın memarlıq irsi qorunmaqla, onun fasadı, dam örtüyü, döşəməsi, pilləkənləri bərpa olunub, interyeri inzibati bina üçün uyğunlaşdırılıb, fond və arxiv otaqları yaradılıb. Başqa bir çar dövründə tikilən binadan "Şəbəkə evi" emalatxanası kimi istifadə ediləcək. Yeni konsepsiyaya görə "Şəbəkə evi" emalatxanasında sənətkarların fəaliyyət göstərdiyi şəbəkə istehsalı mərkəzi ilə yanaşı, bu sənətin tarixini nümayiş etdirən ekspozisiya zalı, interaktiv turizm təcrübəsi üçün təqdimat otağı, suvenir istehsalı və satışı mərkəzi yaradılacaq. Eyni zamanda, burada yeni şəbəkə ustalarının yetişdirilməsi üçün "Şəbəkə Təlim-Tədris Mərkəzi" fəaliyyət göstərəcək.

***İlqar HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***

**Kələntərlilər Lənkəranda tanınmış nəsildir. Belə bir ailədə doğulmuş, bir əsrin kürəyini yerə vurmuş el ağsaqqalı Kamal Kələntərlini 30 il olar ki, tanıyıram. Bölgə müxbiri kimi çalışdığım ilk illərdən onunla ünsiyyətdə olmuşam. Həmişə dövlətçiliyə sədaqəti, ictimai fəallığı, yüksək ziyalı keyfiyyətləri, bir də şən zarafatları ilə seçilib, sevilib. Təsadüfi deyil ki, o, uzun müddət Lənkəran Rayon Ağsaqqallar Şurasına bacarıqla rəhbərlik edib.**

# Babaların babası – Kamal Kələntərli

*102 yaşlı lənkəranlı seçicinin prezident seçkilərində 34 övladı, nəvə-nəticəsi də səs verəcək*



Düz 80 il əvvəl Kamal Kələntərli pedaqoji məktəbi bitirdikdən sonra bir müddət Lerikin ucqar dağ kənd məktəblərində müəlim işləyib. Sonralar Bakı Kooperasiya Texnikumunu və Ümumittifaq Kooperasiya İnstitutunun Bakı filialında təhsilini artıran Kamal müəllim Lənkəranın ayrı-ayrı kəndlərində istehlak cəmiyyətlərinin sədri, rayon maliyyə şöbəsində inspektor, cənub bölgəsində dəmir yolu restoranlar birliyinin sədri vəzifələrində çalışıb. Dövlətçiliyə və xalqına sədaqətlə xidmət edən Kamal müəllim 1992-ci ildə təqaüdə çıxıb. YAP üzvüdür, uzun müddət rayon Ağdaqqallar şurasına rəhbərlik edib.

Məni onunla jurnalist həmkarlarım Ağaddin Babayev və Sərraf Talıb tanış ediblər. Birlikdə dəfələrlə ətirli Lənkəran çayı içmişik. Sonra tez-tez şəhər tədbirlərində görüşmüşük. Mənim də artıq nəvələrim olduğunu biləndə dediyi sözləri bu gün də təbəssümlə xatırlayıram: "Sən də babasan, – dedi. – Onda gərək mənə babaların babası deyəsən, çünki sən ailə quranda mən artıq baba idim".

Bir dəfə Kamal Kələntərlini "Yeddi oğul istərəm" filmindəki Kələntər dayıya bənzətmişdim. İnciməmiş və qayıdıb demişdi ki, ad və zahiri görünüş öz yerində, amma mən elə də qəddar deyiləm ki, "Ürəyimi nişan al, Kələntər dayı, ağrıdır, axı" – desinlər...

Kamal babanın 100 yaşı tamam olanda icra hakimiyyətinin başçısı Taleh Qaraşov müavinləri ilə birlikdə onu evində zəyarət edib, xoş arzularını çatdırıb. Həmin gün yubiley tortu kəsilib, ona fəxri fərman və qiymətli hədiyyə təqdim edilib. Ölkənin hər yerindən təbriklər alan el ağsaqqalı dostlarının onu unutmadığından xeyli məmnun olub.

Bu yaxınlarda AMEA-nın Lənkəran Regional Elmi Mərkəzinin və Fiziologiya İnstitutunun əməkdaşları Kamal babaya baş çəkiblər. 10 ilə yaxındır ki, o, uzunömürlü kimi mütəmadi tədqiq olunur. Uzunömürlülüyün fiziologiyası laboratoriyasının aparıcı elmi işçisi, dosent Sevinc Hüseynova qeyd edib ki, uzunömürlünün fiziki göstəriciləri yaşına görə normaldır, əllərində tremor yoxdur, yaddaşı mükəmməl, nitqi səlisdir, arterial təzyiqi adətən normada olur. Yaxşı eşidir, lakin bir az zəif görür. Hərəkətlidir. Jurnalistlərin verdiyi suallara aydın və əhatəli cavabları ilə diqqəti cəlb edir.

Dünən Ağaddin Babayevə zəng vurub Kamal babanı soruşdum. Onunla əlaqə saxladıqdan sonra bildirdi ki, 102 yaşlı seçicinin əhvalı yaxşıdır. Özü də fevralın 7-də seçki məntəqəsinə gedərək bu xoş günlərə, işıqlı sabahlara səs verməkdə qərarlıdır. Onun dedikləri: "Həmin gün hava pis olsa və məntəqəyə gedə bilməsəm, xahiş edəcəyəm, seçki qutusunu evimə gətirsinlər. Başqa cür ola bilməz. Çünki mən 18 yaşımdan seçkilərdə fəal iştirak etmişəm. Bu vaxtadək 100 dəfədən artıq səsimi səslərə qatmışam, daim ictimai-siyasi fəallıq göstərmişəm, indi də seçkilərdən kənarda qala bilmərəm. Qalib Azərbaycana, Qarabağı 30 illik işğaldan qurtarmış, suverenliyini tam bərpa etmiş dövlətimizə sidq-ürəklə səs verəcəyəm. Sağlıq olsun, 7 fevralda görüşərik".

Sağlıq olsun, Kamal baba! Sizin bu yaşda da ictimai-siyasi fəallıq göstərməyiniz gənclər üçün əsl örnəkdir!

***Əli NƏCƏFXANLI***
***XQ***

Bölgə teatrları

# Gəncə səhnəsinin sənət fədaisi

**Hər dəfə böyük sənət məbədlərindən və yaradıcı şəxslərindən söz düşəndə Gəncə Dövlət Dram Teatrı ilə burada çalışmış rejissor, Əməkdar incəsənət xadimi Yusif Bağırov da xatırlanır. Bu günlərdə 100 yaşı tamam olan Yusif Bağırov Bakıda doğulsa da, həyat və yaradıcılığı əsasən Gəncə ilə bağlı olub.**



İkinci Dünya müharibəsi başlananda Bakı Teatr Texnikumunun 18 yaşlı tələbəsi Yusif də cəbhəyə yollanıb. 1945-ci ildə ordu sıralarından qayıdaraq təhsilini davam etdirib. Mehdi Məmmədov, Məhərrəm Haşımov və Aleksandr Tuqanov, Ağasadıq Gəraybəyli, Kazım Ziya kimi sənətkarlardan dərs alıb. İki il sonra texnikumu fərqlənmə diplomu ilə bitirərək Dövlət Teatr İnstitutunun (indiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti) rejissorluq fakültəsinə daxil olub və 1952-ci ildə bitirib. Mir Cəlal Paşayevin "Dirilən adam" əsərini diplom işi kimi tamaşaya hazırlayaraq uğurlu debütünə imza atıb.



Ali təhsilini başa vurduqdan sonra isə ömrünü-gününü Gəncə Dövlət Dram Teatrına bağlayan Yusif Bağırov 1952–1956-cı illərdə orada quruluşçu rejssor, 1966–1995-ci illərdə isə baş rejissor kimi fəaliyyət göstərib. Aradakı 10 ildə isə "Azərbaycanfilm" kinostudiyasında çalışıb. Burada "Koroğlu", "Kölgələr sürünür", "Əhməd haradadır?", "Mən rəqs edəçəyəm" bədii filmlərinin 2-ci rejissoru olub, 100-dən artıq filmi Azərbaycan dilinə dublyaj edib. 1959-cu ildə Xalq artisti Şəmsi Bədəlbəyli ilə birlikdə Fikrət Əmirovun "Gözün aydın" əsərini Azərbaycan Dövlət Musiqili Komediya Teatrının səhnəsində tamaşaya hazırlaması da onun yaradıcılıq karyerasının yaddaqalan səhifəsini təşkil edib. Sonra bir müddət İncəsənət İnstitutunda aktyor sənətindən dərs deyib.

Yusif Bağırov Gəncə Dövlət Dram Teatrında 33 illik fəaliyyəti dövründə bir-birindən maraqlı, orijinal səhnə traktofkası ilə realist rejissor məktəbinin ən layiqli nümunələrini yaradıb. Onun bu teatrın səhnəsində "Dağlarda", "Fərhad və Şirin", "Yağışdan çıxdıq, yağmura düşdük", "Atayevlər ailəsi", "Unuda bilmirəm", "Mənim günahım", "Çiçəkli dağ", "Sənsiz", "Bəxtsiz cavan", "Almaz", "Oqtay Eloğlu" və "1905-ci ildə", "Ulduzlar görüşəndə", "Quduz pullar", "Otello", "Anacan", "Buhenvald harayı", "Odlu illər", "Küləklər", "İki qardaş", "Uzaq sahillərdə", "Odu atma, Prometey!", "İtkin gəlin", "Cavan qadına yaraşan kişi", "72-ci kamera", "Vicdan məhkəməsi", "Astana", "Məhəbbət və xəyanət", "Dəmir pərdə", "Ölüm hökmü", "Şərqin səhəri", "Dairəni genişləndirin", "İnqilabi etüd" və səhnə həyatı bəxş etdiyi başqa tamaşalar buna misal ola bilər. Azərbaycan Teatrında ilk dəfə məhz Gəncə Dövlət Dram Teatrında qədim yunan dramaturgiyasına müraciət edən rejissor da məhz Yusif Bağırov olub. "Medeya" və "Antiqona" faciələrini uğurla səhnələşdirib. Xalq artisti Mehdi Məmmədov həmin tamaşaları yüksək qiymətləndirib. Həqiqətən də, Yusif Bağırovun quruluşunda bu əsərlər Gəncə teatrının səhnəsinə bir möhtəşəmlik, monumentallıq gətirib.

Görkəmli rejissor fəaliyyəti dövründə Gəncə Dövlət Dram Teatrında gənc aktyor nəslinin yetişməsində, onların inkişafında əvəzsiz xidmətlər göstərib. Xalq artistləri Pərvanə Qurbanovanın, Alim Məmmədovun, Əməkdar artistlər Qurban Abbasovun, Faiq Qasımovun, Əli Allahverdiyevin, Əlican Əzizovun, Telman Əliyevin, aktrisalardan Elmira Əhmədovanın, Füzulət Rzayevanın bu teatrın səhnəsində parlamasında Yusif Bağırovun bir bədii rəhbər, baş rejissor kimi xidmətləri danılmazdır.

Yusif Bağırov 30 il əvvəl vəfat etsə də, yaddaşlarda, xatirələrdə yaşayır.

***Anar Ərtoğrul BURCƏLİYEV,***
***teatrşünas-tənqidçi***

# Seçki hüququnun elmi tədqiqi

## Elektron səsvermə

***Hüquq və İnsan Haqları İnstitutunun "Elektron səsvermə: konseptual, hüquqi və praktiki aspektlər" adlı yeni tədqiqat işi çapdan çıxıb. Kitab İnstitutun əməkdaşları İ.Əliyev, G.Ələsgərova, N.İbrahimli, G.Abasova və A.Ariflinin həmmüəllifliyi ilə ərsəyə gəlib.***

Tədqiqat işi seçki hüququnun həyata keçirilməsini təmin edən seçki prosesinin əsas xüsusiyyətlərinin, problemlərinin, bu proseslə bağlı uğurlu təcrübələrin və inkişaf perspektivlərinin müasir texnoloji tərəqqi kontekstində hüquqi təhlilinə həsr edilib. Kitabda seçkilərin nəzəri və hüquqi məsələləri, o cümlədən elektron səsvermədən istifadə etməklə seçki prosesinin həyata keçirilməsinin praktiki və problemli aspektləri tədqiq edilərək gərəkli tövsiyələr verilib.




Nəşr 90 səhifəlikdir və seçki prosesinin iştirakçıları, hüquqşünaslar, alimlər, tələbələr, eləcə də seçkilərlə maraqlanan geniş oxucu kütləsi üçün nəzərdə tutulub.




## İnsan hüquqları

***"Silahlı münaqişələr zamanı və münaqişədən sonrakı vəziyyətlərdə insan hüquqlarının müdafiəsi: beynəlxalq-hüquqi aspekt" adlı kitab (rus dilində) da həmin institutun məhsuludur.***

Üzeyir Məmmədovla Turqay Hüseynovun redaktorluğu ilə nəşr olunan vəsaitdə beynəlxalq insan hüquqları və beynəlxalq humanitar hüququn ümumi məsələləri, silahlı münaqişələr zamanı ayrı-ayrı insan hüquq və azadlıqlarının müdafiəsi, eləcə də münaqişədən sonrakı dövrdə onların bərpası və həyata keçirilməsi xüsusiyyətləri araşdırılıb. Bu tədqiqat işində beynəlxalq-hüquqi sənədlərdən, universal və regional səviyyəli məhkəmə və kvaziməhkəmə orqanlarının praktikasından və presedentlərindən, habelə doktrinadan geniş istifadə edilib.

İnsan hüquqları üzrə magistr təhsili alan tələbələr üçün nəzərdə tutulan nəşrdən universitetlərin tələbə, doktorant və müəllimləri, hərbi və ya hüquq-mühafizə təhsili müəssisələrinin kursant və müdavimləri də istifadə edə bilərlər.

***Qabil YUSİFOĞLU***
***XQ***

BEYNƏLXALQ HƏYAT

# “Bayden odla oynayır...”

## Ağ evin husiləri “terrorçu” adlandırması belə qiymətləndirilir

**Bayden adminstrasiyasının yanvarın 17-də husiləri yenidən qlobal terrorçular siyahısına qaytarması siyasi dairələrdə geniş müzakirə olunmaqdadır. “Al Jazeera” (“Əl Cəzirə”) yazır ki, ABŞ-ın bu addımı münaqişəni daha da dərinləşdirə bilər. Amma bu, təkcə “Al Jazeera”-nin gəldiyi qənaət deyil.**



Əslində 3 il əvvəl Bayden özü prezidentlik fəaliyyətinə başlayandan bir ay sonra, 2021-ci ilin yanvarında siyasi xələfi Donald Trampın Yəmən üsyançılarını daxil etdiyi “terrorçu” siyahısından çıxarmışdı. O zaman dövlət katibi Entoni Blinken bunu “Yəməndəki ağır humanitar vəziyyətin tanınması” ilə bağlı olan bir addım kimi təqdim etmişdi.

Bundan düz 3 il sonra Bayden adminstrasiyası yenidən bu adı husilərə “qaytarır” və onları Qırmızı dənizdə ticarət gəmilərinə hücum etdikləri üçün “xüsusi təyinatlı qlobal terrorçular” (SDGT) adlandırır. İnsan hüquqlarının müdafiəçiləri və siyasi analitiklər bunun dinc yəmənlilər üçün neqativ nəticələr verəcəyi haqqında həyəcan təbili çalırlar. Çoxları əmin deyillər ki, Baydenin atdığı bu addım husiləri hücumlarını dayandırmağa məcbur edə bilər.

Vaşinqtondakı Ərəb Mərkəzinin elmi əməkdaşı, “Human Rights Watch”un Yəmən üzrə tədqiqatçısı işləmiş Afra Nəsir “Al Jazeera”ya müsahibəsində bildirib ki, “mən bu qərarın Yəmənin sadə insanları üçün dağıdıcı nəticələrindən çox narahatam. Husilərin terrorçular siyahısına salınması üsyançılarla, Səudiyyə Ərəbistanı və Birləşmiş Ərəb Əmirlikləri başda olmaqla, koalisiya qüvvələri arasında uzun illər müharibənin getdiyi yoxsul Yəməndə humanitar böhranı daha da dərinləşdirəcək”.

BMT-nin məlumatına görə, bu gün Yəmən əhalisinin yarısının – 18,2 milyon insanın yardıma ehtiyacı var. Ölkə ciddi iqtisadi böhran yaşayır, insanların xərcləri artır, bununla yanaşı, əhalinin kütləvi yerdəyişməsi və aclıq baş alıb gedir.

Afra Nəsir deyir: “Bu gün sadə yəmənli ailələr husilərin daxili siyasətindən əzab çəkdikləri kimi, husiləri terrorçu elan edən ABŞ-ın Yəmənə yanlış münasibəti siyasətindən də əziyyət çəkirlər”.

ABŞ-ın Milli Təhlükəsizlik Şurasının nümayəndəsi Con Kirbi mətbuat konfransında bildirib ki, bu gün terrorçu statusu üsyançı husilərə istiqamətlənib, Yəmən xalqına yox. Jurnalistlərin bununla bağlı istənilən sanksiya husilərlə danışıqlara təsir edəcəkmi, sualını isə Kirbi qəti şəkildə belə cavablandırıb: “Heç bir danışıq yoxdur. Bu, müzakirə mövzusu deyil. Bu, husiləri məsuliyyətə cəlb etməkdir”.

Ağ evin sözügedən qərarından bir neçə saat sonra husilər Aden körfəsindəki Amerika gəmilərinə raket zərbələri endiriblər. ABŞ Silahlı Qüvvələrinin Mərkəzi Komandanlığı məlumat verib ki, Birləşmiş Ştatlara məxsus “Genco Picardy” gəmisinə endirilən zərbədən heyət xəsarət almasa da, gəmi zədələnib.

ABŞ-ın Yəməndəki keçmiş missiyasının rəhbəri Nabil Huri də adminstrasiyanın bu qərarının təsirli olacağına şübhə ilə yanaşır. O deyir: “Düşünmürəm ki, bu qərar üstündə elə də ciddi düşünülüb. SDGT adının verilməsi daha çox təhqirə bənzəyir. Bu köhnə vaxtlarda kimi, rəqibin sifətinə əlcək atılması kimi təhqiramiz bir şeydir”.

Baş vermiş son hadisələr verilən proqnozları təsdiq edir. Yanvarın 22-dən 23-nə keçən gecə ABŞ və Böyük Britaniyanın hərbi təyyarələri yenidən Yəmənin “Ənsər Allah” (husilər) üsyançı hərəkatının mövqelərinə zərbələr endiriblər.

Vaşinqton və London bəyan edib ki, husilərin bütün hədəflərinə “əlavə silsilə adekvat və zəruri zərbələr” endirilib. Avstraliya, Bəhreyn, Kanada və Hollandiya əməliyyatın həyata keçirilməsini dəstəkləyiblər. Yəmənin ərazisinə “zəruri” və “proporsional” zərbələrin endirilməsini kim müəyyənləşdirib, bu haqda bir söz belə deyilmir. Əməliyyatların göstərilən ölkələr tərəfindən dəstəklənməsinə gəldikdə isə, aydın məsələdir ki, bu, ABŞ–İngiltərə hərbi əməliyyatlarına beynəlxalq hüquqi don geyindirmək cəhdindən başqa bir şey deyildir.

Britaniyanın “The Guardian” nəşrinin xəbər verdiyi kimi, yanvarın 23-də ilk saatlarda husilərin mövqelərinə 25-30 raket və bomba zərbəsi endirilmişdir ki, bu da ilk dəfə endirilən hava zərbələri dalğasından 2-3 dəfə azdır. Qarşı tərəfin verdiyi məlumata görə, həmin hava zərbələrindən husilərin hərbi infrastrukturuna ciddi zərər dəyməyib. “Ənsər Allah” hərəkatı isə qanadlı raketlər və pilotsuz uçuş aparatları ilə Qərbin gəmiçilik şirkətlərinə məxsus konteyner daşıyan tankerlərini atəşə tutaraq bununla Qəzza sektorundakı fələstinliləri dəstəklədiklərini nümayiş etdiriblər.

Xəbər verilir ki, ABŞ və Britaniyanın Yəmənin Husi hərəkatına qarşı həyata keçirdiyi son hücumlar zamanı təyyarələrdən, həmçinin hərbi gəmilərdən buraxılan “Tomaqavk” qanadlı raketlərdən istifadə edilib. Bununla belə, keçən dəfə olduğu kimi, bu dəfə də İngiltərənin 4 “Tayfun” qırıcı təyyarəsi Britaniyanın Kiprdəki “Akrotiri” bazasından səmaya qalxaraq hərbi uçuşlar həyata keçirib. Amerikalılar isə regionda yerləşdirdikləri “Duayt Eyzenhauer” avasiya daşıyan gəmisi başda olmaqla, zərbə qrupunu işə salmışlar.

“Ənsər Allah” hərəkatının nümayəndəsi Məhəmməd əl-Buhayti bəyan edib ki, şiə hərəkatı Qərbin maraqları üçün çalışan kommersiya gəmilərinə, həmçinin ABŞ-ın, Britaniyanın və onların müttəfiqlərinin hərbi gəmilərinə hücumları davam etdirəcək. “Amerika–Britaniya təcavüzü Yəmən xalqının zülmə məruz qalan Qəzzaya görə mənəvi və humanitar öhdəliklərini yerinə yetirmək naminə nümayiş etdirdiyi qətiyyəti daha da gücləndirir. Bu gün Yəmənlə ABŞ-Britaniya koalisiyası arasında müharibə gedir”, – deyə əl Buhayti bəyan edib.

“The Washington Post” qəzeti isə yazır ki, ABŞ Prezidenti Co Bayden adminstrasiyasının atdığı səhv addım husilərlə münaqişənin “uzunmüddətli hərbi kampaniyaya çevrilmək” riskini artırır və bu da Baydenin Rusiya və Çinə fokuslanan ABŞ xarici siyasətini çətinləşdirə bilər”.

Qəzet, həmçinin göstərir ki, Amerikanın husilərlə münaqişəsi bu yaxınlara qədər Yəmən ərazisinin əhəmiyyətli hissəsini cəsarətlə öz nəzarətinə alan və Səudiyyə Ərəbistanı ilə uzun sürən müharibəyə davam gətirən üsyançı “Ənsər Allah” hərəkatının nüfuzunu daha da gücləndirəcək.

Şərhçilər, hətta husilərə qarşı hərbi kampaniyada amerikalıların təsdiqini tapmış ilk itkilərinə işarə edərək göstərirlər ki, Vaşinqton bu yaxınlarda özünün iki hərbçisini – “dəniz pişiyi”ni itirib. Onlar dənizdə Yəmən üçün göndərilən silahları ələ keçirməyə cəhd göstərərkən gəmidən suya düşmüş və boğulub ölmüşlər.

Baş verənlərdən belə bir qənaət hasil olur ki, Yaxın Şərqdə lokal münaqişələrin sonu hələ görünmür.

*Hazırladı:*
***İlqar RÜSTƏMOV***
***XQ***

İDMAN

### II YAZI

**2024-cü il ərzində Qubanın Azərbaycanın İdman Paytaxtı seçilməsi rayon sakinlərinin razılığına səbəb olub. Sevindirici haldır ki, digər bölgələrimiz kimi, bu gözəl diyarda da idmana maraq böyükdür. Bu yazıda, əsasən, rayonun kəndlərində idmanın inkişafından söhbət açacağıq.**

# Bu il idman həyatımız Qubadan yön alacaq



Rayonda ən gözəl məkanlardan biri – Vəlvələçayın sahilində yerləşən eyni adlı kənddəki kikboksinq zalında gələcəyin döyüş ustaları yetişir. Zalda məşqi əslən Talabıqışlaq kəndindən olan Murad Səlimov keçir. O, əvvəllər kənddə idmanla məşğul olmaq üçün şərait olmadığından Quba rayonunun mərkəzində Əməkdar məşqçi, kikboksinq üzrə Azərbaycan millisinin böyük məşqçisi Telman Məhərrəmovun rəhbərliyi altında kikboksinqlə məşğul olub, nailiyyətlər qazanıb. M.Səlimov idmanın muay-tay növü üzrə klublar arasında keçirilən Avrasiya çempionudur. Hazırda kikboksinqin K1 versiyası üzrə peşəkar döyüşlərdə iştirak edir. Aktivində 2 qalibiyyət, 2 məğlubiyyət, 1 nokaut var. 27 yaşlı gənc artıq yetirmələrinin uğurları ilə fəxr edə bilər. Onlardan Elton Bağırov, Nicat Azadov Azərbaycan çempionları, Sənan Mirzəyev “Baku Open” və ölkə çempionatının mükafatçısıdır.

Telman Məhərrəmovla da görüşmək fürsəti qazanırıq.

Murad Səlimov kimi çoxlu yetirmələri olan T.Məhərrəmov, həm də bu idman növü üzrə Şimal bölməsinin rəhbəridir. Onun yetirmələrindən yeniyetmələr arasında dünya, gənclərin Avropa çempionu Murad Gəncəliyev, yeniyetmələr arasında qitə çempionatının mükafatçıları Emil Gəncəliyev, Elton Hacıyev, kişilər arasında dünya, gənclərin Avropa çempionatlarının mükafatçısı Allahverdi Dəmirov və digərlərinin adları böyük qürurla çəkilir. Telman müəllim bu gənclərin bəzilərinin 10 kilometrlərlə yol qət edərək məşqlərə gəldiyini deyir.

Onlardan Əliməmmədoba kəndindən olan Murad Gəncəliyevlə söhbətləşirik. Kənddə 11-ci sinifdə təhsil alan Murad İtaliyada 2022-ci ildə yeniyetmələr arasında keçirilən dünya çempionatında qızıl medal qazandıqdan 1 il sonra Türkiyədə, Avropa çempionatında gənclər arasında çempion olub. Həmin il qardaşı Emil isə yeniyetmələrin yarışında gümüş mükafatçı olub. Murad deyir ki, kəndlərində yalnız cüdo zalı fəaliyyət göstərir. Digər idman növləri ilə məşğul olmaq istəyən uşaqlar bunun üçün xeyli uzaq yol qət etməli olurlar.

Qubada daha bir idman növü üzrə mütəxəssislə tanış oluruq. “Quba” Taekvondo Klubunun direktoru, Quba rayon OEUGİŞM-in baş təlimatçısı, Əməkdar məşqçi Elşən Vəlibəyov taekvondonun Qubada 1992-ci ildən uğurla inkişaf etdiyini bildirdi. Özü və QRİOEUGİŞM baş məşqçisi kimi çalışan qardaşı Tural Vəlibəyov uzun illərdir ki, bu bölgədə məşqçi və mütəxəssis kimi saysız-hesabsız idmançı yetişdiriblər.

**Elşən Vəlibəyov deyir:**

– Klubumuz mərkəzdə yerləşsə də, Alekseyevka və Qaraçay kəndlərində də bölmələri var. Təkcə ötən il Gülşən Aydayeva, Məryəm Cəfərova, Əlmurad Rzayev, Humay Dadaşov, Səyyad Dadaşov Azərbaycan çempionatının qalib və mükafatçıları olublar. Tural Vəlibəyovun yetirməsi Səyyad Dadaşov həm də Avropa çempionudur.

Qubalı uşaqlar şahmata da maraq göstərirlər. Quba rayon İOEUGİŞM-in məşqçi-müəllimi, məktəblilər arasında dünya çempionu Şəhriyar İsgəndərov həm də Olimpiya Kompleksində uşaqlara bu intellektual idman növünün sirlərini öyrədir. O qeyd edir ki, 5-6 yaşdan başlayaraq həm qızlar, həm də oğlanlar həvəslə məşqlərə yazılırlar.

**Qubanın Birinci Nügədi, eləcə də Əlməmmədoba kəndlərində cüdo zalları fəaliyyət göstərir. Məşqçi-müəllim Vaqif İsmayılovun dediyinə görə, idman qurğularında kənd uşaqları böyük həvəslə məşğul olurlar:**

– Quba OİK ilə yanaşı, hər iki kənddə uşaq və yeniyetmələrə cüdonun sirlərini öyrədirəm. Sevindirici haldır ki, oğlanlarla yanaşı, qızlar da cüdoya maraq göstərirlər və məşqlərə həvəslə gəlirlər. Yetirmələrim ölkədaxili yarışlarda, eləcə də beynəlxalq turnirlərdə uğurlar qazanırlar.

Vaqif İsmayılov Beynəlxalq Cüdo Federasiyasının Akademiyasında təhsil alaraq biliklərini daha da zənginləşdirdiyini deyir.

Quba kəndlərində belə zalların fəaliyyəti çox vacibdir. Uşaqlar burada həm idmanla məşğul olaraq möhkəmlənir, həm də asudə vaxtlarını səmərəli keçirirlər.

Qubanın idman həyatından söz düşmüşkən güləş, gimnastika, ağırlıqqaldırma, boks, sambo, üzgüçülük və digər növlər üzrə uğurları da unutmaq olmaz. Bu il həmin nailiyyətlərin daha da artacağına heç bir şübhə yoxdur. Çünki bunun üçün potensial da var, zəmin də...

**P.S.** Qubaya səfərimizi planlaşdırarkən havanın soyuq və qarlı olacağından xəbərdar idik. Amma ilin bütün fəsillərində heyrətamiz və sirli təbiəti ilə insanı məftun edən bu bölgənin füsunkar gözəlliyi ilə qışda daha da cazibədar göründüyünü kim bilmir ki... Əminik ki, turizm mərkəzlərindən biri kimi məşhur olan Quba, həm də idman bölgəsi kimi də şöhrət qazanacaq.

***Leyla QURBANOVA***
***XQ***

***Bakı–Quba–Bakı***

Futbol tariximizdən

# Dostlar ona, sadəcə, Çançal deyirdilər...

**Ötən ilin payızında 4 respublikanın – Azərbaycan, Ukrayna, Tacikistan və Moldovanın Əməkdar məşqçisi olmuş, baş məşqçi kimi 1966-cı ildə “Neftçi”yə, 1974-də isə “Çernomorets”ə (Odessa) SSRİ çempionatının bürünc medallarını qazandırmış mərhum futbol mütəxəssisimiz Əhməd Ələsgərov haqqında qələmə aldığımız yazıda nə vaxtsa haradasa oxuduğum iki misranı da xatırlamışdıq:**



**Elə ki, işlər azacıq bəd gəlir,**
**Dostların imdadına Əhməd gəlir.**

İndi ötən əsrin 60–70-ci illərinin “Neftçi” komandası futbolçularından daha ikisi haqqında deyilmiş misralar da yadıma düşür:

**Elə ki, şəstlə Tuayev gəlir,**
**Sanki, topun üstünə bir dev gəlir.**

Təxminən, bir il əvvəl “Xalq qəzeti” məşhur hücumçu haqqında da oxucularının diqqətinə kifayət qədər geniş həcmli yazı çatdırmışdı. Ancaq bu iki misrasız. Deməli, indi həmin boşluğu doldurmuş olduq.

Azərbaycanın yaşlı futbol pərəstişkarları Robert Çançaleyşvilini də unutmayıblar. “Neftçi”nin müdafiə xəttinin sol cinahında oynayırdı. Tofiq Axundov, Adil və Yaşar Babayevlər, Vyaçeslav Semiqlazov, Ravil Cəlilov, İvan Morqunovla birlikdə qapımızın toxunulmazlığı üçün əlindən gələni edirdi. Fədakar oyunu ilə azarkeşlərin sevimlisinə çevrilmişdi. Haqqında onların dilindən səslənən

**“Dostlar ona, sadəcə Çançal deyir,**
**Ləngimə Robert, topu qaç al deyir…”**

misraları da elə-belə, təsadüfən meydana gəlməmişdi. Futbol pərəstişkarlarımızın nəvazişlə “Çançal” deyə çağırdıqları “4 nömrə” meydanda öz işini yorulmadan, səylə yerinə yetirirdi.

Həmin iki misraya söykənib, yazı hazırlamaq fikrinə düşdükdə, statistikaya müraciət etmək də pis olmazdı. Ruhu şad olsun, yenə köməyimə mərhum həmkarım Abbas Əzimovun 2007-ci ildə nəşr etdirdiyi “Neftçi”-70 kitabı gəldi. Klubun 70 illiyinə həsr edilmiş kitabdan məlum olur ki, R. Çançaleyşvili beş mövsüm ərzində – 1960–1964-cü illərdə SSRİ çempionatlarında komandamızın şərəfini qorumuşdur. O, üst-üstə 101 oyunun iştirakçısı olmuş və 1 qol da vurmuşdur.

Bu qol 1960-cı il sentyabrın 11-də, 22-ci SSRİ çempionatında o zaman hələ İ.V. Stalinin adını daşıyan Respublika stadionunda qeydə alınmışdır. “Neftçi” –“Moldova” (Kişinyov) görüşünün 45-ci dəqiqəsində Çançaleyşvili hesabı açmış, fasilədən sonra isə qonaqlar cavab topu vurmuşdular. Nəticədə, kuybışevli (indi samaralı) hakim N. Krılov 90 dəqiqənin tamamında 1:1 hesabı qeydə almış və rəqiblər meydandan eyni əhvalla ayrılmışlar, onlarda sevinc və məyusluq hissləri qonşuluq etmişdir.

Statistika onu da göstərir ki, R. Çançaleyşvili SSRİ çempionatlarında 1960-cı ildə 21, sonrakı 4 ildə müvafiq surətdə 29, 22, 12 və 17 görüşdə meydana çıxmışdır.

Müəllifi məlum olmayan foto isə 1960-cı il iyunun 2-də keçirilmiş “Neftçi”–“Dinamo” (Kiyev) görüşündə lentə alınmışdır. R. Çançaleyşvili (solda) qonaqların hücumunun qarşısını almağa çalışır.

***Oqtay BAYRAMOV,***
***Əməkdar jurnalist***

“Rabitəbank” ASC
səhmdarlarının nəzərinə!

“Rabitəbank” ASC müşahidə şurasının 22 yanvar 2024-cü il 7 nömrəli qərarına əsasən, 2024-cü il martın 12-si saat 17.00-da bankın səhmdarlarının növbəti ümumi yığıncağı keçiriləcəkdir.

**Yığıncağın gündəliyi:**

1. Bankın 2023-cü maliyyə ili üzrə balansının, mənfəət və zərər haqqında hesabatının təsdiqi.
2. Bankın audit komitəsinin hesabatının təsdiqi.
3. Yaradılması və tərkibinin dəyişdirilməsinə aid qərarvermə səlahiyyəti müşahidə şurasına həvalə edilmiş idarətmə orqanları istisna olmaqla, bankın digər idarəetmə orqanlarının tərkiblərinin və əsasnamələrini yeni redaksiyada təsdiq edilmiş “Banklarda Korporativ İdarəetmə Standartları”-nın tələblərinə uyğun olaraq təsdiqi.
4. Bankın səhmdarlarına dividendlərin ödənilməsi.
5. Bankın üst rəhbər heyətinə illik bonusların ödənilməsi.
6. Təşkilati və cari məsələlər.

Yığıncağın keçiriləcəyi ünvan- Bakı şəhəri, 28 May küçəsi 33.

“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi”
Qapalı Səhmdar Cəmiyyəti

Zəncirlər və birləşdirici bəndlərin satın alınması məqsədilə
MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2024-cü il yanvarın 30-u saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu- (012) 404-37-00, daxili: 1132.

Ünvan- Bakı, Mikayıl Useynov küçəsi 2.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 14 (30418) 24 yanvar 2024-cü il, çərşənbə

# Basketbolçularımızın təsnifat rəqibləri

**Basketbol üzrə qadınlardan ibarət 3x3 Azərbaycan millisinin Paris Yay Olimpiya Oyunlarının təsnifat mərhələsindəki rəqibləri bəlli olub.**



Aprelin 12-14-də keçiriləcək oyunlarda yığmamız B qrupunda Niderland, Monqolustan və Çili komandaları ilə üz-üzə gələcək. Honkonqda keçiriləcək qrup görüşlərində ilk iki pilləni tutan komandalar təsnifat mərhələsinin yarımfinalına vəsiqə qazanacaqlar.

İkinci təsnifat oyunları isə mayın 16-19-da Macarıstanın Debretsen şəhərində baş tutacaq. A qrupunda yer alan milli Almaniya, Polşa və Tunis seçmələri ilə qarşılaşacaq.

Qeyd edək ki, 16 komandanın iştirak etdiyi ikinci təsnifatda ilk iki yeri tutan komandalar 1/4 finala vəsiqə qazanacaqlar.

# U-21 futbolçularımız "Azersun Arena"da oynayacaqlar

**Avropa çempionatının seçmə mərhələsində Azərbaycan yığmasının keçirəcəyi oyunların stadionları bəlli olub.**

21 yaşadək futbolçulardan ibarət komandalar arasında mart ayında keçiriləcək hər iki görüş "Azersun Arena"da olacaq.

U-21 martın 22-də İngiltərə, 26-da isə Ukrayna komandaları ilə üz-üzə gələcək.

# Cüdo məşqçilərinin seminar-imtahanı

**Azərbaycan Cüdo Federasiyası Dan dərəcələri üzrə ilk dəfə seminar və imtahan təşkil edib.**



Türkiyə Cüdo Federasiyasının təhsil direktoru, Avropa Cüdo Birliyinin Kata Komissiyasının üzvü Mehmet Yılmaz tərəfindən aparılan seminarda məqsəd Dan sisteminə uyğun olaraq məşqçilərin bacarıqlarını qiymətləndirmək və müəyyən etməkdir.

Seminar-imtahanı uğurla başa vuran iştirakçılara müvafiq Dan dərəcəsi üzrə bilik və bacarıqlarını təsdiq edən sertifikat veriləcək.

Qeyd edək ki, imtahana 50 cüdo məşqçisi qatılıb. Tədbir yanvarın 24-dək davam edəcək.

*Leyla SABİRQIZI*
XQ


# OXUCULARIN NƏZƏRİNƏ!

## "Xalq qəzeti"

## *2024-cü il üçün abunə yazılışı kampaniyasını davam etdirir!*

**Abunə respublikanın bütün poçt şöbələri və mətbuat yayımı ilə məşğul olan firmalar tərəfindən aparılır.**

**Qəzetə abunə yazılmaq üçün aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət etmək olar.**

1. "Azərmətbuatyayımı" ASC (012)-440-16-26.
2. "Azərpoçt" MMC (012)-598-49-55, (051)-225-02-13.
3. "Qaya" firması (012)-566-77-80, (050)-214-40-53.
4. "SƏMA-M" MMC (012)-594-02-52, (050)-333-69-69.
5. "ZİYA" LTD (012)-497-76-96, (050)-306-77-44.
6. "PRESSİNFORM" MMC (012)-598-49-52, (050)-456-08-35.


Qarabağ Azərbaycandır!
Xalq qəzeti
Varislik ənənəsində Qələbə ovqatı
Liderə xalqa söykənəndə

1 illik – 187.20 (yüz səksən yeddi manat iyirmi qəpik) manat.
6 aylıq – 93.60 (doxsan üç manat altmış qəpik) manat.
3 aylıq – 46.80 (qırx altı manat iyirmi qəpik) manat.

**Hörmətli abunəçilər!**
*Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız, (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.*

**Hörmətli oxucular!**
**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


Muzeylərimiz

# Uşaqların "Qədim Misir"ə bilik səyahəti



***Mədəniyyət Nazirliyi və Azərbaycan Milli İncəsənət Muzeyinin birgə təşkilatçılığı ilə ərsəyə gətirilən "Uşaqların üçün incəsənət tarixi" adlı layihə davam edir.***

Layihənin ikinci proqramı dünyanın ən zəngin sivilizasiyalarından biri olan Misirə həsr olunub.

"Qədim Misir incəsənəti" proqramında misirlilərin mifoloji dünyagörüşü, dəfn mərasimi, təsviri sənətdə mövcud olan kanonlar, Sfinks heykəli, Giza piramidaları – Xeops, Xefren, Mikerin, Luksor və Karnak məbədlərindən bəhs edən mühazirə keçirilib.

Daha sonra ustad dərslərində papirusun hazırlanma üsulu və üzərində piktoqrafik yazıların işlənmə qaydaları öyrədilib. Maarifləndirici viktorina, əyləncəli kvest oyunu uşaqların həftəsonu proqramını daha da yaddaqalan edib.

**XQ**

# "Boney M"in qurucusu əbədiyyətə qovuşdu

**Dünyaca məşhur musiqiçi, bəstəkar, əfsanəvi "Boney M" qrupunun qurucusu Frank Farian 83 yaşında vəfat edib. Xarici medianın məlumatına görə, o, Mayamidəki evində dünyasını dəyişib.**



Xatırladaq ki, bəstəkar 1961-ci ildə öz musiqi qrupunu yaradıb və onunla yerli restoranlarda, rəqs klublarında çıxış edib. Frankın şöhrət bioqrafiyası 1964-cü ildə Hamburqda beynəlxalq rok festivalında uğurlu iştirakından başlanıb. O, 1968-ci ildə solo karyerasına start verib. 1970-ci illərin ortalarından isə F.Farian pop musiqiyə daha çox diqqət yetirib. Onun əsl populyarlığı da bundan sonra başlanıb.

Frank "Rasputin" və "Daddy Cool" kimi, "Boney M" qrupunun da hitlərinin müəllifidir. Bundan əlavə, o,"Farian", "Eruption", "Precious Wilson", "Far Corporation", "Milli Vanilli", "La Bouche" daxil olmaqla bir neçə başqa pop layihələrini də gerçəkləşdirib.

Frank 2022-ci ildə ürək əməliyyatı keçirmişdi. Ona donuz ürəyinin klapanı qoyulmuşdu. Onun ölüm səbəbi açıqlanmayıb.

Frankın qurucusu olduğu "Boney M" qrupu ona dünya şöhrəti qazandırmışdı. Ötən əsrin 70–80-ci illərində rok, pop kimi musiqilərə keçmiş SSRİ-də bayağı sənət damğası vurularaq məhdudlaşdırılsa da, Frankın əfsunedici hitləri və "Boney M"in coşğulu çıxışları ölkənin hər yerində yayılır və sevilirdi.

**XQ**

# "Oskar" namizədləri açıqlanıb

**Dünən 2024-cü ilin "Oskar" mükafatına namizəd filmlərin və sənətçilərin adları açıqlanıb. Ən yüksək nominasiya "Oppenheimer" filminə məxsusdur. Ekran əsəri "Oskar"a 13 nominasiyada namizəddir. "Poor Things" filmi 11, "Killers of the Flower Moon" isə 10 nominasiya ilə 2-ci və 3-cü olub.**

Namizədlər aşağıdakı kateqoriyalar üzrə qruplaşdırılıb. Ən yaxşı film nominasiyası üzrə10 filmin, ən yaxşı rejissor, ən yaxşı aktyor nominasiyalarının hər birində 5 sənətçinin, ən yaxşı xarici film nominasiyasında isə 4 filmin namizədliyi irəli sürülüb.

Xatırladaq ki, builki "Oskar" mükafatları martın 10-da Los-Ancelesdəki "Dolby Theatre"da təqdim olunacaq.

**XQ**

Hava

***Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, yanvarın 24-də Bakıda və Abşeron yarımadasında arabir sulu qar, qar yağacağı gözlənilir. Gecə və səhər yarımadanın bəzi yerlərində intensiv olacağı ehtimalı var. Axşam tədricən kəsiləcək.***




Mülayim şimal-qərb küləyi əsəcək, arabir güclənəcək. Gecə və gündüz 1° şaxtadan 2°-dək isti olacaq. Atmosfer təzyiqi normadan yuxarı 771 mm civə sütunu olacaq, nisbi rütubət 70-80 faiz olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Arabir duman olacaq. Şərq küləyi əsəcək, arabir güclənəcək. Havanın temperaturu gecə 2-6° şaxta, gündüz 2° şaxtadan 3°-dək isti, dağlarda gecə 12-17°, gündüz 5-10° şaxta olacaq. Gecə və səhər bəzi yolların buz bağlama ehtimalı var.

**Q.QASIMOV**
**XQ**

Dahilərin dostluğu



# N.Bor L.Landaunu necə xilas etmişdi?

**I yazı**

***"Facebook"da dostluğumda olan "Hikmət akademiyası" adlı sosial şəbəkə izləyicisi dahi danimarkalı fizik, kvant nəzəriyyəsinin yaradıcılarından biri, 1922-ci ildə fizika üzrə Nobel mükafatçısı Nils Borun (1885-1962) yüksək insani keyfiyyətləri barədə maraqlı paylaşım edib. Orada yazılır:***

"Nils Borun atası dövrünün görkəmli fiziklərindən olub. Nils hələ məktəbdə oxuyarkən atasının fizika və fəlsəfə üzrə dostları hər cümə axşamı Bor ailəsinin qonağı olardılar. Alimlər hər dəfə elm dünyasında baş verənləri qızğın müzakirə edərdilər. Nils və qardaşları isə bir küncdə oturaraq bu söhbətlərə sonsuz maraqla qulaq asardılar.

Qəribəsi budur ki, özlərinin qaynar diskussiyalarından baş ayırmayan yaşlı elm adamları onların bir neçə addımlığında Danimarka elminə dünya şöhrəti gətirəcək balaca Nils Bor olduğunun fərqində olmayıblar...

Maraqlıdır ki, gənclik illərində gənc Nilsi ölkəsində fizikdən daha çox, istedadlı futbolçu kimi tanıyırdılar. 1922-ci ildə Nobel mükafatı alanda yerli qəzetlər hətta belə bir başlıqla çıxmışdı: "Məşhur futbolçu Nobel mükafatı aldı". Lakin qəzetdə dərc olunmuş məqalədə N.Borun Nobel mükafatını nəyə görə, futbola və ya digər hansısa başqa işə görə aldığı belə məlum deyildi.

Sovet İttifaqında 1937-ci ilin repressiyalarına məruz qalmış görkəmli fizik Lev Landau (yeri gəlmişkən Bakıdan anadan olub–red.) 1938-ci il aprelin 17-də təhlükəsizlik orqanları tərəfindən saxlanılmışdı. Landaunun həbsini eşidən Bor dəhşətə gəlir və alimin fizika, bütövlükdə, dünya elmi üçün son dərəcə əhəmiyyətli şəxs olduğu barədə Stalinə məktub göndərərək Landaunun həbsdən azad olunmasını xahiş edir. Məhz Borun müraciətindən sonra Landau 1939-cu il aprelin 29-da azadlığa buraxılıb. Bu, o dövr üçün görünməmiş bir hadisə idi.

Borun Landauya dəstəyi sonrakı illərdə də davam etmişdir. Onlar ailəvi dost olmuşlar. Danimarkalı fizik 1961-ci ildə Sovet İttifaqına səfərə gələndə Landau ilə birlikdə bir çox tədbirlərdə iştirak etmişdilər. Yeri gəlmişkən, sizə təqdim edilən fotoda dahi fiziklərin Moskva Dövlət Universitetində tələbələrlə görüşü əks olunub.

Qeyd etmək lazımdır ki, N.Bor, öz növbəsində, L.Landaunun elmi yaradıcılığına böyük təsir göstərmişdir. Təsadüfi deyil ki, L.Landau ömrünün sonuna kimi Boru özünə müəllim hesab etmişdir.

Dahi alim bütün həyatı boyu istedadlı gənclərə diqqət və qayğı göstərib. Landau bir dəfə bununla bağlı Bora belə bir sualla müraciət edib:

–Sizin öz ətrafınıza çox sayda yaradıcı nəzəriyyəçiləri cəlb etməyinizin sirri nədir?

Bor belə cavab verib:

–Hansısa xüsusi bir sirr yoxdur, sadəcə, biz gənclər qarşısında ağılsız görünməkdən qorxmuruq.

*Təqdim etdi:*
***M.HACIXANLI***
**XQ**

*✓ 2022-ci ildə ADPU tərəfindən Bağırov Nemət Azər oğlunun adına verilmiş COG 18-05B/03 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.*

# ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin tabeliyində olan Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzinin kollektivi iş yoldaşları Elxan Tahirova anası

**MƏHLİQA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 3249
SİFARİŞ 149
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ

Çapa imzalanmışdır
00:00